**Azərbaycan Respublikası**
**Əqli Mülkiyyət Agentliyinin 2022-ci ildə**
**görülmüş işlər barədə geniş Hesabatı**

2022-ci il Azərbaycan Respublikası özünün hərtərəfli uzunmüddətli inkişafının keyfiyyətcə yeni strateji mərhələsinə daxil olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli, 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” bu mərhələdə dövlətimizin hədəflədiyi məqsədlərə nail olmaq üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmışdır. Həmin sənəddə milli prioritetlər sırasına daxil edilmiş “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat” və “rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı” istiqamətlərindən irəli gələn və reallaşdırılmalı olan innovasiya siyasəti daim əhəmiyyəti artan əqli mülkiyyət sistemi qarşısında da böyük vəzifələr qoymuşdur.

Dövlət başçısının 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda Əqli Mülkiyyət Agentliyinin qarşısında duran vacib vəzifələr açıqlanıb. Bu sırada “İnnovasiya ekosisteminin inkişafı” istiqaməti üzrə əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması; effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması; həmçinin patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Sadalanan tapşırıqlarla bağlı hesabat ilində geniş iş aparılıb.

Bununla yanaşı, digər dövlət qurumları ilə birgə Tədbirlər Planında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentlik Azərbaycan məhsullarının və “Made in Azerbaijan” brendinin hədəf bazarlarda aktiv təşviqi və bu brend altında ixrac olunan məhsulların həcminin artırılmasında, mədəni və yaradıcı sənayelərin dinamik inkişafının təmin edilməsi və bu sahədə ixrac potensialının gücləndirilməsində, habelə hüquqi və tənzimləyici infrastrukturun yaradılması, o cümlədən normativ hüquqi, statistika bazasının, əqli mülkiyyət, eləcə də idarəetmə üzrə mexanizmlərin formalaşdırılmasında fəal iştirak edir.

Startapların inkişafı üçün zəruri İKT infrastrukturunun gücləndirilməsi və istedad ehtiyatlarının yaradılması, o cümlədən vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması və dövrün sonuna startapların inkişafı üçün istedad ehtiyatının artması və infrastrukturun inkişafı sahəsində tədbirlərin həyata keçirilməsinə başlanılmışdır və bu iş davam edir.

“Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi” fəaliyyət istiqamətinə uyğun olaraq elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması, Azərbaycan elminin daha da inkişafı və dünya səviyyəsində mövqeyinin yüksəlməsi Agentliyin görəcəyi işlər sırasındadır.

Həmçinin innovasiyaların dəstəklənməsi və stimullaşdırılması, mədəni və yaradıcı cəmiyyətin inkişafının təşviqi, Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində yaradıcılıq sahələrinin inkişafının dəstəklənməsi və Azərbaycanda mədəniyyətin və yaradıcı sahələrin inkişafına dəstəyin verilməsi Agentliyin qarşısında duran prioritet vəzifələrdəndir.

Beləliklə, **Əqli Mülkiyyət Agentliyinin hesabat ilində fəaliyyətinin başlıca istiqaməti ölkənin innovasiya siyasətinin həyata keçirilməsinə xidmət etmək üzərində qurulmuşdur.** Əqli mülkiyyət institutunun yeni çağırışlara uyğun dəyişmiş konteksti və konseptual evolyusiyası Agentliyin yalnız xidməti sahə olması, əqli mülkiyyət obyektlərinin ekspertizasının aparılması və qorunma sənədlərinin verilməsi ilə kifayətlənmir, qorunmanın səmərəliliyini nəzərə alan, analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsir göstərən və bununla iqtisadi funksiyalar daşıyan, həmçinin qorunan obyektlərin sosial

hissəsini təhlil edən struktura və innovasiyaların fəal aktoruna çevrilir. Yeni inkişaf mərhələsində ölkəmizdə baş verən konseptual yeniliklər əqli mülkiyyət ekosisteminin institusional dəyişikliklərini zəruri etmiş və bu istiqamətdə önəmli addımlar atılmışdır.

Dövlət başçısının uzaqgörən siyasətindən irəli gələn institusional islahatlar çərçivəsində yaradılan Əqli Mülkiyyət Agentliyi həm müəlliflik hüququ və əlaqəli hüquqlar, həm də sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri və əmtəə nişanları) sahələrini əhatə edir. Dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxs olaraq Agentlik öz fəaliyyətini büdcə vəsaitləri ilə yanaşı, fəaliyyət sahəsi ilə bağlı əldə olunan vəsaitlər və tranzaksiya xərclərini nəzərə alan optimal üsullarla idarə olunma hesabına qurmuşdur. Eyni zamanda Agentliyin tabeliyində fəaliyyət göstərən Respublika Elmi-Texniki Kitabxanası, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyəti də Agentlik tərəfindən əlaqələndirilir. Əqli mülkiyyət sahəsində aparılan konseptual və institusional islahatlar hesabına yaradılmış bu cür özünəməxsus unikal idarəetmə modeli əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğundur, sistemli xarakter daşıyır, ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir və öz töhfəsini verməkdədir.

**İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər sahəsində** Agentlikdə yaradılan sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun həyata keçirildiyi “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi xüsusi olaraq qeyd olunmalıdır. Bu sahədə tətbiq edilən “vahid pəncərə” prinsipi açıqlıq və şəffaflığı təmin etmiş, ixtira və patent fəallığının artmasına müsbət təsir göstərmiş, PƏNAH sistemi vasitəsilə göstərilən dövlət xidmətlərinin səviyyəsini yüksəltmişdir.

İnfrastrukturun yeni layihələri sırasında yaradılmış “Çağrı mərkəzi”nin fəaliyyəti əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının daha da artmasına müsbət təsirini göstərmişdir. İl ərzində əqli mülkiyyət məsələlərinə dair “Çağrı Mərkəzi” vasitəsi ilə daxil olmuş 31730-dan artıq müraciət cavablandırılmışdır. Keçirilmiş sorğulara əsasən “Çağrı mərkəzi”nin fəaliyyəti ictimai rəydə ən yüksək qiymət alıb.

Digər infrastruktur yenilik ölkəmizdə innovasiya ekosisteminin inkişafı, ixtiraçılıq fəaliyyətinin təşviqi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferinə dəstək verilməsi məqsədilə yaradılmış Agentliyin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi ilə bağlıdır. Mərkəzin Nizamnaməsi və strukturu Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 99 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Mərkəz universitetlərdə, elmi-tədqiqat institutlarında və kiçik və orta sahibkarlıq (KOS) subyektlərində əqli mülkiyyət ofislərinin yaradılması və hazırda mövcud olan ofislərin texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzlərinə çevrilməsi, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, innovativ inkişafın, o cümlədən startap layihələrinin dəstəklənməsi, elmi-tədqiqat nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədli istifadəsi üçün transferi, bu nəticələrin istifadəsindən gəlir əldə edilməsi, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması və qeyd olunan sahələrdə fəaliyyətin əlaqələndirilməsi istiqamətlərində xidmətlər göstərir. Mərkəzin fəaliyyəti Agentliyin əldə etdiyi vəsait hesabına həyata keçirilir. Bu istiqamətdə görülən tədbirlərə dəstək məqsədilə “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair Yaddaş kitabçası” (Azərbaycan və rus dillərində) və “Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması” kitabçası çap edilərək yayılmışdır.

Həyata keçirilən digər infrastruktur layihəsi Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin birgə təsisçiliyi ilə "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi"nin yaradılmasını qeyd etmək lazımdır. Burada müəlliflər, hüquq sahibləri, biznes menecerləri, iş adamları, tələbələr və s. kateqoriyadan olan maraqlı şəxslər üçün əqli mülkiyyətin müxtəlif sahələri üzrə dərslər təşkil ediləcək, onlar əqli mülkiyyət üzrə biliklərini artıra biləcək və bu sahədə onları maraqlandıran suallara cavab tapacaqlar. Burada həmçinin Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin bakalavr və magistr pillələrində təhsil alan tələbələrin təhsili üçün müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalar yaradılmışdır. Təhsil prosesi offlayn və onlayn platforması əsasında aparılır.

**1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn əqli mülkiyyət və iqtisadi inkişafla bağlı aidiyyəti vəzifələrin icrası.**

Agentlik əqli mülkiyyət sahəsində dövlət siyasətini həyata keçirən dövlət qurumu olaraq, özünün əsas vəzifə və məqsədini Prezident İlham Əliyevin geniş iqtisadi islahatlarının reallaşdırılmasına xidmət etməkdə görür, gələcəyə yönəlmiş strategiyasını və onun həyata keçirilməsi üçün illik fəaliyyət planını müəyyənləşdirərkən ölkə rəhbərliyinin qəbul etdiyi konkret proqram və sənədləri rəhbər tutur.

Hesabat ilində "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 3722 nömrəli Sərəncamının icrası çərçivəsində əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Sənaye mülkiyyəti obyektləri kimi müvafiq Dövlət reyestlərində əvvəlki illərdə qeydiyyata alınmış və Azərbaycan Respublikasının ərazisində qüvvədə olan xalça sənətinə dair 4 əmtəə nişanı, 1 ixtira və 3 coğrafi göstəricinin qüvvədə saxlanması və sənaye tətbiqi üçün zəruri işlər görülmüşdür.

"2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamının aidiyyəti üzrə icrası ilə bağlı Hesabat ilində şərabçılıq məhsulları üzrə milli brendlərin yaradılması və müvafiq qaydada qeydiyyatının təmin edilməsi Agentliyin fəaliyyətində diqqət mərkəzində saxlanılmış, yerli sahibkarların adına şərabçılıq məhsullarına aid 23 əmtəə nişanı qeydiyyata alınmışdır.

Ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn və reallaşdırılmalı olan "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" və "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" istiqamətləri milli prioritetlər sırasına daxil edilmişdir. Həmin sənəddə qeyd edildiyi kimi "Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır".

Əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr də ölkənin innovasiya siyasəti ilə müəyyən edilir. Bunu nəzərə alaraq bu sahədə digər tədbirlərlə yanaşı, əqli mülkiyyətlə bağlı biliklərin artırılması və maarifləndirmə işlərinin görülən tədbirlərin səmərəliliyinin yüksəlməsində mühüm amil olduğuna xüsusi diqqət yetirilir

Bununla bağlı hesabat ilində Agentlikdə "Nə etməliyik ki, biznes və mədəniyyət müxtəlif qütblərdə yerləşməsinlər", "Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar", "Azərbaycana məxsus coğrafi göstəricilər", "Творчество как основа авторства",

“Эволюция права интеллектуальной собственности и задачи офисов ИС в современных условиях”, “Инновации и охрана ИС в евразийском пространстве”, həmçinin ötən illərdə buraxılmış kitabların bir çoxu yenidən çap edilərək yayılmışdır.

Son illər ölkəmizdə ixtira fəallığının artırılmasının stimullaşdırılmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə 2022-ci ildə həyata keçirilən tədbirlər normativ-hüquqi bazanın və ifrastrukturun təkmiləşdirilməsi yanaşı, ixtiraçılıq fəaliyyətinin stimullaşdırılması sahəsində görülən işləri də əhatə edir. Bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər sənaye mülkiyyəti sahəsində fəaliyyətin səmərəliliyinin yüksəlməsinə və ixtira fəallığının artmasına böyük təkan vermişdir. “İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə bağlı Nazirlər Kabinetinin 2022-ci il 24 iyun tarixli 369s nömrəli Sərəncamına uyğun olaraq Agentlik tərəfindən Ədliyyə Nazirliyi və Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla hazırlanmış “İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası”nın layihəsi Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Göstərilən sənədlərin qəbul edilməsi ixtiraçılıq fəaliyyətinin stimullaşdırılmasına, beynəlxalq təşkilatlarda və xarici ölkələrin patent idarələrində ixtiraların Azərbaycan Respublikasının vətəndaşları olan hüquq sahibləri tərəfindən qeydiyyata alınmasına və patent fəallığının artmasına müsbət təsir göstərəcəkdir.

Göstərilən sənədlərin icrası çərçivəsində Agentliyin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi tərəfindən patent sahibləri ilə görüşlər keçirilmiş, vahid rəqəmsal baza yaradılmış, perspektivli patentlərin qiymətləndirilməsi və seçilməsi metodikası hazırlanmış, nəticədə bir neçə patentin və patentləşdirmə ərəfəsində olan əqli mülkiyyət obyektlərinin tətbiqi üçün maliyyə dəstəyinin göstərilməsi barədə təklif irəli sürülmüşdür.

“Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli 881 nömrəli Sərəncamının 1.3 və 1.4-cü bəndlərinin aidiyyəti üzrə icrası ilə bağlı 2022-ci ildə Agentlik tərəfindən reallaşdırılan ardıcıl tədbirlərin nəticəsi olaraq əqli mülkiyyət insitutunun müasir çağırışlara cavab vermə imkanları genişlənmiş, yaradıcı şəxslərin – müəlliflərin, ixtiraçıların əqli mülkiyyət hüquqlarının qorunmasının daha etibarlı təmin olunma mexanizmləri təkmilləşdirilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihəsi Agentlik tərəfindən hazırlanmış 1 Qanun qəbul edilmiş, Azərbaycan Respublikası Prezidenti tərəfindən 4 Fərman imzalanmış, Nazirlər Kabinetinin 4 Qərarı və 3 Sərəncamı qəbul edilmişdir.

Bu istiqamətdə innovativ inkişafın dəstəklənməsi, innovasiya təşəbbüskarlığının və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının təşviq edilməsi, elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artırılması və tətbiqi xarakter daşıması ilə bağlı davamlı və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Eyni zamanda sənaye mülkiyyəti sahəsindəki mövcud vəziyyətin öyrənilməsi məqsədi ilə təhlil və araşdırmalar aparılmış, əqli mülkiyyətin başlıca məqsədlərindən olan investisiyaların cəlb edilməsi və innovasiyaların həyata keçirilməsi istiqamətində zəruri işlər görülmüşdür. Bunlarla yanaşı, innovativ inkişafın dəstəklənməsində əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasının əhəmiyyəti nəzərə alınmaqla müxtəlif formatlı digər tədbirlər, o cümlədən hər il dünya səviyyəsində qeyd olunan 26 aprel - “Beynəlxalq Əqli Mülkiyyət Günü” ilə əlaqədar Əqli Mülkiyyət Agentliyinin

təşəbbüsü ilə ölkəmizdə silsilə tədbirlər keçirilmiş, əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafına verdiyi töhfələr ictimaiyyətin diqqətinə çatdırılmışdır.

2022-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən "Beynəlxalq Əqli Mülkiyyət Günü"nün devizi kimi "Əqli mülkiyyət və gənclik: Gələcək naminə inovasiyalar" mövzusu seçilmişdir. Gənclərin müasir dövrdə ixtiraçılıq və yaradıcılıq sahəsində yeni baxışlarının, onların ən mürəkkəb məsələləri həll etməyə hazır olmaları, eləcə də daha yaxşı gələcəyə can atmalarının innovasiya və inkişafa stimul verdiyini nəzərə alaraq, hesabat ilində Əqli Mülkiyyət Günü münasibətilə keçirilən tədbirlər çərçivəsində Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının birgə təşkilatçılığı ilə 2022-ci ilin 26 aprel tarixində innovasiya təşəbbüskarlığının təşviq edilməsi və gənclərin yaradıcılığının dəstəklənməsinə həsr olunmuş "Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar" mövzusunda konfrans-vebinar keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri professor Kamran İmanov Azərbaycan xalqının mədəni irsi, o cümlədən ənənəvi mədəni nümunələri, bilikləri, sənətkarlığının kreativliyindən irəli gəldiyini qeyd edərək ilk növbədə cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, uzaqgörən siyasəti nəticəsində, xüsusən işğaldan azad edilmiş ərazilərdə salınan kreativliyi təcəssüm etdirən şəhərlər – Smart City, Smart Village cərgəsinə çoxlu mədəni mərkəzlərimizin də daxil olacağına ümidvar olduğunu bildirib. Agentliyin rəhbəri Azərbaycanın kreativliyinin dəstəklənməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərinin əvəzsiz olduğunu vurğulayaraq onun Azərbaycanın yaradıcı və sənətkar təbəqəsinə, kreativ sinfinə olan qayğısının, mədəniyyətə, milli mədəni dəyərlərimizə diqqətinin və humanitar sahədə həyata keçirilən təşəbbüslərinin kreativ Azərbaycanın reallaşdırılmasında böyük rəğbətlə qarşılandığını diqqətə çatdırıb.

Kamran İmanov vurğulayıb ki, Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin məqsədi dövlət başçısının uğurla apardığı islahatlara xidmət etmək, Azərbaycanın növbəti dördüncü sənaye inqilabının fəal iştirakçısına çevrilməsinə töhfələr verməkdir. Dövlət başçısının təsdiq etdiyi Agentliyin Nizamnaməsində "əqli mülkiyyətin müasir iqtisadiyyatda rolunun artırılması və müəlliflik hüququna əsaslanan iqtisadiyyatda (kreativ iqtisadiyyatda) investisiya mühitinin yaxşılaşdırılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və kreativ iqtisadiyyatın ölkənin ümumi daxili məhsulundakı payının müəyyən edilməsi, həmçinin texnologiyaların transferinin, innovasiyalara dəstək və kommersiyalaşdırma infrastrukturunun yaradılması ilə bağlı tədbirlər görmək" (2.2.8-ci bənd) vəzifələri qoyulmuşdur. Bununla yanaşı, Nizamnamədə "əqli mülkiyyət hüquqlarına əsaslanan milli iqtisadiyyat sahələrinin iqtisadi göstəricilərinin daimi müşahidəsini aparmaq, ümumi daxili məhsulda əqli mülkiyyətə əsaslanan sənayenin payını daha dəqiq dəyərləndirmək üçün müvafiq işlər görmək, əqli fəaliyyət nəticələri ilə bağlı beynəlxalq reytinqlərdə ölkəmizin reytinqinin müşahidəsini həyata keçirmək, təhlillər aparmaq və təkliflər hazırlamaq" (3.1.43-cü bənd) kimi müddəalar da yer almışdır.

Kamran İmanov müasir dünyamızda əqli fəaliyyətin rolunu və bu əlamətdar gün münasibətilə təşkil edilən tədbirlərin gənclərdə böyük maraq doğurduğunu xüsusi vurğulayaraq qeyd etmişdir ki, "Hazırda dünyanın əksər qabaqcıl ölkələri kimi, Azərbaycanda da innovasiyalar ekosistemi sürətli inkişafdadır. Ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, bu istiqamətdə də gənclərin fəal iştirakı və kreativliyi müşahidə olunur və dövlətimiz gənc nəslə öz potensiallarını faydalı məqsədlərə yönəltmələri üçün hər cür şərait yaradır. Gənclik - kreativlik deməkdir. Bunun bir bariz nümunəsi də müasir startapların əksəriyyətinin gənclər tərəfindən yaradılmasında və qeydiyyatdan keçirilən əqli mülkiyyət obyektlərinin gənc sahiblərinin sayının getdikcə artmasındadır".

Vebinarın açılış hissəsində çıxış edən Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının İdarə Heyətinin sədri Vasif Eyvazzadə yaradıcı sənayelərdə müasir biznes çağırışlarının (maliyyəyə çıxış, vergi, gömrük, əqli mülkiyyət, milli məzmun yaradıcılığında dəstək, bilik-bacarıqların artırılması, innovasiyalar və s.) ətraflı təhlil edilməsi, dövlət-özəl təfədaşlığının inkişafı, bilik-bacarıqların artırılması, effektiv sahəvi təşkilatlanma, müvəqqəti vergi güzəştlərinin və sərfəli kredit imkanlarının yaradılması, milli məzmun yaradıcılığı və istehsalın təşviqi, tələbin stimullaşdırılması və s. kimi məsələlərin həll edilməsi zəruriliyini qeyd edib.

Tədbirdə Bakı Dövlət Universitetinin Əqli mülkiyyət hüququ kafedrasının müdiri vəzifəsini icra edən, Ombudsman aparatının rəhbəri Aydın Səfixanlı "Gənclərin əqli mülkiyyət sahəsində ixtisaslaşması və onun iqtisadiyyatın inkişafına təsiri" mövzusunda məruzə edib. O, Əqli Mülkiyyət Agentliyi ilə əməkdaşlıq çərçivəsində Bakı Dövlət Universitetində də əqli mülkiyyət hüquqlarının qorunması və təmin edilməsi, bu sahədə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrlara artan ehtiyacın ödənilməsi məqsədilə davamlı işlərin görüldüyüunü bildirib, Hüquq fakültəsində Əqli Mülkiyyət Hüququ kafedrasının yaradıldığını, peşəkar müəllim heyyətinin formalaşdırıldığını, tələbələrin əqli mülkiyyət sahəsində nəzəri və təcrübi biliklərinin inkişaf etdirilməsi üçün geniş imkanların yaradıldığını vebinar iştirakşıların diqqətinə çatdırıb.

Agentlyin Əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin müdiri Rüstəm Ağayevin "Kreativ industriyanın inkişafı" mözvusunda məruzə edərək, kreativ məhsul və xidmətlərin əsasının müəllif hüquqlarını cəmləşdirən mülkiyyət təşkil etdiyini bildirib, 2003-cü ildən başlayaraq Müəllif Hüquqları Agentliyi daha sonra isə Əqli Mülkiyyət Agentliyi tərəfindən ÜDM-da müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənayelərin-kreativ industriyanın payının araşdırıldığını və müvafiq hökumət strukturlarına çatdırıldığını qeyd edib və Azərbaycanda ÜDM-da kreativ sənayenin payının getdikcə artmaqda olduğunu vurğulayıb.

Müzakirələr zamanı Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun İcraçı direktoru vəzifələrini icra edən Yusif Abdullayev və AMEA-nın İqtisadiyyat İnstitutunun baş direktoru Nazim İmanov çıxış edərək müzakirə edilən məsələ ilə bağlı fikirlərini bölüşüblər.

Bu istiqamətdə görülən işlər çərçivəsində Agentliyin təşəbbüsü və dəstəyi ilə ölkəmizin gənc ixtiraçılarının beynəlxalq səviyyədə keçirilən müsabiqələrdə qazandıqları nailiyyətləri xüsusi qeyd etmək lazımdır. Belə ki, ölkəmizin gənc ixtiraçıları Avrasiya Patent Təşkilatı (APT) tərəfindən təşkil olunmuş "Gələcəyə baxış" Avrasiya Patent Universiadasında qaliblər sırasında yer almışlar. Gənc ixtiraçı Nüsrəddin Ömərovun "Arıları gənələrdən təmizləmək üçün "ANTİVARROA qurğusu" adlı ixtira və onunla bağlı olan sənaye nümunəsi və əmtəə nişanı Agentlikdə qeydiyyata alınmışdır. Bir sıra xarici ölkələrdə bu qurğuya maraq göstərilir.

Universiadanın nəticələri ilə bağlı iyul ayında Əqli Mülkiyyət Agentliyində tədbir keçirilmişdir. Tədbirdə çıxış edən Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqov ölkə rəhbərliyinin elm-təhsil sahəsinə xüsusi qayğısını vurğulayaraq, Agentlik tərəfindən elm adamlarına, yaradıcı şəxslərə və ixtiraçılara dəstək verilməsinə və bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xüsusi önəm verildiyini bildirib. S.Tapdıqov ölkəmizi təmsil edən şagird və tələbələrin, gənc alimlərin həm APT tərəfindən keçirilən, həm də digər beynəlxalq müsabiqələrdə mükafatlara layiq görülməsinin qürurverici olduğunu vurğulayaraq, "Gələcəyə baxış" Avrasiya Patent Universiadasının qalibləri sırasında "ƏMİR Texniki Xidmətlər" MMC-nin işçisi Nüsrəddin Ömərovun "Arıları gənələrdən təmizləmək üçün ANTİVARROA qurğusu" layihəsinin medalla mükafatlandırıldığını bildirib və müəllifə Avrasiya Patent Universiadasının medalı və sertifikatı təqdim edib.

**"Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli

2199 nömrəli Fərmanın icrasının təmin edilməsi məqsədi ilə “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı”nın aidiyyəti üzrə icrası ilə bağlı Agentlikdə görülmüş işlər barədə işçi qrupuna və Nazirlər Kabinetinə məlumat verilmişdir. Fərmandan irəli gələn aidiyyəti vəzifələrin icrası çərçivəsində aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilmişdir:

**1.1. “Əqli mülkiyyət üzrə kurslar və treninqlərin mütəmadi təşkil edilməsi” istiqaməti üzrə:**

- 2022-ci ildə nəzərdə tutulmuş tədbirlər çərçivəsində Əqli Mülkiyyət Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin həmtəsisçiliyi ilə “Əqli Mülkiyyət üzrə Milli Təlim Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Eyni zamanda Əqli Mülkiyyət Agentliyi ilə Bakı Dövlət Universiteti (BDU) arasında 2022-ci il 8 iyul tarixində imzalanmış Memoranduma uyğun olaraq Agentliyin nəzdində Bakı Dövlət Universitetinin Əqli Mülkiyyət hüququ kafedrasının filialı yaradılmış, ali təhsilin bakalavr və magistr pillələrində təhsil alan tələbələrin təhsili üçün müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalar ayrılmışdır. Filialda BDU-nun Hüquq fakültəsinin “Əqli mülkiyyət hüququ” ixtisası üzrə magistr proqramında təhsil alan magistrantlara ixtisas fənləri tədris olunur. “Əqli mülkiyyət hüququ” ixtisaslaşması üzrə tədris olunan dərslərin Agentlikdə keçilməsi magistrantların yeni bilik və bacarıqlar əldə etmələrinə daha geniş imkan yaradır. Tanınmış beynəlxalq ekspertlər, əqli mülkiyyət məsələləri üzrə təcrübəsi olan hakimlər, Agentliyin mütəxəssisləri tələbələr qarşısında prezentasiyalarla çıxış edirlər.

Hazırda digər ali məktəblərdə də əqli mülkiyyət ixtisasının öyrədilməsi və kafedraların yaradılması məqsədilə müvafiq işlər aparılır.

Bu istiqamətdə nəzərdə tutulan tədbirlər çərçivəsində 2022-ci il 23 fevral tarixində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyası və KOBİA yanında İctimai Şura tərəfindən “Yaradıcı Sənayelərdə Çağırışlar və Biznes İmkanları” mövzusunda İctimai Müzakirə təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət naziri, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov, Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının İdarə Heyətinin sədri Vasif Eyvazzadə çıxış ediblər.

İctimai müzakirəyə onlayn formatda qoşulan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov geniş təqdimatla çıxış edib və Agentliyin kreativ sənaye sahəsində fəaliyyəti barədə ətraflı məlumat verib.

Bunlarla yanaşı, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi tərəfindən müntəzəm olaraq “Əqli mülkiyyət nədir”?, “Müəllif hüququ, Əlaqəli hüquqlar”, “Əmtəə nişanları, Coğrafi işarələr, Sənaye nümunələri”, “Patentlər”, “Yeni bitki növləri”, “Ədalətsiz rəqabət”, “Əqli mülkiyyət hüquqlarının müdafiəsi”, “Əqli mülkiyyət sahəsində yeni problemlər” mövzularında təlimlər təşkil edilmişdir. Həmçinin ÜƏMT-in distant təhsil programı əsasında hazırlanmış mövzular çərçivəsində “Bern Konvensiyası - prinsipləri”, “Roma Konvensiyası – prinsipləri”, “ÜƏMT-nın İfalar və fonoqramlara dair Müqaviləsi”, “Pekin Müqaviləsi – prinsipləri”, “Hüquqşünaslar üçün kollektiv idarəetməyə giriş”, “Əqli mülkiyyət hüquqlarının ədalətli idarə edilməsi və şəffaflıq”, “Hüquqşünasların vəzifələri və öhdəlikləri”, “Azərbaycan Respublikasının Hökuməti və ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikası Hökuməti və ÜƏMT arasında əməkdaşlıq proqramı”, “Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qeyri-qanuni surətlərinin çıxarılmasından

qorunmasına dair Konvensiya", "Mübahisələrin həlli" modulları üzrə onlayn dərslər keçilmişdir.

**1.2. "Qlobal İnnovasiyalar İndeksi" istiqaməti üzrə:**

- "Əqli mülkiyyət barədə real statistik məlumatların beynəlxalq reytinq təşkilatlarına çatdırılması". Əqli Mülkiyyət Agentliyi hər il mütəmadi olaraq əqli mülkiyyətə aid olan statistik məlumatların (İxtiralarin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; ixtiraların qeydiyyatı, sahibin ölkəsi üzrə; ixtiranın qeydiyyatı, iddia sənədlərinin verilmə tarixi üzrə; qüvvədə olan ixtiralar, sahibin ölkəsi üzrə; qüvvədə olan ixtiralar, iddia sənədinin verilmə tarixi üzrə; faydalı modellərin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; faydalı modellərin qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan faydalı modellər, sahibin ölkəsi üzrə; sənaye nümunələrin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; iddia sənədlərinin təsnifat sinifləri üzrə hesabatı; sənaye nümunələrin qeydiyyatı, siniflər üzrə; sənaye nümunələrin qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan sənaye nümünələri, qeydiyyat ili üzrə; əmtəə nişanların iddia sənədlərinin Əmtəə və xidmətlərin beynəlxalq Nitsa təsnifatının sinifləri üzrə hesabat; iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; mənşə ölkələri üzrə kollektiv və sertifikasiya nişanları üzrə hesabat; prosedur qaydaları üzrə hesabat; əmtəə nişanların qeydiyyatı, siniflər üzrə; əmtəə nişanların qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan əmtəə nişanları, qeydiyyat ili üzrə; qüvvədə olan kollektiv əmtəə nişanları, qeydiyyat ili üzrə; Coğrafi göstəricilərin iddia sənədlərinin sayı üzrə hesabat; coğrafi göstəricilər, məhsul kateqoriyalarına görə) hazırlanmasını və Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) təqdim olunmasını təmin edir. Həmin məlumatları və onların illər üzrə dinamikasını ÜƏMT saytının Azərbaycana aid bölməsində izləmək mümkündür. ÜƏMT-nin saytında Azərbaycanın və ÜƏMT-yə daxil olan digər ölkələrin hər birinin özünəməxsus profili olur ki, həmin profil üzərindən dəyişiklikləri izləmək və təhlil etmək mümkündür. 2022-ci ilin may ayında 2021-ci ilin statistik göstəriciləri ÜƏMT-na təqdim edilmişdir.

**- Azərbaycan beynəlxalq reytinqlərdə.**

Son illər əqli mülkiyyət sahəsində aparılan məqsədyönlü işlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmlədirilməsində əhəmiyyətli rol oynayır. Hesabat ilində ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin möhkəmlədirilməsi məqsədilə "Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması, hesabatdakı göstəricinin mövcud vəziyyət əsasında müqayisəli qiymətləndirilməsi və qeyd olunan göstəricinin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanması" istiqaməti üzrə müvafiq araşdırmalar davam etdirilmiş, beynəlxalq təşklatların hesabatları aidiyyəti üzrə təhlil edilmişdir.

Dünya İqtisadi Forumunun sonuncu Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə son Hesabatına görə (2022-ci ilə görə Hesabat hələlik dərc olunmamışdır), Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutur. Bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

Qeyd etmək lazımdır ki, Cornel Universiteti (ABŞ), INSEAD Biznes Məktəbi (Fransa) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) birgə nəşri olan və 2022-ci ildə 132 ölkəni əhatə edən Qlobal İnnovasiya İndeksi (GII) – 2022-in 15-ci nəşri yayımlanmışdır. Agentlik tərəfindən GII-2022 indikatorları təhlil olunub və nəticələri KİV-də açıqlanmışdır.

GII-2022 reytinqi innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən 81 göstərici əsasında tərtib edilmişdir. Təhlil edilən göstəricilər qanunvericilik, elm və təhsildən tutmuş bazar, biznes, infrastruktur və s. məsələlərinin inkişafına qədər geniş məlumatlar spektrini ehtiva edir. GII-nin nəşr edilməsinin əsas məqsədi ölkələrin innovasiya mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsinə imkan yaratmaqdır.

GİI-2022 reytinqi innovasiya fəaliyyətinin iki yekunlaşdırıcı - "innovasiya resursları" və "innovasiya nəticələri" alt indekslərə daxil olan 7 qrup indikatordan ibarətdir.

"İnnovativ resurslar" alt indeksi: 1 – təsisatlar; 2 - insan kapitalı və elm; 3 - infrastruktur; 4 - daxili bazarın inkişafı və 5 - biznesin inkişafı beş qrupa bölünməklə, innovasiya prosesləri baş verən milli iqtisadiyyatın elementlərini dəyərləndirməyə imkan verir.

"İnnovativ nəticələr" alt indeksi: 6 - bilik və texnologiyaların yayılması və 7 - kreativ fəaliyyətin nəticələri iki qrupa bölünməklə, innovasiya fəaliyyətinin faktiki nəticələrini əks etdirir.

"Qlobal İnnovasiya İndeksi (QİI) 2022 Hesabatı"nda Azərbaycan "İnnovativ resurslar" alt indeksi üzrə reytinqdə MDB çərçivəsində Ermənistanı (82), Qırğızıstanı (85), Belarusu (86) və Tacikistanı (104) qabaqlayaraq, 79-cu yerdə qərarlaşmışdır. Bu alt indeksdə ölkəmiz ən yaxşı nəticəni "Təsisatlar" blokunda tutur – 46-cı yer. Ötən illə müqayisədə (58-ci yer) ölkəmiz öz reytinqini 12 pillə yaxşılaşdıraraq, Qazaxıstan (52), Ermənistan (55), Özbəkistan (63), Rusiya (89), Tacikistan (91), Ukrayna (97), Moldova (98) və Qırğızıstanı (113) qabaqlamışdır. "Təsisatlar" blokunda "biznes mühiti" istiqaməti üzrə ölkəmiz yüksək 19-cu yeri tutur. "İnsan kapitalı və elm" blokunda Azərbaycan "tədqiqat və inkişaf" inteqral göstəricisində mövqeyini yaxşılaşdıraraq 2021-ci ildəki 104-cü yerdən 2022-ci ildə 76-cı yerə yüksəlib.

"İnnovasiya əlaqələri" istiqaməti üzrə Azərbaycan 56-cı yerdə qərarlaşıb və ötən illə müqayisədə (66-cı yer) ölkə öz reytinqini 10 pillə yaxşılaşdıraraq, MDB ölkələrini qabaqlayıb: Özbəkistan (59), Gürcüstan (68), Rusiya (70), Ukrayna (78), Ermənistan (112), Moldova (116), Tacikistan (117), Qazaxıstan (123), Qırğızıstan (125), Belarus (129).

Əqli mülkiyyət obyektləri ilə müəyyən edilən qeyri-maddi aktivlərin göstəricilərinə görə ixtiralar üzrə 71-ci və faydalı modellər üzrə 49-cu yeri tutur.

"Patent ailələri" göstəricisi üzrə Azərbaycan 66-cı yerdə qərarlaşıb və ötən illə müqayisədə bu göstəricini 15 pillə yaxşılaşdırıb.

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|---|
| **Global İnnovation İndex**<br>***- rank***<br>***- value*** | **93**<br>**30,1** | **85**<br>**29,6** | **82**<br>**30,6** | **82**<br>**30,20** | **84**<br>**30,21** | **82**<br>**27,2** | **80**<br>**28,4** | **93**<br>**21,5** |
| 5.2.5 Patent ailələri<br>*- rank*<br>*- value* | 91<br>0,0 | 78<br>0,0 | 74<br>0,1 | 76<br>0,0 | 79<br>0,0 | 93<br>0,0 | 81<br>0,0 | 66<br>0,1 |
| 6.1.1 Rezidentlərin patent müraciətləri<br>*- rank*<br>*- value* | 61<br>1,0 | 60<br>1,2 | 59<br>1,3 | 60<br>1,1 | 60<br>1,1 | 64<br>1,0 | 56<br>1,3 | 71<br>0,7 |
| 6.1.2 Rezidentlərin PCT patent müraciətləri<br>*- rank*<br>*- value* | 99<br>0,0 | 94<br>0,0 | 99<br>0,0 | 72<br>0,1 | 67<br>0,1 | 74<br>0,1 | 76<br>0,0 | 91<br>0,0 |
| 6.1.3. Rezidentlərin faydalı model müraciətləri<br>*- rank*<br>*- value* | 57<br>0,1 | 46<br>0,1 | 46<br>0,1 | 53<br>0,1 | 53<br>0,1 | 50<br>0,2 | 39<br>0,4 | 49<br>0,2 |
| 7.1.2. Rezidentlərin əmtəə nişanlarının müraciətləri<br>*- rank*<br>*- value* | 77<br>22,4 | 76<br>22,2 | 91<br>16,5 | 91<br>17,0 | 91<br>16,7 | 91<br>21,2 | 80<br>26,0 | 80<br>27,1 |

| 7.1.4. Rezidentlərin sənaye nümunələrin müraciətləri<br>- *rank*<br>- *value* | 49<br>0,2 | 87<br>0,3 | 107<br>0,1 | 110<br>0,1 | 110<br>0,1 | 92<br>0,3 | 74<br>0,9 | 103<br>0,2 |
|---|---|---|---|---|---|---|---|---|

***Azərbaycan Qlobal İnnovasiyalar İndeksi Hesabatında***

| **GİI İndeks 2015-2022-ci illər üzrə** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Göstəricilər | İllər | | | | | | | |
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| GİI | **93** | → **85** | → **82** | = **82** | → **84** | → **82** | → **80** | → **93** |
| İnnovasiya resursları (input) | **89** | → **81** | → **78** | → **76** | → **77** | → **76** | → **74** | → **79** |
| Innovasiya nəticələri (output) | **103** | → **94** | → **89** | → **87** | → **90** | → **86** | → **91** | → **110** |
| *Reytinqdə iştirak edən ölkələrin sayı: 2015 -141; 2016.-128; 2017-127: 2018-126; 2019-129; 2020– 131; 2021- 132; 2022-132.* | | | | | | | | |

2022-ci ildə daha bir beynəlxalq təşkilat - “Mülkiyyət Hüquqları Alyansı” (“The Property Rights Alliance”) tərəfindən hazırlanmış 129 ölkəni əhatə edən Hesabatda Azərbaycan reytinqdə 60-cı yeri tutaraq Ermənistan (63), Gürcüstan (72), Qazaxıstan (75), Rusiya (85), Moldova (95) və Ukraynanı (105) qabaqlayır.

“Əqli mülkiyyət hüququ” qrupunda ölkəmiz Qazaxıstan (86), Moldova (90), Ermənistan (91), Ukrayna (93) və Gürcüstandan (112) irəlidədir, üstəlik “Əqli mülkiyyətin mühafizəsinin dərk edilməsi” göstəricisinə görə Azərbaycan reytinqdə yüksək 30-cu yeri tutur.

ABŞ Dövlət Departamentinin 2022-ci ildə Azərbaycanın investisiya mühiti haqqında yaydığı hesabatın (“2022 Investment Climate Statements: Azerbaijan”) 5-ci bölməsinin “Əqli mülkiyyət hüquqları” hissəsində də ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunması səviyyəsinin yaxşılaşması qeyd edilmişdir.

Hesabat ilində Agentliyin nümayəndələri Dünya Bankı Qrupunun “Əlverişli Biznes mühiti” layihəsinin “Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üçün Yol Xəritəsinin diaqnostika matrisası üzrə müzakirələrdə iştirak ediblər.

Eyni zamanda İqtisadiyyat Nazirliyinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Startap şəhadətnaməsi verilməsi üzrə yaradılmış Ekspertlər Şurasının iclaslarında iştirak edilmişdir. 2022-ci ildə Ekspertlər Şurasının 10 iclası keçirilmiş, 78 layihəyə baxılmışdır.

**2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.** 2022-ci ildə Əqli Mülkiyyət Agentliyinin fəaliyyət sahəsinin hüquqi çərçivəsini müəyyən edən hüquqi bazanın genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində işlər aparılmış, o cümlədən olkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində ölkə başçısının 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının icrası, eləcə də əqli mülkiyyət qanunvericiliyinin beynəlxalq

qanunvericiliyə uyğunlaşdırılması ilə bağlı aşağıda adları göstərilən qanunvericilik və normativ-hüquqi sənədlər qəbul edilmişdir.

**I. Qanun:**

1. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 435-VIQD nömrəli Qanunu.

**II. Azərbaycan Respublikası Prezidentinin Fərmanları:**

- “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 435-VIQD nömrəli Qanununun tətbiqi və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” 2022-ci il 11 yanvar tarixli 1573 nömrəli Fərmanı;
- “Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 11 fevral tarixli 1596 nömrəli Fərmanı;
- “İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanı;

- Azərbaycan Respublikası Prezidentinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 29 yanvar tarixli 668 nömrəli, “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı”nın təsdiq edilməsi haqqında” 2005-ci il 3 iyun tarixli 248 nömrəli, “Ailə kəndli təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər barədə” 2006-cı il 1 sentyabr tarixli 456 nömrəli, “Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2006-cı il 15 dekabr tarixli 196-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” 2006-cı il 27 dekabr tarixli 501 nömrəli, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2007-ci il 6 fevral tarixli 528 nömrəli və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanından irəli gələn məsələlər barədə” 2008-ci il 5 mart tarixli 717 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1927 nömrəli Fərmanı.

**III. Nazirlər Kabinetinin qərarları:**

- “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyindəki “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 99 nömrəli Qərarı;
- “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 aprel tarixli 135 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 oktyabr tarixli 443

nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 185 nömrəli Qərarı;

- "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 may tarixli 198 nömrəli Qərarı;

- "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı.

**IV. Nazirlər Kabinetinin Sərəncamları:**

- "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 435-VIQD nömrəli Qanununun tətbiqi və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 11 yanvar tarixli 1573 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 yanvar tarixli 48s nömrəli Sərəncamı;

- "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 11 fevral tarixli 1596 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 fevral tarixli 107s nömrəli Sərəncamı;

- "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 iyun tarixli 369s nömrəli Sərəncamı.

Sahə üzrə qanunvericilik bazasının müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi üzrə təklif və layihələrin hairlanması daim Agentliyin diqqət mərkəzində saxlanılır.

**3. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların tətbiqinə və innovasiyalara dəstək.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə innovasiya ekosisteminin inkişafı, ixtiraçılıq fəaliyyətinin təşviqi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferi yolu ilə elm və sənaye arasında qarşılıqlı əlaqələrin təmin olunması innovativ inkişafın əsas prioritetlərindən biridir.

Bununla əlaqədar, innovativ inkişafa və texnoloji nəticələrin tətbiq olunması üzrə imkanların yaradılmasına məsul olan strukturların fəaliyyəti Dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətdən irəli gələn tendensiya və tələblərə uyğun olmalı, həyata keçirilən islahatlara dəstəyi təmin etməlidir.

Hesabat dövründə Agentlik əqli fəaliyyət nəticələri olan yeni texnologiyalardan iqtisadi səmərə alınması üçün onların tətbiqi və kommersiyalaşdırılması mexanizmlərinin nəzəri və praktiki aspektlərinə dair əvvəlki illərdə aparılmış texnoloji bazarın araşdırılması; kommersiyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə metodologiyanın inkişafı; ali təhsil və elmi tədqiqat müəssisələrində texnologiyaların transferi və kommersiyalaşma mərkəzlərinin yaradılması istiqamətləri üzrə araşdırmaların davamı olaraq müvafiq tədbirlər həyata keçirmişdir. Hesabat ilində bu çərçivədə Agentlik və Avrasiya Patent Təşkilatı tərəfindən verilmiş qüvvədə olan ixtira patentlərinin kommersiyalaşması və tətbiq olunması məqsədi ilə Təhsil Nazirliyi üzrə təhlil aparmışdır. Araşdırmaların nəticəsi olaraq Təhsil Nazirliyinin aşağıda göstərilən müəssisələrinin qüvvədə olan ixtira patentləri seçilmişdir:

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – 35;

Bakı Dövlət Universiteti – 13.

Həmin patentlərə dair Agentlik tərəfindən Təhsil Nazirliyinə izahlı-arayış göndərilmiş, onların tətbiqinə və kommersiyalaşmasına yardım göstərilməsinə dair təklif verilmişdir.

2022-ci il ərzində Əqli mülkiyyət hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edən müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinin qeydiyyatı ilə bağlı ərizələrin qəbulu və digər xidmətlər Elektron Hökumət portalı, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulu isə 2020-ci ildə istifadəyə verilmiş və Hökumət Ödəniş Portalına inteqrasiya olunmuş PƏNAH sistemi və elektron poçt vasitəsilə həyata keçirilmişdir. PƏNAH sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində tətbiq edilən "vahid pəncərə" prinsipi daha da təkmilləşdirilmiş, açıqlıq və şəffaflığı təmin edən bu sistem göstərilən dövlət xidmətlərinin səviyyəsini yüksəltmişdir.

Yeni texnologiyaların iqtisadiyyatda tətbiqi və iqtisadi səmərəsinin artırılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşmasının təmin olunması, innovasiyaların cəlb edilməsi və milli brendlərin təbliği üzrə görülən işlərin dövlət başçısının islahatlar siyasətinin tələblərinə uyğunlaşdırılması üçün Agentliyin fəaliyyəti bu siyasətlə müəyyən edilən aidiyyəti vəzifələrin icrasına xidmət etməyə yönəldilmişdir.

Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanına müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2021-ci il tarixli 104 nömrəli Qərarı ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində yaradılmış Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin Nizamnaməsi və strukturu Nazirlər Kabinetinin 2022-ci il 18 mart tarixli 99 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılmasını, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferini və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılmasını həyata keçirən, innovativ inkişafın, o cümlədən startap layihələrin dəstəklənməsinə xidmət edən, elmi tədqiqatların nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədilə istifadəsi üçün transferinə, həmçinin bu nəticələrdən gəlir əldə etməyə yönəldilən, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsində, bu sahədə fəaliyyətin əlaqələndirilməsində iştirak edən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan publik hüquqi şəxsdir. Mərkəz hesabat ilində aşağıdakı istiqmətlərdə tədbirlər həyata keçirmişdir:

### 3.1. Elm və sənaye arasında bağlantının təmin olunması.

İlk növbədə müxtəlif ali təhsil müəssisələri və elmi tədqiqat institutları, o cümlədən müstəqil və tabeli texnoloji transfer ofisləri ilə qarşılıqlı əlaqənin təmin olunması fəaliyyətinin əsas prioritetlərindən biri olaraq nəzərdə tutulmuşdur. Bu məqsədlə 2022-ci ilin avqust ayından etibarən müxtəlif ali təhsil müəssisələri və elmi tədqiqat institutları ilə əməkdaşlığın

müxtəlif istiqamətləri ilə bağlı danışıqlar aparılmışdır. Ümumilikdə 19 ali təhsil müəssisəsi və elmi tədqiqat institutları ilə əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı danışıqlar danışıqlar aparılmışvə işlər davam etdirilir.

Aparılan danışıqların nəticələri və araşdırmalar əsasında ali təhsil müəssisələri və elmi tədqiqat institutlarının texnoloji innovasiyalara əsaslanan elmi tədqiqat potensialı nəzərə alınaraq, müxtəlif təhsil müəssisələri, elmi tədqiqat institutları, inkubasiya və akselerasiya mərkəzləri və texnoloji transfer ofislərinin vahid bazası formalaşdırılmışdır. Bazaya müxtəlif mərkəzi icra hakimiyyəti orqanlarının nəzdində fəaliyyət göstərən 37 qurum, müəssisə və struktur vahidi, 8 inkubasiya və akselerasiya mərkəzi, AMEA-nın nəzdində fəaliyyət göstərən 12 institut, 19 müxtəlif ali təhsil müəssisəsinin tabeliyində fəaliyyət göstərən 28 mərkəz, şöbə və texnopark, 42 qeyri-hökumət təşkilatı daxil edilmişdir. O cümlədən, Respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən 3 yüksək texnologiyalar parkı və 7 sənaye parkı haqqında da baza yaradılmışdır. Bundan əlavə, makro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsinə yardım göstərən 10 müxtəlif fond və digər qurumlar və onların dəstək mexanizmləri barədə də baza yaradılmışdır.

2023-cü ildən etibarən bu əlaqələrin daha da inkişaf etdirilməsi, əməkdaşlığın təcrübi müstəviyə keçirilməsi istiqamətində anlaşma memorandumları və əməkdaşlıq müqavilələri çərçivəsində ali təhsil müəssisələrinin nəzdində əqli mülkiyyət kafedralarının və/və ya texnologiyaların kommersiyalaşdırılması ofislərinin yaradılması və fəaliyyətinin təşkili istiqamətində iş aparılır.

**3.2. Patent sahiblərinin və kommersiyalşma potensialı olan əqli mülkiyyət obyektlərinin vahid bazasının yaradılması və bunun üçün seçim meyarlarının müəyyən edilməsi.**

Əqli mülkiyyət hüququnun sahibləri ilə işin təşkili, sıx və qarşılıqlı əlaqələrin təmin olunması əsas fəaliyyət prinsiplərindən birini təşkil edir. Bu məqsədlə, 2022-ci ildə 119 patent sahibi ilə əyani və müxtəlif texniki vasitələrin köməyi ilə 413 sənaye mülkiyyəti obyekti ilə bağlı hüquq sahibləri ilə görüş keçirilmişdir. Qeyd olunan sənaye mülkiyyət obyektlərinin 226-sı ixtira, 142-sı faydalı model, 45-i sənaye nümunəsi olmuşdur. Keçirilmiş görüşlərin nəticəsinə və aparılmış dəyərləndirmələrə əsasən, kommersiyalaşdırılma potensialına malik olan əqli fəaliyyət nəticələri müəyyənləşdirilərək vahid məlumat bazasına daxil edilmişdir. Bundan əlavə, layihələrin kommersiyalaşdırılması portfelinin keyfiyyətinin artırılması məqsədilə, Mərkəz Agentliklə birlikdə seçim kriteriyalarının təkmilləşdirilməsi istiqamətində iş aparır.

**3.3. Hüquq sahiblərinə məsləhət və dəstəyin verilməsi, habelə hüquq sahibləri ilə investorlar arasında əlaqələrin qurulması və ixtiraçılığın təşviqi.**

Hüquq sahibləri ilə keçirilən görüşlər nəticəsində kommersiyalaşdırılma və transfer ilə bağlı hüquq sahiblərinin mövcud ehtiyacları müəyyən edilərək qeyd edilmiş və ehtiyacı olan şəxslərə ilkin məsləhətlər verilmişdir. Eyni zamadan, hüquq sahiblərinin gələcəkdə biləvasitə Əqli Mülkiyyət Agentliyi və Mərkəz tərəfindən təşkil olunacaq müxtəlif sərgilərdə iştirak imkanı, sərgi üçün nümunələrinin olub-olmadığı ilə bağlı müəyyənləşdirmələr aparılaraq cari məlumatlar vahid məlumat bazasına ayrıca bənd kimi əlavə edilmişdir.

Texnoloji innovasiyalar sahəsindəki layihələr əsas götürülməklə, ixtiraçılığın müxtəlif istiqamətləri üzrə layihələrin geniş auditoriyaya təqdim edilməsi üçün sərgilərin təşkili nəzərdə tutulmuşdur. Mərkəz müntəzəm sərgilərin keçirilməsi istiqamətində Agentliklə birlikdə ilkin hazırlıq tədbirləri görmüşdür. 2023-cü il üzrə müəyyən edilmiş fəaliyyət proqramında da hüquq sahibləri ilə birgə müxtəlif layihə və proqramların təşkil olunması, onlarla qarşılıqlı əməkdaşlığın daha da möhkəmləndirilməsi və müəyyən edilmiş ehtiyacların təmin olunması istiqamətində fəaliyyət istiqamətinə uyğun olaraq dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, ayrı-ayrılıqda beynəlxalq françayzinqlər və onların royalti dərəcələri və kommersiya şərtləri ilə bağlı ilkin araşdırmalar aparılmış və gələcəkdə kommersiyalaşma məqsədilə ayrı-ayrı sahələr üzrə royalti faizlərinin bazar qiymətini müəyyən etmək üçün (hesabat statistikaların əldə edilməsi üçün) bazarlardan və ya proqram təminatlarından istifadə etmək üçün iş aparılır.

İxtiraların təşviq edilməsi məqsədilə seçilən və kommerisyalaşdırılan ixtiraların mükafatlandırılmasına dəstək üçün texnoloji innovasiyalar sahəsində beynəlxalq və yerli mükafatlarla bağlı ayrıca məlumat bazası formalaşdırılmışdır.

İxtiraçıların məlumatlılığının artırılması məqsədilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının balansında olan və innovasiya və kommersiyalaşmaya aid olan 117 adda müxtəlif kitab, kitabça və dərgi Mərkəz tərəfindən təhvil alınaraq ixtiraçılar tərəfindən sərbəst istifadə üçün ayrıca ayrılan ərazidə yerləşdirilmişdir.

**3.4. Texnoloji innovasiyalar və texnologiyaların kommersiyalaşdırılması sahəsində fəaliyyət proqramlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanması və həyata keçirilməsi istiqamətindəki tədbirlər.**

Azərbaycan Respublikasının Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası”nda Agentlik tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Agentlik tərəfindən müvafiq araşdırmalar aparılmış, tədbirlər planı hazırlanmış və planın icrası istiaqmətində işlər görülmüşdür.

“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli 3494 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair aidiyyatı üzrə təkliflərin təqdim edilməsi üzrə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin 3 oktyabr 2022-ci il tarixli məktubundan irəli gələn tələbinin təmin olunması üçün Agentlik aidiyyatı üzrə tədbirlər planı hazırlamışdır.

“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər Planında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əsas icraçı, Əqli Mülkiyyət Agentliyinin isə həmicraçı olduğu tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılmış işçi qrupunda Mərkəzin nümayəndəsi təmsil olunur. Tədbirlər Planı çərçivəsində startapların inkişafı üçün zəruri İKT infrastrukturunun gücləndirilməsi və istedad ehtiyatlarının yaradılması, bu istiqamətdə vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması, innovasiyaların özəl və dövlət sektoru tərəfindən tətbiqinə görə subsidiya mexanizminin yaradılması və subsidiyaların verilməsi, o cümlədən vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması, həmçinin emal sənayesi sahəsində yeni texnoloji məhsulların yaradılması və ya mövcud məhsulların təkmilləşdirilməsi üçün elmi tədqiqat mərkəzlərinin və mühəndislik sahəsinin inkişafının dəstəklənməsi (qrantlar, birgə maliyyələşmə) istiqamətlərində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı müvafiq təkliflər hazırlanmışdır.

**3.5. Texnologiyaların kommersiyalaşdırılması və transferi üzrə fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq, regional və xarici dövlətlərin müvafiq qurum və müəssisələri ilə ikitərəfli əlaqələr sahəsində görülən işlər.**

Əqli mülkiyyət sisteminin və texnologiyaların kommersiyalaşdırılması və transferi fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq, regional və xarici dövlətlərin müvafiq qurum və müəssisələri ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi Agentliyin qarşısında duran əsas məqsədlərdən biridir.

Bu istiqamətdə 2022-ci il ərzində müxtəlif beynəlxalq qurum və müəssisələrlə əməkdaşlıqların qurulması üzrə fəaliyyət davam etdirilmişdir. Belə ki, 2022-ci ilin sentyabr ayı ərzində Avrasiya Patent Təşkilatı (EAPO) tərəfindən texnologiya parklarının işinin təşkili və bu istiqamətdəki mövcud problemlər və problemlərin həlli üzrə daxil olan sorğu üzrə araşdırmalar aparmış, ölkəmizdə fəaliyyət göstərən texnologiya parklarının fəaliyyəti yaxından öyrənilmiş, onların fəaliyyətini tənzimləyən hüquqi aktlarda nəzərdə tutulmuş tənzimləyici normalar və boşluqlar müəyyən olunmuş və sorğuya cavab hazırlanmışdır. Hesabat dövründə EAPO ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

Bundan əlavə, ÜƏMT-nin Texnologiyaların transferi və kommersiyalaşdırılması sahəsində zəngin təcrübəyə malik olması, üzv ölkələrdə ixtiraçılıq fəaliyyətinin və ixtiraların kommersiyalaşdırılması və transferi, habelə elmi-tədqiqat nəticələri və ixtiraların hədəf bazarlarına çıxarılmasına dəstək mexanizmlərinin, həmçinin ÜƏMT-nin "Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzləri" (TİSC) proqramının olması nəzərə alınaraq, Agentlik tərəfindən ÜƏMT ilə təcrübə mübadiləsinin aparılması məqsədilə ilkin danışıqlar aparılmış və əməkdaşlıq istiqamətində razılaşma əldə edilmişdir.

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığın inkişafı üzrə Tədbirlər Planı (Yol Xəritəsi)" sənədinin 5-ci bəndinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının innovasiya infrastrukturu ilə "Skolkovo" Fondu arasında 2022-2023-cü illərdə əməkdaşlığa dair Tədbirlər Planı"na uyğun olaraq yerli startapların və innovativ layihələrin, o cümlədən "Made in Azerbaijan" brendinin Rusiya və MDB bazarlarına çıxışını təmin etmək məqsədilə Rusiya Federasiyasının "Skolkovo" Fondu ilə əməkdaşlıq çərçivəsində birgə icrası nəzərdə tutulan tədbirlər planı hazırlanmışdır.

Agentlik eyni zamanda Amerika Ticarət Palatasının CLDP proqramı ilə danışıqlar aparmış və həm Agentliyin ofisində, həm də videokonfrans formatında müxtəlif görüşlər keçirmiş və təcrübə mübadiləsi aparmışdır. CLDP ekspertləri Mərkəzə onlayn ekspert xidməti göstərmiş və tərəflər universitetlərdə texnologiyaların kommersiyalaşdırılması və transferi işnin təşkili, patentin seçilməsi kriteriyaları, effektiv texnologiya transferi və kommersiyalaşdırma haqqında ətraflı fikir mübadiləsi aparmışdır.

Bununla yanaşı, Agentliyin nümayəndələri elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması və transferi, elmi fəaliyyət nəticəsində əldə olunan hazır məhsul və xidmətlərin yerli və xarici bazarlara çıxarılması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması və beynəlxalq innovasiya ekosisteminə inteqrasiyanın təmin olunması məqsədilə 27-30 oktyabr 2022-ci il tarixində Almaniyanın Nüremberq şəhərində keçirilmiş ideyalar, ixtiralar və yeni məhsullar üzrə "iENA Beynəlxalq Ticarət Sərgisi"ndə iştirak etmiş, bu sahədə mövcud olan trendlər haqqında ətraflı məlumat əldə etmiş, müxtəlif beynəlxalq təşkilatlar, assosiasiyalar və şirkətlər tərəfindən kommersiyalaşdırılma və kommersiyalaşdırmanın təşfiq edilməsi istiqamətində mövcud olan dünya təcrübəsini öyrənmişlər.

Agentliyin nümayəndələri səfər müddətində "iENA" sərgisində iştirak edən müxtəlif ölkələrdən olan Əqli Mülkiyyət ofislərinin, Universitetlərin, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi ofisalərinin, ixtiraçı assosiasiyalarının və beynəlxalq təşkilatların təmsilçiləri, ixtiraçılar, o cümlədən ziyaratçılər ilə görüşlər keçirərək fikir mübadiləsi aparmış və potensial əməkdaşlıq formalarını müzakirə etmişlər. Bunlar sırasında Türk Patent Ofisinin nümayəndələri ilə görüşü xüsusi ilə vurğulamaq olar. Görüşdə iki ölkənin kommersiyalaşma sahəsində birgə səylərinin möhkəmləndirilməsi məsələsi və əqli mülkiyyətlə bağlı digər məsələlər müzakirə edilmişdir.

**3.6. İşçilərin innovasiya təşəbbüskarlığının və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının təşviq edilməsi ilə bağlı tədbirlər.**

2021-ci il 16 dekabr tarixində Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin həmtəsisçiliyi ilə yaradılan "Əqli Mülkiyyət Milli Təlim Mərkəzi" 2022-ci ildə fəaliyyət başlamış, fəaliyyət istiqmətləri üzrə bütün lazımi təşkilati işlər görülmüş, o cümlədən işçilərin innovasiya təşəbbüskarlığının və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının təşviq edilməsi ilə bağlı təlim materialları hazırlanmışdır.

Agentliyin işçiləri ÜƏMT və APT kimi beynəlxalq təşkilatlarda kurslar keçmişlər. Belə ki, 2022-ci ilin 23-24 avqust tarixlərində Qırğız Respublikasının Oş şəhərində APT-nin təşkilatçılığı ilə "Avrasiya patent-informasiya məkanının formalaşdırılması: təcrübə və perspektivlər" mövzusunda regional seminarda Agentliyin nümayəndələri də fəal iştirak etmişlər və iştirakçılar Əqli Mülkiyyət Agentliyinin rəqəmsallaşma sahəsində əldə etdiyi təcrübə, "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə əqli mülkiyyət obyektləri üzrə sənədlərin elektron formada verilməsi haqqında məlumatlandırılmışlar. PƏNAH sistemi vasitəsilə açıqlıq və şəffaflığın təmin edilməsi, iddia sənədlərinin icrası prosedurlarının bütün mərhələlərində iddiaçıların xəbərdarlıq edilməsi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

İnformasiya təhlükəsizliyi sahəsində mütəxəssislərin bacarıqlarının artırılmasına və İT texnologiyaları sahəsində biliklərin dərinləşdirilməsinə yönəlmiş digər bir addım Agentliyin nümayəndələrinin APT tərəfindən İnformasiya texnologiyaları və "İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi sahəsində təşkil etdiyi təlimlərində iştirakı olmuşdur.

Bununla yanaşı, Agentliyin tabeliyində olan qurumlarda əqli mülkiyyət sahəsində maarifləndirmə işlərinin gücləndirilməsi və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində aparılan işlər dərinləşdirilmişdir.

Agentliyin və onun tabeliyində olan qurumlarının işçilərinin biliklərinin, innovasiya təşəbbüskarlıqlarınının və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının dərinləşdirilməsi məqsədilə ayrıca iş aparılmış, işçilər Agentliyin və işlədikləri qurumların Nizamnamələri ilə yanaşı, müasir texnologiya və trendlərlə ilə tanış edilmiş, texnologiyaların transferi və kommersiyalşdırılması sahəsində kitablarla təmin edilmiş və innovativ təşəbbüskarlığa ruhlandırılmışdır. Eyni zamanda, müntəzəm olaraq təşkilatdaxili təlimlər təşkil edilmişdir. Bununla yanaşı, işçilər rəhbərlik tərəfindən keçirilən müntəzəm görüşlərdə rəqəmsal texnologiyaların inkişafı ilə ayaqlaşmanın vacib olması və ölkə başçısı tərəfindən aparılan islahatlar kursunun tərkib hissəsi olması barədə məlumatlandırılmışdır.

Bundan əlavə, ixtiraçıların məlumatlılığının artırılması məqsədilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının balansında olan və innovasiya və kommersiyalaşmaya aid 117 adda müxtəlif kitab, kitabça və dərgi Mərkəz tərəfindən təhvil alınaraq ixtiraçılar tərəfindən sərbəst istifadə üçün ayrıca ayrılan guşədə yerləşdirilmişdir.

Agentlik və onun tabeli qurumları 2022-ci il ərzində keçirdiyi görüşlər çərçivəsində öz Nizamnamələrinə uyğun olaraq yaradıcı insanlara bütün lazımi dəstəyi vermişdir. Xüsusilə, ali təhsil müəssisələri, ETİ-lər və müstəqil ixtiraçılarla aparılan görüşlər zamanı yaradıcı insanlar innovativ təşəbbüskarlığa həvəsləndirilmiş və müvafiq qurumlar Agentlik və onun tabeli qurumları ilə əməkdaşlığa dəvət edilmişdir.

**3.7. Əhalinin əqli mülkiyyət sahəsində maarifləndirilməsində və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasında iştirak etmək, müxtəlif maraqlı şəxslərin əqli mülkiyyət sahəsində savadlılığının artırılması istiqamətində tədbirlər.**

Planlaşdırlan sərgilər də daxil olmaqla Mərkəzin fəaliyyət proqramları və həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin böyük əksəriyyəti bu məqsədə xidmət etməkdədir. Bu istiqamətdə müəyyənləşdirilmiş tədbirlərdən biri də a.ağıda qeyd edilən üç fərqli istiqamətdə davamlı təlim və mentorluq proqramlarının təşkilidir:

1) Birinci istiqamət ixtiraçıların, startap və spinautların əqli mülkiyyət və texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsində savadlılığının artırılmasına;

2) ikinci istiqamət ali təhsil müəssisələrinin tələbələrinin və gənc tədqiqatçılarının müvafiq sahədə savadlılığının artırılmasına;

3) üçüncü istiqamət orta təhsil müəssisələrinin şagirdlərinin əqli mülkiyyət hüququnun etik və əxlaqi motivləri ilə bağlı (əqli mülkiyyət hüquqlarının pozulmaması, pirat və ya kontrafatkt məhsulların alınmasından çəkinmə, yaradıcılığın təşfiqi və s.) maarifləndirilməsinə xidmət edir.

Birinci və üçüncü istiqamətlər üzrə ilkin proqramın hazırlanması istiqamətində işlər həyata keçirilməkdədir. Bu prosesə müxtəlif təhsil ekspertlərinin, əqli mülkiyyət sahəsində mütəxəssis və ekspertlərin və pedoqoqların da cəlb olunması nəzərdə tutulmuşdur.

**3.8. Texnoloji innovasiyalar və texnologiyaların kommersiyalaşdırılması sahəsində fəaliyyət proqramlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanması və həyata keçirilməsi istiqamətindəki tədbirlər.**

Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası"nda Agentlik tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Mərkəzin müvafiq araşdırmalar aparmışdır.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əsas icraçı, Əqli Mülkiyyət Agentliyinin isə həmicraçı olduğu tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılmış işçi qrupunda Mərkəzin nümayəndəsi təmsil olunur. Tədbirlər Planı çərçivəsində startapların inkişafı üçün zəruri İKT infrastrukturunun gücləndirilməsi və istedad ehtiyatlarının yaradılması, bu istiqamətdə vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması, innovasiyaların özəl və dövlət sektoru tərəfindən tətbiqinə görə subsidiya mexanizminin yaradılması və subsidiyaların verilməsi, o cümlədən vençur maliyyələşmə mexanizmlərinin formalaşdırılması, həmçinin emal sənayesi sahəsində yeni texnoloji məhsulların yaradılması və ya mövcud məhsulların təkmilləşdirilməsi üçün elmi tədqiqat mərkəzlərinin və mühəndislik sahəsinin inkişafının dəstəklənməsi (qrantlar, birgə maliyyələşmə) istiqamətlərində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı müvafiq təkliflər layihəsi hazırlanmışdır.

**3.9. Texnologiyaların kommersiyalaşdırılması və transferi üzrə fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq, regional və xarici dövlətlərin müvafiq qurum və müəssisələri ilə ikitərəfli əlaqələr sahəsində görülən işlər.**

Əqli mülkiyyət sisteminin və texnologiyaların kommersiyalaşdırılması və transferi fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq, regional və xarici dövlətlərin müvafiq qurum və müəssisələri ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi Agentliyin qarşısında duran əsas məqsədlərdən biridir.

Bu istiqamətdə 2022-ci il ərzində müxtəlif beynəlxalq qurum və müəssisələrlə əməkdaşlıqların qurulması üzrə fəaliyyət davam etdirilmişdir. Belə ki, 2022-ci ilin sentyabr ayı ərzində Avrasiya Patent Təşkilatı (EAPO) tərəfindən texnologiya parklarının işinin təşkili və bu istiqamətdəki mövcud problemlər və problemlərin həlli üzrə daxil olan sorğu üzrə araşdırmalar aparmış, ölkəmizdə fəaliyyət göstərən texnologiya parklarının fəaliyyəti yaxından öyrənilmiş, onların fəaliyyətini tənzimləyən hüquqi aktlarda nəzərdə tutulmuş tənzimləyici normalar və boşluqlar müəyyən olunmuş və sorğuya cavab hazırlanmışdır. Hesabat dövründə EAPO ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

Bundan əlavə, ÜƏMT-nin Texnologiyaların transferi və kommersiyalaşdırılması sahəsində zəngin təcrübəyə malik olması, üzv ölkələrdə ixtiraçılıq fəaliyyətinin və ixtiraların kommersiyalaşdırılması və transferi, habelə elmi-tədqiqat nəticələri və ixtiraların hədəf

bazarlarına çıxarılmasına dəstək mexanizmlərinin, həmçinin ÜƏMT-nin “Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzləri” (TİSC) proqramının olması nəzərə alınaraq, Agentlik tərəfindən ÜƏMT ilə təcrübə mübadiləsinin aparılması məqsədilə ilkin danışıqlar aparılmış və əməkdaşlıq istiqamətində razılaşma əldə edilmişdir.

“Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığın inkişafı üzrə Tədbirlər Planı (Yol Xəritəsi)” sənədinin 5-ci bəndinin icrasının təmin edilməsi məqsədilə “Azərbaycan Respublikasının innovasiya infrastrukturu ilə “Skolkovo” Fondu arasında 2022-2023-cü illərdə əməkdaşlığa dair Tədbirlər Planı”na uyğun olaraq, müvafiq istiqamətlərdə iş aparılmışdır.

Eyni zamanda Amerika Ticarət Palatasının CLDP proqramı çərçivəsində danışıqlar aparılmış, videokonfrans formatında görüşlər keçirilmiş və təcrübə mübadiləsi aparılmışdır.

Bununla yanaşı, Agentliyin nümayəndələri elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması və transferi, elmi fəaliyyət nəticəsində əldə olunan hazır məhsul və xidmətlərin yerli və xarici bazarlara çıxarılması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması və beynəlxalq innovasiya ekosisteminə inteqrasiyanın təmin olunması məqsədilə 27-30 oktyabr 2022-ci il tarixində Almaniyanın Nüremberq şəhərində keçirilmiş ideyalar, ixtiralar və yeni məhsullar üzrə “iENA Beynəlxalq Ticarət Sərgisi”ndə iştirak etmiş, bu sahədə mövcud olan trendlər haqqında ətraflı məlumat əldə etmiş, müxtəlif beynəlxalq təşkilatlar, assosiasiyalar və şirkətlər tərəfindən kommersiyalaşdırılma və kommersiyalaşdırmanın təşfiq edilməsi istiqamətində mövcud olan dünya təcrübəsini öyrənmişlər.

Agentliyin nümayəndələri səfər müddətində “iENA” sərgisində iştirak edən müxtəlif ölkələrdən olan Əqli Mülkiyyət ofislərinin, Universitetlərin, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi ofisalərinin, ixtiraçı assosiasiyalarının və beynəlxalq təşkilatların təmsilçiləri, ixtiraçılar, o cümlədən ziyarətçilərlə görüşlər keçirərək fikir mübadiləsi aparmış və potensial əməkdaşlıq formalarını müzakirə etmişlər. Bunlar sırasında Türk Patent Ofisinin nümayəndələri ilə görüşü xüsusi vurğulamaq olar. Görüşdə iki ölkənin kommersiyalaşma sahəsində birgə səylərinin möhkəmləndirilməsi məsələsi və əqli mülkiyyətlə bağlı digər məsələlər müzakirə edilmişdir.

**4. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.**

2022-ci hesabat ilində əqli mülkiyyət obyektlərinin qeydiyyata alınmasında, qeydiyyat müddətlərinin uzadılmasında, qanunvericiliyin tətbiqində və ekspertiza prosedurlarının həyata keçirilməsində şəffaflıq və tələbkarlıq prinsipləri qorunmuş, o cümlədən ixtiraların və faydalı modellərin qeydiyyata alınması üzrə prosedurlar icra olunarkən "İddiaçı-ekspert” arasında elektron qaydada ünsiyyət” prinsipi tətbiq edilmiş, iddia sənədlərinin qəbulu, ekspertizası və qeydiyyatının "vahid pəncərə” prinsipi əsasında həyata keçirilməsi təmin edilmiş, beynəlxalq patentlərin qeydiyyatı üzrə PCT sisteminin geniş tətbiqi davam etdirilmişdir. Bu işlərin həyata keçirilməsində ötən il istifadəyə verilmiş və Hökumət Ödəniş Portalına inteqrasiya olunmuş PƏNAH rəqəmli informasiya sisteminin, həmçinin sənaye mülkiyyəti məsələləri ilə bağlı müraciətlərə daha operativ reaksiya göstərilməsi məqsədilə yeni yaradılmış “Çağrı mərkəzi”nin böyük əhəmiyyəti olmuşdur.

PƏNAH sisteminin tətbiqi xüsusən əqli mülkiyyət obyektlərinin qeydiyyatı ilə bağlı 2022-ci ildə elektron sistemlə olunan vətəndaş müraciətlərinin sayının əvvəlki illə müqayisədə artmasına səbəb olmuşdur. Belə ki, “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) sistemi vasitəsilə 2021-ci ildə cəmi 705 (əmtəə nişanı - 693, coğrafi göstərici - 5, ixtira - 5, faydalı model - 2, sənaye nümunəsi - 0) müraciət olduğu halda, 2022-ci ildə elektron müraciətlərin sayı 3422-yə (əmtəə nişanı - 3296, coğrafi göstəricilər - 4,

sənaye nümunəsi - 19, ixtira - 90, faydalı model - 13) olmuşdur ki, bu da keçən ilkindən 2717 ədəd çoxdur.

Bundan əlavə, ÜƏMT təşkilatına məxsus olan və sənaye mülkiyyəti obyektlərininn ekspertizası ilə bağlı olan İPAS sisteminin Agentlikdə quraşdırılması işinin böyük hissəsi yekunlaşdırılmışdır.

Daha bir uğur qeyd edilməlidir. Avrasiya Patent Təşkilatının (APT) 2022-ci ilin sentyabrında keçirilmiş İnzibati Şurasının 41-ci iclasında ixtira və sənaye nümunələrinə Avrasiya patentinin alınması üçün iddia sənədləri verilərkən iddia edilən obyektlərin üçölçülü modellərinin (3D) Avrasiya Patent İdarəsi (APİ) tərəfindən qəbulunun başlanılması haqqında qərar olmuşdur ki, bu da Agentlikdə 3D modelinin daxil olunması ilə ixtira, faydalı model və sənaye nümunələri obyektləri üzrə iddia sənədlərinin materiallarının qəbuluna imkan yaradan sistemin tətbiqinə imkan yaratmışdır. APT milli patent idarələrində bu yeniliyin tətbiqinə köməklik göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində rəqəmsal üçölçülü modellərin (3D) istifadəsini təmin etmək üçün pilot layihənin reallaşdırılmasına dəstək vermişdir. Bununla əlaqədar Agentlikdə prosesə nəzarət edəcək mütəxəssislər müəyyən edilmiş və zəruri texniki işlər görülmüşdür.

Tətbiq edilən bu yenilik iddia sənədlərinin ekspertiza prosesini xeyli asanlaşdıracaq, iddia edilən obyektin xüsusiyyətlərini daha aydın şəkildə üzə çıxaracaq və nümayiş etdirəcəkdir.

**4.1. Sənaye mülkiyyəti obyektlərinə dair iddia ərizələrinə baxılması nəticələri.** Hesabat dövründə ixtira, faydalı model, əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilər barəsində daxil olmuş iddia sənədlərinin ekspertizası və həmin obyektlərin dövlət qeydiyyatı üzrə aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

**İxtira, faydalı model və sənaye nümunəsi üzrə.** Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinə ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı **271 (2021-ci ildə 193)** iddia sənədi (ixtiraya aid **213 (2021-ci ildə 135)**; faydalı modelə aid **27 (2021-ci ildə 32);** sənaye nümunəsinə aid **31 (2021-ci ildə 26)** iddia sənədi) daxil olmuşdur. Bu artım ixtira fəaliyyətinin stimullaşdırılması nəticəsində baş vermişdir.

PCT proseduru üzrə Beynəlxalq Büroya göndərilmək üçün ixtiraya dair **10 (2021-ci ildə 5)** iddia sənədi, Avrasiya Patent Təşkilatina (APT) göndərilmək üçün ixtiraya dair **39 (2021-ci ildə 35), sənaye nümunəsinə dair isə 4** iddia sənədi daxil olmuşdur.

Hesabat dövründə Agentliyə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı PCT proseduru üzrə ixtiraya dair **39 (2021-ci ildə 16),** faydalı modelə dair **1 (2021-ci ildə 2)** iddia sənədi və konvensiya ilkinliyi üzrə ixtiraya dair **9 (2021-ci ildə 1),** faydalı modelə dair **2 (2021-ci ildə 6)** xarici iddia sənədi daxil olmuşdur.

İxtiralar üzrə ekspertizanın müddəti azaldılaraq ümumi qaydaya görə 12 ay təşkil etdiyi halda orta hesabla 8-9 ay ərzində başa çatdırılmışdır.

Haaqa proseduru üzrə beynəlxalq sənaye nümunələrinə dair **137 (2021-ci ildə 141)** iddia sənədinə dair axtarış aparılmış və axtarışı müsbət nəticələnmiş **135 (2021-ci ildə 141)** iddia sənədi barədə məlumatlar Agentliyin "Sənaye mülkiyyəti" bülletenində dərc edilmiş, **2 (2021-ci ildə imtina olmamışdır)** iddia sənədinin axtarışı isə imtina ilə nəticələnmişdir.

*Hüquqların növləri üzrə daxil olan iddia sənədləri, iddia sənədləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada iddiaçılara və digər maraqlı şəxslərə göndərilən (verilən) bildirişlərə, sorğulara və arayışlara dair hesabat ili üçün Statistik məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:*

Cədvəl 1

| № | Hüquqların növləri üzrə hüquqi hərkətlər | Milli iddia sənədləri | | | Beynəlxalq (PCT) prosedur üzrə göndərilməküçün milli iddia sənədləri | Avrasiya patent təşkilatına (APT) ğöndəril-mək üçün milli iddia sənədləri |
|---|---|---|---|---|---|---|
| | | İxtira | Faydalı model | Sənaye nümunəsi | | |
| **İLKİN EKSPERTİZA ÜZRƏ** | | | | | | |
| 1. | Daxil olan iddia sənədlərinin sayı | **213** | **27** | **31** | **10** | **39** |
| 2. | İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildiriş verilmiş iddia sənədlərinin sayı | **147** | **28** | **9** | | |
| 3. | İddia sənədlərinə verilmiş sorğuların sayı | **184** | **21** | **44** | | |
| 4. | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **20** | **-** | **8** | **2** | **4** |
| 5. | Iddia sənədlərinə verilmiş müxtəlif növ (düzəlişlərin,dəyişilliklərin ödənişlərin edilməsi barədə) bildirişlərin sayı | **150** | **20** | **29** | **7** | **3** |
| 6. | İddia sənədlərinə dair aparılan axtarışların sayı | **54 (sifar işli)** | **17** | **136 (12 milli, 122 beynəlxalq, 2 sifarişli)** | | |
| 7. | Hazırlanmış və BB-ya və ya AAPİ-yə göndərilmiş iddia sənədləri | **-** | **-** | **-** | **5** | **42** |
| **MAHİYYƏTCƏ EKSPERTİZA ÜZRƏ** | | | | | | |
| 8. | Məlumatın dərci haqqında iddia sənədlərinə verilmiş rəy(qərar)ların sayı | **83** | **5** | **7** | | |
| 9. | İddia sənədllərinə verilmiş sorğularının sayı | **184** | **13** | **10** | | |
| 10. | Patent verilməsindən imtina haqqında qərarların sayı | **2** | **1** | **2 (beynəlxalq)** | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 11. | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **31** | **3** | **4** | | |
| 12. | İddia sədlərinə verilmiş müxtəlif növ (düzəlişlərin,dəyişilliklərin ödənişlərin edilməsi) bildirişlərin sayı | **65** | 4 | **4** | | |
| 13. | İddia sənədinin ixtiradan faydalı modelə çevrilməsi haqqında verilmiş bildirişlərin sayı | **4** | **-** | | | |

**İxtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı iddia sənədləri barədə məlumat**

***Cədvəl 2***

| **Beynəlxalq sənaye nümunələri üzrə iddia sənədlərinin sayı** |
|---|
| **Cəmi -139, o cümlədən:**<br>ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı - **137**<br>ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı - **2** |

Hesabat dövründə ixtira səviyyəsinə dair tələblər ödənilmədiyinə görə qeydiyyat üçün təqdim edilmiş qurğuya aid 6 **(2021-ci ildə 8)** iddia sənədi iddiaçların vəsatəti əsasında "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinin 9-cu hissəsinə uyğun olaraq ixtiradan faydalı modelə çevrilmişdir.

**Əmtəə nişanları və coğrafi göstəricilər üzrə.** 2022-ci ildə əmtəə nişanlarının qeydiyyatı ilə bağlı böyük artım olmuş, **4457** iddia sənədi daxil olmuşdur. Bu da 2021-ci illə müqayisədə **1189** ədəd çoxdur. Coğrafi göstəricilərə dair daxil olan iddia sənədlərinin sayı **8** olmuşdur (2021-ci ildə **1** ədəd).

<u>2022-ci ildə mahiyyət üzrə ekspertiza prosedurunun müddəti azaldılaraq orta hesabla 3 ay təşkil etmişdir.</u> Ümumi halda ekspertiza **6** ay ərzinədə keçirilməlidir və bu prosedurun başa çatdırılmasına beynəlxalq təcrübədə **6-12** ay vaxt tələb olunur. İddiaçının sifarişi ilə iddia sənədinin ekspertizası sürətli keçirilə bilər. Bu halda iddia sənədinin baxılmağa qəbul edildiyi tarixdən etibarən onun ekspertizası bir ay müddətində keçirilməlidir. 2022-ci ildə bu müddət də azaldılaraq orta hesabla **15-20** günə endirilmişdir.

2022-ci ildə müvafiq Dövlət reyestrində qeydiyyata alınmış **2927 (**2021-ci ildə **2379)** əmtəə nişanından **2208-i** milli **(**2021-ci ildə **1453)**, **719**-u **(**2021-ci ildə **926)** isə xarici fiziki və hüquqi şəxslərə məxsusdur.

Coğrafi göstəricilərin Dövlət reyestrində milli hüquqi şəxslərə məxsus **2** coğrafi göstəricii qeydiyyata alınmışdır. 44 günlük tarixi zəfərimiz nəticəsində işğaldan azad edilmiş torpaqlarımızın reinteqrasiyası və bu ərazilərdə olan coğrafi göstəricilərin qeydiyyata alınması qarşıda duran vacib vəzifələr kimi diqqətdə saxlanmışdır.

Hesabat ilində kargüzarlıqda olan iddia sənədləri üzərində ekspertiza aparılaraq əmtəə nişanlarına dair **5216 (2021-ci ildə 3797)** ilkin ekspertiza bildirişi, **3779 (2021-ci ildə 2853)** iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında arayış, **1667 (2021-ci ildə 1014)** ekspertiza sorğusu, **840 (2021-ci ildə 516)** iddia sənədinin geri çağırılması və verilməmiş sayılması haqqında bildiriş, **3133 (2021-ci ildə 3160)** əmtəə nişanının qeydiyyata alınması haqqında rəy (qərar), **988 (2021-ci ildə 1121)** əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd bildirişi, **620 (2021-ci ildə 889)** əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd rəy (qərar), coğrafi göstəriciyə dair **15 (2021-ci ildə 1)** ilkin ekspertiza bildirişi, coğrafi göstəricinin baxılmağa qəbul edilməsi haqqında **7** arayış, coğrafi göstəriciyə dair **2** ekspertiza sorğusu, coğrafi göstəricinin

qeydiyyatından imtina haqqında **1** rədd bildirişi, coğrafi göstəricinin qeydiyyata alınması haqqında **3** rəy (qərar), coğrafi göstəricinin qeydiyyatından imtina haqqında **1** rəy (qərar) tərtib edilərək iddiaçılara təqdim edilmişdir.

***Cədvəl 3***

| ***Əmtəə nişanlarının qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədləri üzrə görülən işlər*** | ***Coğrafi göstəricinin qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədlərinin sayı*** |
|---|---|
| **Cəmi daxil olub – 4457, o cümlədən sürətli işlərin sayı - 931**<br><br>*ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı – **3133** (2021-ci ildən qalan işlər və 2022-ci ildə daxil olan iddia sənədləri)*<br>*3133 qeydiyyat haqqında qərardan **2062-si** 2022-ci ildə daxil olmuş iddia sənədləri üzrə müsbət nəticələnmiş ekspertizaya aiddir*<br><br>*ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı - **620** (2021-ci ildən qalan işlər və 2022-ci ildə daxil olan iddia sənədləri)*<br><br>*620 imtina haqqında qərardan **387-i** 2022-ci ildə daxil olmuş iddia sənədləri üzrə imtina ilə nəticələnmiş ekspertizaya aiddir*<br><br>İmtina haqında Bildiriş-**988 ədəd**<br>Bildiriş - **5216 ədəd** (ilkin ekspertiza)<br>Arayış - **3779 ədəd** (ilkin ekspertiza)<br>İddia sənədinin geri çağırılması haqqında bildiriş - **840 ədəd** (ilkin ekspertiza və mahiyyət üzrə ekspertiza) | **Cəmi daxil olub – 8**<br><br>*ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı –**3***<br><br>*ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı –**1***<br><br>İmtina haqında Bildiriş- **1 ədəd**<br><br>Bildiriş - **15 ədəd** (ilkin ekspertiza)<br><br>Arayış - **7 ədəd** (ilkin ekspertiza) |

Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasından əmtəə nişanları ilə bağlı ümumilikdə **243 (2021-ci ildə 226)** qərar icra və məlumat üçün göndərilmişdir. Apellyasiya Şurası tərəfindən hesabat ilində görülmüş işlər barədə məlumatlar aşağıda cədvəl 4-də verilmişdir:

***Cədvəl 4***

| **01.01.2022-31.12.2022-ci hesabat ili üzrə daxil olan işlərin sayı** | **Hesabat ilində baxılmış işlərin sayı (ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla)** | | |
|---|---|---|---|
| | | ərizənin təmin edilməsi haqqında qərar qəbul edilmiş | əmtəə nişanına dair - **105** |
| | | ərizənin qismən təmin edilməsi haqqında qərar qəbul edilmiş | əmtəə nişanına dair - **35** |
| | | ərizənin rədd edilməsi haqqında qərar qəbul edilmiş | əmtəə nişanına dair - **95** |

| | | | |
|---|---|---|---|
| **243** | **252** | ərizənin baxılmamış saxlanması haqqında qərar qəbul edilmiş | əmtəə nişanına dair - **17** |

***Cədvəl 5***

| **Naxçıvan Muxtar Respublikasından Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin Milli əmtəə nişanları və coğrafi göstəricilər sektoruna daxil olan iddia sənədləri** |
|---|
| **Milli əmtəə nişanları üzrə daxil olan iddia sənədləri** |
| **Daxil olmuş iddia sənədlərinin sdayı - 48**<br>***28 müsbət qərar, 2 imtina qərarı verilib. Qalan iddia sənədlərinin ekspertizası davam etdirilir.*** |

**Beynəlxalq əmtəə nişanları üzrə.** Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə kargüzarlıqda olan **3069** (01.04.2021-ci ildən-24.03.2022-ci illin mart ayına qədər daxil olmuş bildirişlər əsasında) **(2021-ci ildə 4013)** iddia sənədi üzərində Azərbaycanda hüquqi mühafizə verilməsi üçün əmtəə nişanının ekspertizası aparılmışdır. Onlardan **236 (2021-ci ildə 440)** əmtəə nişanının qeydiyyatına **(tam və ya qismən)** dair imtina qərarları, **184 (2021-ci ildə 2253)** əmtəə nişanı barəsində tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə qeydiyyata alınması haqqında qərarlar tərtib edilərək Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) göndərilmişdir.

Hesabat dövründə yerli iddiaçılar tərəfindən beynəlxalq qeydiyyat üçün Agentliyə **13 (2021-ci ildə 16)** iddia sənədi təqdim olunmuşdur. İddia sənədlərinin tələblərə uyğun doldurulması yoxlanılmış və Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli qərarı ilə müəyyən olunmuş xidmət haqqı ödənildikdən sonra həmin iddia sənədləri ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilmişdir.

Beynəlxalq əmtəə nişanlarına Azərbaycanda hüquqi mühafizə verilməsi barədə ÜƏMT-dən daxil olmuş bildirişlər barədə məlumatlar aşağıda Cədvəl 6-də verilmişdir:

***Cədvəl 6***

| ***Beynəlxalq əmtəə nişanlarına Azərbaycanda hüquqi mühafizə verilməsi barədə ÜƏMT-dən daxil olmuş bildirişlərin sayı*** *(2021-2022-ci illər üzrə)* |
|---|
| **Bildirişlərin sayı - 3371**<br>*ekspertizası imtina ilə nəticələnmiş bildirişlərin sayı –**236** (tam və ya qismən).*<br><br>*ekspertizası tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə müsbət nəticələnmiş iddia sənədlərinin sayı – **184*** |

**4.2. Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2022-ci ildə əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində normativ-hüquqi və informasiya bazasının təkmilləşdirilməsi, qüvvədə olan mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin, dublikatların, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair

müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmişdir.

Hesabat dövründə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avropa Patent İdarəsi, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent struktrurları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

Hesabat ili ərzində sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və digər məsələlərlə bağlı Agentliyə 5179 **(2021-ci ildə 4909)** ədəd məktub daxil olmuşdur.

## İXTİRALAR

2022-ci il ərzində müvafiq Dövlət reyestrində **ixtiralara dair** 108 **(2021-ci ildə 119)** ədəd patent qeydiyyata alınıb, onlardan 84 **(2021-ci ildə 102)** ədədi milli, 24 **(2021-ci ildə 17)** ədədi isə xarici hüquqi şəxslərə məxsusdur.

Aşağıdakı cədvəllərdə və diaqramlarda 2022-ci ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.




| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı 2022 milli | İxtiralara dair patentlərin sayı 2022 xarici |
|---|---|---|---|
| A | İnsanın həyatı tələbatlarının təmin edilməsi | 12 | 1 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 3 | 3 |
| C | Kimya; metallurgiya | 45 | 1 |
| D | Toxuculuq; kağız | 2 | - |
| E | Tikinti və dağ-mədən işləri | 5 | 16 |
| F | Maşınqayırma, işıqlanma, isitmə, silah və sürsat, partlama işləri | 8 | - |
| G | Fizika | 5 | 1 |
| H | Elektrik | 4 | 2 |
| **Cəmi** | | **84** | **24** |

| Ölkələr | Ölkənin kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2022 |
| Azərbaycan Respublikası | AZ | 84 |
| ABŞ | US | 14 |
| Rusiya Federasiyası | RU | 2 |
| Türkiyə | TR | 4 |
| Böyük Britaniya | GB | 2 |
| Norveç | NO | 1 |
| Fransa | FR | 1 |
| Cəmi | | 108 |




## FAYDALI MODELLƏR

**Faydalı modellərə dair** 2022-ci il ərzində 31 **(2021-ci ildə 27)** ədəd patent qeydiyyata alınıb, onlardan 21 **(2021-ci ildə 21)** ədədi milli, 10 **(2021-ci ildə 6)** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur.

Aşağıdakı Cədvəl və diaqramda 2022-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2022 | |
| | milli | xarici |
| A | 3 | 5 |
| B | 1 | 2 |
| E | 9 | - |
| F | 6 | 1 |
| H | 1 | 1 |
| G | 1 | 1 |
| Cəmi | 21 | 10 |

## SƏNAYE NÜMUNƏLƏRİ

**Sənaye nümunələrinə dair** 22 **(2021-ci ildə 27)** patent qeydiyyata alınıb, onlardan 12 **(2021-ci ildə 15)** ədədi milli, 10 **(2021-ci ildə 12)** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəllərdə və diaqramda 2022-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.




| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|
| | 2022 |
| 06 | 1 |
| 07 | 10 |
| 09 | 2 |
| 11 | 2 |
| 19 | 3 |
| 24 | 1 |
| 25 | 2 |
| 30 | 1 |
| Cəmi | 22 |

| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2022 |
| **Azərbaycan Respublikası** | **AZ** | **12** |
| **Rusiya Federasiyası** | **RU** | **3** |
| **Belçika** | **BE** | **2** |
| **Türkiyə** | **TR** | **1** |
| **Koreya Respublikası** | **KR** | **1** |
| **Birləşmiş Ərəb Əmirlikləri** | **AE** | **2** |
| **Çin Xalq Respublikası** | **CN** | **1** |
| Cəmi | | 22 |




**ƏMTƏƏ NİŞANLARI**

Hesabat dövründə müvafiq Dövlət reyestrində 2927 **(2021-ci ildə 2379)** ədəd **əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan 2208 **(2021-ci ildə 1453)** ədədi milli, 719 **(2021-ci ildə 926)** ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur.




2022-ci ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir:

| Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|
| | | 2022 |
| Azərbaycan Respublikası | AZ | 2207 |
| Birləşmiş Ərəb Əmirlikləri | AE | 32 |
| Belqiya | BE | 1 |
| Belarusiya | BY | 8 |
| İsveçrə | CH | 33 |
| Çin | CN | 65 |
| Kanada | CA | 1 |
| Almaniya | DE | 32 |
| Danimarka | DK | 5 |
| İspaniya | ES | 3 |
| Finland | FI | 2 |
| Fransa | FR | 5 |
| Böyük Britaniya | GB | 43 |
| Gürcüstan | GE | 10 |
| Kipr | CY | 5 |
| Xorvatiya | HR | 5 |
| İndoneziya | ID | 1 |
| İrlandiya | IE | 9 |
| Hindistan | IN | 16 |
| İran | IR | 1 |
| İtaliya | IT | 2 |
| İordaniya | JO | 1 |
| Yaponiya | JP | 26 |
| Koreya Respublikası | KR | 27 |
| Küveyt | KW | 1 |
| Lebanon | LB | 1 |
| İzrail | İL | 3 |
| Litva | LT | - |
| Meksika | MX | 1 |
| Mavriki | MU | 2 |
| Monako | MC | 1 |
| Niderland | NL | 8 |
| Yeni Zelandiya | NZ | 1 |
| Beliz | BZ | 1 |
| Polşa | PL | 9 |

| | | |
|---|---|---|
| Rusiya Federasiyası | RU | 44 |
| Saudiyyə Ərəbistanı | SA | 1 |
| İsveç | SE | 2 |
| Singapur | SG | 9 |
| Honq-Konq | HK | 8 |
| Türkiyə | TR | 69 |
| Tanzaniya | TZ | 2 |
| Ukrayna | UA | 1 |
| ABŞ | US | 177 |
| Virgin Adaları | VG | 1 |
| Çex Respublikası | CZ | 1 |
| Avstriya | AT | 1 |
| Avstraliya | AU | 4 |
| Pakistan | PK | 3 |
| Bolqarıstan | BG | 27 |
| Qatar | QA | 1 |
| Makedoniya | MK | 4 |
| Kayman adaları | KY | 2 |
| Bermuda | BM | 1 |
| Cəmi | | 2926 |




## COĞRAFİ GÖSTƏRİCİLƏR

Hesabat dövründə Coğrafi göstəricilərin Dövlət reyestrində milli hüquqi şəxslərə məxsus 2 ədəd coğrafi göstərici qeydiyyata alınmışdır.

Bunlarla yanaşı, hesabat dövründə patentlərin qüvvədə olma müddətinin uzadılması barədə 391 **(2021-ci ildə 440)**, şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə 698 **(2021-ci ildə 1146)**, əmtəə nişanlarına dair reyestr məlumatlarında dəyişiklik

edilməsi barədə 468 **(2021-ci ildə 547)** və patentlərə dair reyestr məlumatlarında dəyişiklik edilməsi barədə 5 **(2021-ci ildə 5)** bildiriş qeydiyyata alınmış, 59 **(2021-ci ildə 86)** dublikat, 130 **(2021-ci ildə 213)** çıxarış verilmiş və 63 **(2021-ci ildə 561)** sorğu göndərilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə 134 **(2021-ci ildə 131)** müqavilə qeydiyyata alınmışdır. Onlardan 117-si **(2021-ci ildə 121)** əmtəə nişanları üzrə hüquqların verilməsinə, 6 ədədi iddia sənədi üzrə əmtəə nişanı üçün üzrə hüquqların verilməsinə, 8 **(2021-ci ildə 5)** ədədi əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə, 3 **(2021-ci ildə 4)** ədədi patent üzrə hüquqların verilməsinə aiddir.

**Ölkənin texnoloji profili (patent landşaftı).** 2022-ci ildə də ötən illərdə aparılmış tədqiqatların davamı olaraq Azərbaycanın texnoloji profili (patent landşaftı) diqqət mərkəzində olub. Belə ki, Azərbaycan rezidentlərinin Beynəlxalq Patent Təsnifatının (BPT) bölmələrinə uyğun olaraq qüvvədə olan patentlərinin (milli ofis) göstəricilərinin “Patent Landşaftı” üzrə paylanması araşdırılıb. Nəticədə qüvvədə olan ixtira patentlərinin çoxunun “Kimya və metallurgiya”-113, “Tikinti, mədən işi”- 53 və “İnsanın həyati tələbatlarının təmin edilməsi”- 36 bölmələrinə aid olduğu müəyyən edilib. 2021-ci il ilə müqayisədə dəyişikliklər çox olmamışdır. Bununla belə, “Kimya və metallurgiya” üzrə qüvvədə olan ixtira patentlərinin sayı 147-dən 113-ə qədər azalmış, “Tikinti, mədən işləri” üzrə qüvvədə olan patentlərin sayı 42-dən 53-dək artmış, “İnsanın həyati tələbatlarının təmin edilməsi” üzrə qüvvədə olan patentlərin sayı isə 25-dən 37-dək artmışdır. Qüvvədə olan ixtira patentlərinin təhlilinin nəticələri göstərir ki, ölkədə yeni texnologiyaların drayveri rolunu “Kimya”; ”Səhiyyə; xilasetmə xidməti; əyləncə”; “Torpaq və ya dağ süxurlarının qazıntısı; mədən işi” üzrə ixtiralar oynayır və bu texnoloji sahələr, ilk növbədə, Azərbaycanda elmi-texnoloji inkişafın və yeni sənaye sahələrinin yaradılması üçün mümkün prioritetlər kimi nəzərdən keçirilməlidir.

**4.3. Müəllif hüquqları və əlaqəli hüquqların obyektlərinin qeydiyatı.** Hesabat ilində müəllif hüquqlarının obyektləri olan əsərlər üzrə 388 müəllifin 594 əsəri qeydiyyatdan keçirilmiş, əsərin qeydiyyatı haqqında 616 Şəhadətnamə verilmişdir, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsi ilə 131 müəllifin 169 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 170 şəhadətnamə verilmişdir. Həmçinin, hüquqların verilməsinə dair 42 müəllif müqaviləsi qeydiyyatdan keçirilmişdir.

***1996-2022-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)***
***(on-line qeydiyyat daxil olmaqla)***



Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2022-cü il 31 dekabr tarixinədək Agentlikdə ümumilikdə **14855 əsər** və əlaqəli hüquqların obyektləri (bunlardan 956 əsər "Elektron xidmət" bölməsi vasitəsi ilə) qeydiyyatdan keçirilmişdir.

## 5. Kreativ sənaye.

2022-ci ildə müəlliflik hüququna əsaslanan kreativ sənaye sahəsində əvvəlki ilə aid milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilər və dövlət büdcəsi rəqəmləri təhlil edilmiş, bu sahələrdə istehsal həcminin 4990,0 mln. manat olduğu müəyyən edilmişdir. Bu da ölkənin ÜDM-nin 5,3%-ni təşkil edir və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələrin payı son 11 ildə artaraq 1,8%-dən 2,9%-ə yüksəlmişdir. Bu sahənin inkişafının əsas göstəriciləri olan əsas müəllif hüququ industriyasının sahələri, istehsalları və digər bölmələri üzrə 2779,9 mln. manat (2,9%), qarşılıqlı asılılıq münasibətlərində olan sahələr üzrə 830,7 mln. manat (0,9%), müəllif hüququna qismən əsaslanan sahələr üzrə 477,2 mln. manat (0,5%) və industriyanın köməkçi sahələri 902,2 mln. manat (1,0%) təşkil etmişdir.

***Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı (2022-ci ilin 1 yanvarına olan vəziyyətə görə)***




**6. Əqli mülkiyyət hüquqlarının təminatı, piratçılığa qarşı mübarizə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.**

6.1. Əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı məsələlər 2022-ci ildə Agentliyin fəaliyyətində əsas istiqamətlərdən olmuş, pozulmuş müəllif hüquqlarının bərpası ilə bağlı daxil olmuş 10 yazılı müraciət müəllif-hüquq qanunvericiliyinin tələbləri baxımından araşdırılmış, müvafiq tədbirlər görülmüşdür. Müraciətlərdən 3-ü Agentliyin səlahiyyətləri çərçivəsində təmin edilmiş, ikisinə münasibət bildirilməsi üçün Fövqəladə Hallar Nazirliyin tabeliyində olan Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinə və Elm və Təhsil Nazirliyinə sorğu ünvanlanmış, müraciətlərin qalanları isə qismən həll edilərək Agentlik tərəfindən müraciət edən şəxsə Arayış verilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində bir sıra çap məhsullarının nəzarət markası ilə buraxılması təmin edilmiş, il ərzində 100 865 (yüz min səkkiz yüz altmış beş) ədəd nəzarət markası verilmişdir. Nəzarət markalarının tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-

cü il 9 iyun tarixli 191 nömrəli Qərarı ilə təsdiq olunmuş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir. Əqli Mülkiyyət Agentliyinin www.copat.gov.az saytının "Dövlət xidmətləri" bölməsinə və ya www.egov.az Elektron Hökumət portalına müraciət edərək onlayn qaydada nəzarət markalarını əldə etmək imkanı yaradılmışdır.

Agentlik bir çox hallarda müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində əqli mülkiyyət hüquqları ilə bağlı aparılan məhkəmə işlərinə cəlb olunur. Agentliyin nümayəndələri əqli mülkiyyət obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 50-ə yaxın iş üzrə 130-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış və məhkəmələrə təqdim edilmiş, maarifləndirmə tədbirləri keçirilmişdir.

Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına Hesabat ilində 243 müraciət daxil olmuşdur. Ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla, hesabat dövründə 252 işə baxılmış, 105 iş üzrə ərizənin təmin edilməsi, 35 iş üzrə ərizənin qismən təmin edilməsi, 95 iş üzrə ərizənin rədd edilməsi, 17 ərizənin baxılmamış saxlanması barədə qərarlar qəbul edilmişdir.

Agentliyin ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" 2022-ci ildə də müəlliflər və digər hüquq sahibləri tərəfindən qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərmişdir.

2022-ci ilin 17-18 may tarixlərində Agentliyin, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və CLDP-nin birgə təşkilatçılığı ilə hakimlər üçün "Əqli mülkiyyət barədə məhkəmə qərarı" mövzusunda təlim-seminar keçirilmişdir. Tədbirin açılışında çıxış edən Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru Xudayət Həsənli, ABŞ-nın Azərbaycandakı səfirinin müavini cənab Maykl Dikerson və CLDP proqramının beynəlxalq hüquq məsləhətçisi xanım Arezo Yazd hakimlər üçün əqli mülkiyyət sahəsində təlimin keçirilməsinin əhəmiyyətini vurğulayıblar və tədbirin işinə uğurlar arzulayıblar. Seminarda X.Həsənlinin "Azərbaycanda patent hüquqlarının təminatı məsələləri" mövzusunda məruzəsi dinlənilib.

ABŞ-nın Altıncı Dairə Apelyasiya məhkəməsinin hakimi xanım Bernis Donald, ABŞ-nın Minnesota şəhəri məhkəməsinin hakimi xanım Beki Torson və Bakı şəhəri inzibati məhkəməsinin hakimi Günel Sevdimalıyeva əqli mülkiyyət kazusları üzrə məhkəmə qərarları haqqında ABŞ və Azərbaycan təcrübələri haqqında ətraflı məlumat veriblər.

Əqli Mülkiyyət Agentliyinin Hüquq, apellyasiya və daxili nəzarət şöbəsinin müdiri İqbal Əsgərov və həmin şöbənin müdir müavini Faiq Əlizadə Agentliyin müəlliflik hüququ və sənaye mülkiyyəti obyektləri üzrə mübahisələrin həlli üzrə fəaliyyəti və bu sahədə məhkəmə təcrübəsi barəsində təqdimatlar ediblər.

Təlim prosesində vurulan zərərin hesablanması, əmtəə nişanları, müəlliflik hüququ, retranslyasiyaya görə müəllif qonorarının ödənilməsi, kommersiya sirri, proqram təminatı lisenziyaları, o cümlədən əqli mülkiyyət sahəsində məhkəmə işləri barədə geniş fikir mübadiləsi aparılıb.

2022-ci il ərzində Agentliyin nümayəndələri sənaye mülkiyyəti obyektləri ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində antiinhisar qanunvericiliyinin pozulmasına dair işlər üzrə keçirilmiş 10-a yaxın iclasda iştirak etmiş, işlər üzrə ekspert rəyi hazırlanmış və bu sahədə olan qanunvericiliyin tələbləri ilə bağlı sahibkarlara geniş məlumat verilmişdir. Aparılmış maarifləndirmə tədbirləri çərçivəsində Agentliyin nümayəndəsi tərəfindən əqli mülkiyyəti obyektləri ilə mütəmadi işləyən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əməkdaşlarına "Əqli mülkiyyət

hüquqları və rəqabət hüququ" mövzusunda təlim keçirilmiş, əməkdaşların sualları cavablandırılmış və mövcud praktika ilə bağlı geniş məlumat verilmişdir.

Bundan əlavə olaraq, 2022-ci il ərzində mübahisələrin məhkəmədən kənar həlli üçün keçirilmiş 1 mediasiya sessiyasında Agentliyin nümayəndəsi iştirak etmiş, əqli mülkiyyət sahəsi üzrə qanunvericiliyin tələbləri sessiyada nümayəndə tərəfindən səsləndirilmişdir.

Proqram təminatı sahəsində həyata keçirilən tədbirlər çərçivəsində ABŞ-ın "Microsoft", "Oracle" və "Trimble Tekla" şirkətləri ilə əməkdaşlıq davam etdirilmiş, onlayn rejimdə məsləhətləşmələr aparılmış, görüşlər keçirilmiş, gələcək qarşılıqlı əlaqələrin perspektivləri müzakirə edilmişdir.

Aidiyyəri dövlət qurumları ilə görülən birgə tədbirlərin nəticəsi olaraq, müşahidələr göstərir ki, 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən 20%-ə, audio-video məhsul bazarında 90%-dən 53%-ə, proqram təminatında 96%-dən 71%-ə düşmüşdür.

**6.2.** Əqli mülkiyyət hüquqlarının səmərəli müdafiəsini təmin etmək müəyyən dərəcədə cəmiyyətdə əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasını, müəlliflərin, hüquq sahibləri və istifadəçilərin hüquqlarına hörmətlə yanaşılmasını, nəticə etibarilə maarifləndirmə və məlumatlandırma üzrə tədbirlərin görülməsini zəruri edir.

Hesabat ilində hüquqi maarifləndirmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə bir sıra tədbirlər həyata keçirilmiş, informasiya, maarfləndirici və təbliğat xarakterli 100-dən artıq məqalə və yazılar kütləvi informasiya vasitələrində dərc olunmuş, TV və radio kanallarında əqli mülkiyyət sahəsinə dair 30-a yaxın veriliş və süjetlər göstərilmişdir. Agentliyin sosial media (Facebook, Instagram, Youtube, Twitter, Linkedin) hesabları üzərindən 500-dən çox paylaşım edilmişdir. İl ərzində əqli mülkiyyət məsələlərinə dair "Çağrı Mərkəzi" vasitəsi ilə daxil olmuş 31730-dan artıq müraciət cavablandırılmışdır. Keçirilmiş sorğulara əsasən "Çağrı mərkəzi"nin fəaliyyəti ictimai rəydə ən yüksək qiymət alıb.

Hesabat dövründə 3200-ə yaxın nüsxə kitab, kitabça və broşura buraxılmış və yayılmış, digər maarifləndirici materialların, o cümlədən müəllif-hüquq sahəsi üzrə milli qanunvericilik sənədlərinin, Agentliyin Nizamnaməsinin üç dildə (Azərbaycan, rus və ingilis dillərində) təkrar nəşr edilməsi işləri yerinə yetirilmişdir.

Əqli Mülkiyyət Agentliyi tərəfindən kiçik və orta sahibkarlıq və əqli mülkiyyət ilə maraqlanan şəxslər üçün "Əqli mülkiyyət" elmi-praktiki jurnalı buraxılır. Jurnalda əqli mülkiyyətlə bağlı elmi araşdırmalar, onların sosial və iqtisadi səmərəliliyi, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, innovasiya, əqli mülkiyyətin innovativ inkişaf konteksti kimi spesifik materiallarla yanaşı, həmçinin geniş oxucu kütləsinə hesablanan tariximizə, erməni plagiatçılığına, mədəni irsimizə, vətəndaşlarda əqli mülkiyyət mədəniyyətinin və əqli mülkiyyət hüquqlarına hörmətin formalaşdırılmasına həsr olunan populyar və maraqlı mövzular da işıqlandırılır. Məqalələr Azərbaycan və rus dillərində dərc edilir.

Maarifləndirmə işlərinə dəstək tədbirləri, oxuculara göstərilən, o cümlədən onlayn xidmətlər Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının (RETK) fəaliyyətində aparıcı istiqamətlərindən olmuşdur. 2022-ci ildə RETK-ya 6933 çap vahidi yeni ədəbiyyat daxil olmuşdur. İl ərzində kitabxanaya yüzlərlə müəllim, tələbə və digər peşə sahibləri müraciət etmişlər. Kitabxanaya gələn oxuculara yüksək səviyyədə xidmət göstərilir və ədəbiyyat axtarışında onlara kömək edilir, belə xidmətlər eyni zamanda onlayn qaydada göstərilmişdir. Hesabat dövrü ərzində İRBİS-64 elektron AKİS-də həm retro kitabların, həm də kitabxana fonduna daxil olan yeni ədəbiyyatların elektron kartoçkaları hazırlanmışdır. Elektron kataloq proqramında 800 çap nüsxə retro ədəbiyyatın, 350 çap nüsxə yeni ədəbiyyatın kartoçkası elektron qeydiyyatdan keçirilmişdir.

Fondlarda yığılmış ədəbiyyat nümunələrinin, o cümlədən nadir nüsxələrin kataloqlarının və son illər daha çox oxucular tərəfindən sorğu edilərək istifadə olunan ədəbiyyat nümunələrinin rəqəmsallaşdırılması Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilir. Oxucular tərəfindən tələbatı çox olan kitablar skan edilərək kompyuterdə yerləşdirilmişdir. Bu kitabların sayı 692 çap nüsxəsindən ibarətdir. Kitabxana rəhbərliyinin tələbi əsasında bir çox tarixi əhəmiyyətli nadir çap nüsxələri JPG formatında skan olunur.

2022-ci il 5-9 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən tədbirdə Kitabxana fəal iştirak etmiş, Kitabxananın fondunda olan nadir ktabların nüsxələri nümayiş etdirilmişdir. Hesabat ilində Azərbaycan Republikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi ilə RETK-nın arasında kitabxananın zəngin fond materiallarından istifadə edilməsi məqsədilə Memorandum imzalanmışdır.

Eyni zamanda, İstanbul şəhərində fəaliyyət göstərən Bəyazid Dövlət Kitabxanası, Atatürk Kitabxanası, Boğaziçi Universitetinin kitabxanası və İstanbul Türk Universitetinin kitabxanasının iş təcrübələrinin öyrənilməsi və qarşılıqlı əməkdaşlığın genişləndirilməsi məqsədilə kitabxana rəsmilərinin qarşılıqlı səfərləri təşkl edilmişdir.

2022-ci il ərzində Respublika Elmi-Texniki Kitabxanasında əlamətdar günlər, peşə bayramları və respublika əhəmiyyətli sərgi və tədbirlər kecirilmiş, belə tədbirlərə oxucular da qatılmışlar. “Riyaziyyatın sehri” adlı sərgi təşkil edilmiş, 20 Yanvar – Ümumxalq Hüzn gününə həsr edilmiş sərgi və guşə yaradılmışdır.

Kitabxanaya daxil olan yeni nəşrlərdən – kitab, jurnal və avtoreferatlardan ibarət sərgi təşkil olunmuş, ilk dəfə olaraq “Xarici ədəbiyyat” sərgisi keçirilmiş, Novruz bayramı münasibətilə “Azərbaycan, yurdum mənim“ adlı sərgi və guşə təşkil edilmişdir.

23 aprel - Kitab və Müəllif Hüquqları Günü , 26 aprel – Əqli Mülkiyyət Gününə həsir edilmiş tədbir və videotəqdimat kecirilmişdir. Tədbirdə müəllif hüquqlarının yaranma zərurəti, kitabın təşəkkül tarixi və həyatımızda rolundan danışılıb. Bundan başqa əqli mülkiyyət nədir və onun cəmiyyətdə əhəmiyyətindən söhbət acılıb. Tədbirdə “Ümummilli lider Heydər Əliyev əqli mülkiyyət sisteminin müəllifi və yaradıcısıdır“ mövzusunda çıxışlar dinlənilmişdir. Həmçinin Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin yaranması və onun Ümumdünya Əqli Mülkiyyət Təşkilatında fəaliyyəti haqqında videotəqdimat olmuşdur. İl ərzində “Heydər Əliyev”, “Heydər Əliyev yolunun layiqli davamçısı – İlham Əliyev”, “Əqli mülkiyyət iqtisadi inkişafın açarıdır”, “Qan yaddaşı”, “Yeni nəşrlər” sərgilərində ədəbiyyatlar mütəmadi olaraq yeniləri ilə əvəzlənmişdir.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə və 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbir və videotəqdimatlar, “Əziz Şuşa, sən azadsan!”, “31 may – Kimyaçılar günü” mövzusunda tədbir və sərgilər, “Qarabağın yenidən dirçəlişi“ mövzusunda videotəqdimat, oktyabr ayının 4-də Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyində həmin Agentliyin, Əqli Mülkiyyət Agentliyinin və RETK-nin əməkdaşlarının birgə təşkilatçılığı ilə keçirilmiş “Aerokosmik informatika, ekoloji monitorinq və yerin kosmosdan tədqiqi sahəsində Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin rolu” mövzusunda dəyirmi masa və s. mövzularda təşkil olunan tədbirlər maraqla qarşılanmışdır.

## 7. Mədəni irsin qorunması və erməni plagiatina qarşı mübarizə.

2022-ci ildə Azərbycan xalqının zəngin adət və ənənələrinin təbliği, xalqımızın folklor nümunələrinin və ənənəvi biliklərinin hüquqi qorunması, xüsusən erməniçilik tərəfindən mədəni irsimizin mənimsənilməsi və saxtalaşdırılması cəhdlərinin qarşısının alınması, belə əməllərin ifşa edilməsi və geniş ictimaiyyətə çatdırılması Agentliyin fəaliyyətində əsas istiqamətlərdən olmuşdur. Bu çərçivədə 23 Aprel - “Ümumdünya Kitab və Müəlliflik Hüququ

Günü" münasibətilə Əqli Mülkiyyət Agentliyi tərəfindən ənənəvi olaraq hər il keçirilən tədbirlərdə erməni saxtakarlıqları və uydurmaları tarixi faktlar və elmi əsaslarla ifşa edilir.

Hesabat ilində bu istiqamətdə "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan torpaqlarına hay-erməni iddialarının davam etdirilməsi haqqında" mövzusunda konfrans-vebinar keçirilmişdir.

Tədbirin aktuallığını diqtə edən amil əsrlər boyu davam edən, ildən-ilə artan və yeni dövrün elmi-texniki nailiyyətlərindən istifadə etməklə hazırkı günümüzdə daha geniş vüsət alan, qonşu xalqların, ilk növbədə Azərbaycan xalqının torpağına, mədəni irsinə və tarixinə yönlənmiş təcavüzkar erməni saxtakarlığı fenomeninin və erməni mifologiyasının ifşa edilməsi olmuşdur. Vebinarda Azərbaycan Respublikasının dövlət orqanlarının rəsmiləri, millət vəkilləri, elm və təhsil müəssisələrinin əməkdaşları, sahə üzrə ekspertlər və digər şəxslər onlayn rejimdə qoşularaq iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" münasibətilə hər il keçirilən konfransların hay-erməni saxtakarlıqlarını və uydurmalarını qədim mətnlərə və klassik mənbələrə söykənərək ifşa edilməsi məqsədini daşıdığını qeyd edərək bu vebinarın da erməni mifomaniyasını tarixi sübutlarla, elmi dəlillərlə və danılmaz faktlarla ifşa etmək missiyasının davamı olduğunu bildirmişdir. Vebinarın giriş hissəsində çıxış edən digər nümayəndələr də tədbirin mühüm əhəmiyyətə malik olduğunu vurğulayıblar.

Sonra professor Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan torpaqlarına hay-erməni iddialarının davam etdirilməsi haqqında", AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix üzrə elmlər doktoru, professor Kərim Şükürovun "Şuşaya dair erməniləşdirmə cəhdləri: tənqidi təhlil", AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun "Azərbaycan folkloru ilə bağlı erməni saxtakarlığı", politoloq-tədqiqatçı Fuad Axundovun "Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan irsinin məhv edilməsi indiki Ermənistan ərazisində aparılan çoxəsrlik siyasətin davamı kimi", Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlilinin "Albaniyanın Uti vilayətinin qədim sakinləri suvar-sabirlər" mövzularında məruzələri dinlənilib.

Müzakirələr zamanı İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev də çıxış edərək müzakirə edilən məsələ ilə bağlı fikirlərini bölüşüblər.

Vebinarda Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun eyni mövzuda çıxış etdiyi təqdimat əsasında kitabça nəşr olunmuşdur. Tədbir KİV-lər vasitəsi ilə işıqlandırılmış, geniş rezonans doğurmuşdur.

Erməni saxtakarlıqlarının və uydurmalarının ifşası ilə bağlı görülən işlər sırasında müxtəlif dillərdə buraxılmış aşağıda adları qeyd olunan kitabları da qeyd etmək lazımdır: "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında", "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri", "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya "Armeniya" ərazisinin həqiqi sakinləri haqqında. Ancient texts and classic sources expose Armenian falsifications and fabrications or about primordial inhabitants of territory "Armenia". Древние тексты и классические источники разоблачают армянские фальсификации и измышления или об исконных насельниках территории "Armeniya", "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri", "Qafqaz Albaniyası, onun sakinləri və işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlər",

“Хайи-армяне, стремясь утвердить свое место среди исторических народов, не брезгуют ревизией текста Священного Писания и Термин “Армения”, будь то топоним или этноним, не имеет никакого отношения к нынешним армянам и присвоен ими” və s. Bu kitabçalar çap edilərək tədbir iştirakçıları və ölkəmizə gələn qonaqlar arasında yayılmışdır.

Bununla yanaşı, Qədim türk mətbəx mədəniyyətinin şirniyyat növlərindən biri olan paxlava/baklavanın ermənilər tərəfindən öz qeyri-maddi mədəni irs nümunəsi kimi dünyanın qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi üçün UNESCO-ya müraciət hazırlamaları barədə erməni mətbuatında gedən yazılarla əlaqədar Agentlik tərəfindən sübutedici sənədlər və tarixi mənbələr əsasında Arayış hazırlanmış və yayılmışdır.

Bununla yanaşı, görkəmli Azərbaycan bəstəkarı Cahangir Cahangirovun “Zərif gülüşlüm” adlı musiqi əsərinin ermənilər tərəfindən oğurlanması və erməni mahnısı kimi Youtube kanalında yayılması, həmçinin Azərbaycanın xalq artisti, bəstəkar Eldar Mansurovun “Bayatılar”, “O gələndə”, “Bir payız gecəsi”, “Yarı səndə, yarı məndə” və “Gecələr keçir” əsərlərinin müxtəlif erməni ifaçıları tərəfindən mənimsənilməsi və Youtube kanalında və digər internet şəbəkələrində yayılması faktları ilə bağlı Agentlik tərəfindən Arayışlar hazırlanmış və KİV-lərdə yayılmışdır.

Növbəti erməni saxtakarlığı Azərbaycan xalqına məxsus balaban, tütək, kəmança və qanun (kanon) musiqi alətlərinin erməni milli musiqi alətləri kimi Cenevrə Etnoqrafiya muzeyinə hədiyyə edilməsi barədə informasiyanın yayılması olmuşdur. Bununla bağlı, Əqli Mülkiyyət Agentliyi qədim tarixi və ədəbi nümunələrə, tanınmış mütəxəsislərin araşdırmalarına əsaslanaraq həmin musiqi alətlərinin Azərbaycan xalq musiqisində qədim dövrlərdən bəri geniş istifadə edilən və populyarlığını bu günədək qoruyub saxlayan türk mənşəli alətlər olması ilə bağlı geniş arayış hazırlamış və KİV-ə təqdim etmişdir.

Qeyd etmək istəyirik ki, Əqli Mülkiyyət Agentliyi tərəfindən mütəmadi olaraq Azərbaycan xalqına məxsus olan müəllif əsərlərinin, folklor nümunələrinin və digər qeyri-maddi mədəni irs nümunələrinin uzun illərdən bəri ermənilər tərəfindən zaman-zaman oğurlanması, mənimsənilməsi və erməni nümunələri kimi təqdim olunması hallarına qarşı mübarizə aparılır, hər bir fakt üzrə araşdırmalar aparılaraq tarixi əsaslara söykənən və həmin əsərlərin Azərbaycan xalqına məxsus olmasını danılmaz faktlarla sübut edən arayışlar hazırlanır, kütləvi informasiya vasitələrində yayılır, Agentliyin nümayəndələrinin iştirak etdiyi yerli və və beynəlxalq tədbirlərdə ətraflı məlumatlar verilir.

**8. Beynəlxalq əməkdaşlıq.** Agentlik ölkəmizin əqli mülkiyyət sahəsində beynəlxalq mübadilə və əməkdaşlıq üzrə öhdəliklərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyətini çoxtərəfli və ikitərəfli müstəvidə davam etdirmiş, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avrasiya Patent Təşkilatı (APT), Ümumdünya Ticarət Təşkilatı, həmçinin Avropa İttifaqı (Aİ) və Müstəqil Dövlətlər Birliyinin (MDB) aidiyyəti bölmələri, eləcə də bir sıra ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrini davam etdirmişdir.

2022-ci ilin 14-22 iyul tarixlərində ÜƏMT üzv-dövlətlərinin Assambleyalarının 63-cü sessiyasında Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti onlayn formatda iştirak etmişdir.

Assambleyaların açılışında ÜƏMT-nın Baş direktoru Daren Tanq əqli mülkiyyəti yeni iş yerlərinin yaradılması, investisiyaların cəlb edilməsi, biznes fəaliyyətinin aktivləşdirilməsi və iqtisadi inkişaf üçün güclü katalizatora çevirmək səylərini davam etdirməyə çağırıb. O, innovasiya fəaliyyətinin qlobal miqyasda genişlənməsini bildirərək, bu fəaliyyətin nəticələrinin əqli mülkiyyət obyektləri kimi qorunması üçün iddiaların əksəriyyətinin inkişafda olan ölkələrdən verilməsini, daha bir təsdiq kimi Afrika və Latın Amerikasında vençur investisiyalarının son bir il ərzində dörd dəfədən çox artmasını qeyd edib.

Baş Assambleyanın plenar iclasına xüsusi platforma vasitəsilə qoşularaq fransız dilində çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov əqli mülkiyyət institutunun uğurlarının ÜƏMT-nın əsaslandığı ardıcıllıq, sabitlik, eyni zamanda, mobilliyi ilə şərtləndirildiyini qeyd edib və vurğulayıb ki, bu dəyərlər, ÜƏMT-nın qarşıdakı beş il üçün Ortamüddətli Strateji Planında göstərildiyi kimi, əqli mülkiyyətin hər kəsin xeyrinə innovasiya və yaradıcılığı dəstəkləyən bir dünyanın yaradılmasına töhfə verəcəkdir. Agentliyin rəhbəri 44 günlük müharibədən sonrakı dövrdə Azərbaycanda işğaldan azad edilmiş torpaqlarda minaların təmizlənməsi və dağıntıların bərpası istiqamətində fəal iş aparıldığını, ağıllı-kənd və ağıllı-şəhərlərin qurulmasında əqli mülkiyyət sahəsinə mühüm yer ayrıldığını qeyd edib. O, əqli mülkiyyətin iqtisadi rifahın mühüm elementinə çevrilməsinin getdikcə aktuallaşmasını, bunun milli innovasiya ekosistemlərinin formalaşmasına əsaslı köməklik göstərəcəyini vurğulayıb, bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yaradılmasını və Agentliyin nümayəndəsinin bu Mərkəzin Direktorlar Şurasının üzvü olmasını qeyd edib, Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin, həmçinin universitetlərin əqli mülkiyyət kafedralarının Agentlikdə filiallarının yaradılmasını bildirib. K.İmanov Agentliyin elmi araşdırmaları barədə danışaraq bildirib ki, əqli mülkiyyət sahəsində Milli Strategiyanın işlənib hazırlanması məqsədilə hüquq, iqtisadiyyat və sosiologiyanın vəhdəti çərçivəsində bu institutun yenidən nəzərdən keçirilməsi, patent hüququ və müəlliflik hüququnun qarşılıqlı əlaqəsi və zənginləşdirilməsi, innovasiya prosesində əqli mülkiyyətin rolu kimi problemlər üzərində iş aparılır. O, həmçinin vurğulayıb ki, Azərbaycanda vahid qurumda birləşdirilən və müasir çağırışlara uyğun olan model əsasında yaradılan əqli mülkiyyət sahəsinin yeni institusional strukturu Agentliyin fəaliyyətinin səmərəliliyinin təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Sessiya çərçivəsində keçirilən ÜƏMT komitələrinin vəzifəli şəxslərinin seçkiləri zamanı ölkəmiz yenidən bu təşkilatın fəaliyyətinin inzibati, maliyyə, o cümlədən büdcə xərclərinin müəyyən edilməsində xüsusi əhəmiyyəti olan, təşkilatın Baş Assambleyasının gündəliyinin, onun Konfransının proqram və büdcəsinin layihələrini hazırlayan, Baş direktorun seçilməsi üçün namizədi Baş Assambleyaya təqdim edən Koordinasiya Komitəsinin və təşkilatın maliyyə xərclərinin audit və nəzarətini həyata keçirən, fəaliyyətinin nəticələri və maliyyə vəziyyətinin icmalını hazırlayan, büdcəsini planlaşdıran və tərtib edən Proqram və Büdcə Komitəsinin üzvü seçilmiş, həmçinin Kamran İmanovun ÜƏMT-nın Müəlliflik hüququna dair Müqavilənin Assambleyasının sədri səlahiyyətləri təsdiq edilmişdir.

Hesabat ilində Agentliyin və onun tabeliyində olan qurumların nümayəndələri ÜƏMT bölmələrinin, o cümlədən təşkilatın Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Patent Hüququ üzrə Daimi Komitəsinin, Proqram və Büdcə Komitəsinin, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin, Əmtəə və xidmətlərin beynəlxalq qeydiyyatı üzrə Nitsa sazişi ekspertləri Komitəsin, Əqli Mülkiyyət hüquqlarının qorunması üzrə Məşvərət Komitəsinin, PCT Texniki Əməkdaşlıq Komitəsinin, Lissabon sisteminin inkişafı üzrə İşçi qrupun hibrid rejimdə keçirilən sessiyalarında onlayn və fiziki qaydada qoşulmuş, bu tədbirlərdə müzakirə edilən sənədlərin müddəalarının razılaşdırılmasında iştirak etmişlər.

ÜƏMT-nın müvafiq qurumları ilə Agentliyin bu təşkilatla əməkdaşlığı məsələləri, o cümlədən Agentliyin Uzunmüddətli Strategiyasının və Əməkdaşlıq haqqında yeni Anlaşma Memorandumun hazırlanması və ikitərəfli Tədbirlər Planının bəndlərinin razılaşdırılması, Agentliyin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin ÜƏMT tərəfindən dəstəklənməsi və Respublika Elmi-Texniki Kitabxanası (RETK) ilə ÜƏMT-nın Əlçatan Kitablar Konsorsiumu (ƏKK) arasında əlaqələrin

genişləndirilməsi, o cümlədən "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"nin müddəalarının ölkəmizdə həyata keçirilməsi ilə bağlı RETK-nın ÜƏMT-nın ƏKK-nun Qlobal Kitab Xidmətinə (ABC Global Book Service) qoşulması, patent analitikası sisteminin inkişafı, süni intellekt və onun tətbiqi məsələləri müzakirə edilmişdir.

Xüsusi olaraq ÜƏMT Keçid və İnkişaf Etmiş Dövlətlər departamentinin (TDC) direktoru Habip Asan ilə gələcək əməkdaşlıq məsələlərinin müzakirəsinə həsr edilən onlayn formatda görüşün əhəmiyyəti qeyd edilməlidir. Bu görüşdə, o cümlədən ÜƏMT və İNSEAD Beynəlxalq biznes-məktəb tərəfindən hazırlanan qlobal tədqiqat və onu müşayiət edən innovasiyaların inkişafının göstəriciləri üzrə dünya ölkələrinin reytinqi olan Qlobal İnnovasiya İndeksinin (Qİİ) bəzi boşluqları diqqət mərkəzində olmuşdur. Qİİ-nin Azərbaycana aid hissələrinin Agentlikdə geniş təhlilinin aparıldığını, bu məsələnin ölkədə müxtəlif formatlarda müzakirə olunduğunu vurğulayan Kamran İmanov ÜƏMT-nın aidiyyəti struktur bölmələri ilə Qİİ-nin tərtibi məsələləri barədə Azərbaycanın müvafiq strukturlarının nümayəndələrinin iştirakı ilə geniş tərkibli görüşün keçirilməsini təklif edib.

2022-ci il 21 oktyabr tarixində GİI-nin alt-komponentlərinə cavabdeh işçi qruplarının genişləndirilmiş iclası keçirilmişdir. İclasın əsas məqsədi Qİİ üzrə mövcud vəziyyətin araşdırılması və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi, bu sahədə səmərəli koordinasiyanın təmin edilməsi idi. Biznes mühiti və Beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin və ölkənin bir çox mərkəzi qurumları və digər təşkilatların məsul şəxslərinin iştirak etdiyi onlayn rejimdə keçirilən tədbirdə Qİİ-nin 2022-ci il üzrə buraxılışı geniş müzakirə olunub. Müzakirələrdə çıxış edən Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov GİI-nin yenilənmiş metodologiyası və qiymətləndirmənin konseptual aspektləri barədə məlumat vermişdir. Ölkə üzrə innovasiyaya qoyulan sərmayə ilə əldə olunan innovasiya nəticələri arasındakı qarşılıqlı əlaqəyə diqqət yetirərək, o, innovasiyaya sərmayə qoyuluşunun səmərəli şəkildə gözlənilən innovasiya nəticələrinə çevrilməməsinin səbəblərinin daha dərindən araşdırılmasının vacibliyini vurğulamışdır.

Tədbirdə ölkənin göstəricilərinin yaxşılaşdırılması üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyi tərəfindən hazırlanan Matrisa layihəsi ətraflı müzakirə edilmiş, hər bir göstəricinin yaxşılaşdırılması üzrə məsul qurumlar müəyyən olmuş, qeyd edilən layihədə əks olunan bölgü əsasında növbəti il üzrə görülməli strateji və taktiki addımların hazırlanması, bu sahədə çevik kommunikasiyanın qurulması, habelə ÜƏMT ilə qarşılıqlı müzakirələrin aparılması qərara alınmışdır.

ÜƏMT-nın 63-cü Baş Assambleyasının iclasları çərçivəsində TDC direktoru H.Asanla onlayn rejimdə keçirilən digər görüşdə Agentliyin treninq mərkəzi bazasında ÜƏMT Akademiyasının filialının yaradılması, Azərbaycanın ənənəvi biliklər və ənənəvi mədəni ifadələr (folklor) sahəsində qanunvericilik təcrübəsinin təşviqi, Azərbaycanın coğrafi göstəricilərinin qeydiyyatı və qorunması, birgə milli və regional tədbirlərin, o cümlədən əqli mülkiyyət və innovasiyalı iqtisadiyyat, Azərbaycanın patent qanunvericiliyinin təkmilləşdirilməsi, süni intellekt və əqli mülkiyyətin perspektivinin müzakirəsinə həsr ediləcək seminarların keçirilməsi və digər məsələlər müzakirə edilmişdir.

O cümlədən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyləri sayəsində ölkədə həyata keçirilən islahatlar siyasəti nəticəsində əqli mülkiyyət sahəsində institusional dəyişikliklərin mahiyyətini açan Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov bildirmişdir ki, burada əsas məqam əqli mülkiyyət sahəsində çalışan təşkilatları bir çadır (çətir) altında yığmaq, bu strukturların birgə fəaliyyət göstərməsini təmin etmək və bununla onların işinə yeni impuls verməkdir. O,vurğulamışdır ki, bu, yeni iqtisadi nəzəriyyə - neoinstitualizmə uyğun olaraq, tranzaksiyaların (istehsal prosesində itkilərin) aradan qaldırılmasına nail

olmağa imkanlar yaradır. Bununla yanaşı, Agentliyin rəhbəri vurğulamışdır ki, belə idarəetmə statutun nəticəsi səlahiyyətlərin, eyni vaxtda - məsuliyyətin artmasıdır.

Əqli mülkiyyət institutunun perspektivlərindən danışan Kamran İmanov qeyd etmişdir ki, ÜƏMT-nın da bəyan etdiyi kimi, əqli mülkiyyətin rolu, onun təsiri müasir dövrdə hər bir sahəyə sirayət edirsə, əqli mülkiyyət texnologiyalarla uzlaşmalı, onlara qarşı çıxmamalıdır, əksinə, uyğunlaşaraq, yeni nailiyyətlərin əldə olunmasına gətirməlidir. Bu sözlərinə o belə izah vermişdir: Azərbaycanda belə bir fikir formalaşıb ki, əqli mülkiyyət özü-özlüyündə yalnız hüquqların qorunmasına dair rəsmi sənədlərin verilməsi işi ilə bitmir. Bura digər məsələlər də daxildir: bir tərəfdən, əqli mülkiyyətin iqtisadiyyatı, digər tərəfdən – sosioloji məsələlər. Yəni, üçlük olaraq hüquq, iqtisadiyyat və sosial aspekt birgə nəzərə alınmalıdır, bu, əqli mülkiyyətin mahiyyətini ifadə edən və ondan doğan fəlsəfi yanaşma və praktiki tələbdir.

Məhz bu səbəbdən bütün qorunan əqli mülkiyyət obyektləri Azərbaycanda vahid dövlət müəssisəsində cəmləşib, onun idarəçiliyinə verilib. Bu, o cümlədən dövlət siyasəti kimi müəyyən stimullaşdırıcı addımların atılmasını asanlaşdırır. Məsələn, ixtiraçılara yardım göstərmək məqsədi ilə dövlət PCT sistemi üzrə ödəmələrin 50%-ni öz üzərinə götürüb.

Agentliyin strukturu barədə danışarkən, Kamran İmanov xüsusi olaraq yeni yaradılan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin məqsədini qeyd etmişdir: patent analitikası vaitəsilə ən yaxşı patentləri seçib, onlara maliyyə vəsaiti ayırmaqla kommersiyalaşdırmaq, innovasiyaya çevirmək. Bununla əlaqədar H.Asan qeyd etmişdir ki, ÜƏMT bu məsələyə çox önəm verir və bildirmişdir ki, Azərbaycana bu işləri reallaşdırmaq üçün lazım olunan dəstək veriləcəkdir.

O, həmçinin qeyd etmişdir ki, ölkəmizin əqli mülkiyyət sisteminin mövcud idarəetmə institutu funksionallıq baxımından düzgün qərarlar qəbul etmək üçün optimaldır və bir çox ölkədə həyata keçirilməsinə çalışılan modeldir. H. Asan K.İmanovun idarəçilik təcrübəsinin əqli mülkiyyət institutunun fəaliyyətinə önəmli faydalar verdiyini də xüsusi vurğulamışdır.

Agentliyin və onun tabeliyində olan qurumların təmsilçiləri həmçinin ÜƏMT xətti ilə keçirilən bir sıra beynəlxalq tədbirlərdə onlayn rejimdə və fiziki olaraq iştirak etmişlər. O cümlədən, süni intellektə həsr olunan sessiyalarda, müəllif hüquqları infrastrukturu üzrə vebinarda, “Qırğızpatent” ilə birgə təşkil olunan coğrafi göstəricilər üzrə regional seminarda, Əqli Mülkiyyət və Qabaqcıl Texnologiyalar üzrə Dialoqun 6-cı iclasında, “Sakpatenti” ilə birgə təşkil edilən “Milli innovasiya ekosistemində ƏM təşkilatlarının rolu” adlı konfransda, “Kommersiya sirləri və innovasiyalar” mövzusunda simpoziumda, Yaponiya Patent İdarəsinin maliyyə dəstəyi ilə başlanılan IPO GREEN layihəsində, əqli mülkiyyət təhsil müəssisələrinin beynəlxalq konfransda, “Kim PCT iddia ərizəsi verə bilər?” adlı vebinarda, “Milli innovasiya ekosistemində əqli mülkiyyət təşkilatlarının rolu” adlı konfransda, Türkiyənin Antalya şəhərində keçirilən coğrafi göstəricələrə dair regional simpoziumda və s. Bu tədbirlərin əksəriyyətində Agentliyin nümayəndələri müvafiq təqdimatlar və çıxışlar etmişlər.

Onlar həmçinin ÜƏMT Akademiyasının xətti ilə keçirilən bir çox, o cümlədən“Patent sənənədləşməsinin hazırlanmasının əsasları”, “Əqli mülkiyyət, ənənəvi biliklər və ənənəvi mədəni ifadələr”, “Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv idarəedilməsi”, “Əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilər”, “ÜƏMT qaydaları üzrə arbitraj və mediasiya”, “Proqram təminatının lisenziyalaşdırılması” istiqamətləri üzrə təlim kurslarında iştirak etmişlər.

ÜƏMT 26 beynəlxalq konvensiya, saziş və müqavilənin inzibati idarəçiliyini həyata keçirir. Azərbaycan ÜƏMT-nin 16 müqavilə və konvensiyalarına və müvafiq sazişlər üzrə protokoluna qoşulmuşdur. Həmin sənədlərin 6-sı müəlliflik hüququ və əlaqəli hüquqları, 10-u sənaye mülkiyyəti hüquqlarına aiddir.

Hazırda Azərbaycan Respublikasının ÜƏMT-nın Patent Hüququ Müqaviləsinə (PLT) qoşulması ilə bağlı məsələ müzakirə olunur. Bu istiqamətdə fəaliyyət Azərbaycan

Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"na uyğun həyata keçirilir.

Hesabat ilində ÜƏMT-nın əqli mülkiyyət sahəsində milli strategiyaların hazırlanması metodologiyasına uyğun olaraq, Azərbaycan milli Əqli Mülkiyyət Strategiyasının qəbul edilməsi ilə bağlı geniş iş aparılmış, həmin Strategiyanın hazırlanmasında ÜƏMT-nın mütəxəssislərinin iştirakı ilə əlaqədar müzakirələr aparılmışdır.

Agentlik Avrasiya Patent Təşkilatı (APT) ilə əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyətini hesabat ilində davam etdirmiş, əməkdaşlıq çərçivəsində Agentliyin nümayəndələri bu təşkilatın bir çox tədbirlərində, o cümlədən, APT-nın İnzibati Şurasının Moskva şəhərində keçirilən iki iclasında iştirak etmişlər. Hibrid formatda təşkil olunan bu tədbirlərdə APT bütün iştirakçı-dövlətlərinin əqli mülkiyyət qurumlarının rəsmi şəxsləri, həmçinin ÜƏMT-nın nümayəndələri iştirak edib. Agentliyin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İnzibati Şuradakı səlahiyyətli nümayəndəsi Kamran İmanovun rəhbərlik etdiyi nümayəndə heyəti iclaslara onlayn formatda qoşulmuşdur.

APT-nın 11-12 aprel tarixlərində keçirilən 40-cı iclasında Təşkilatın 2020-ci və 2021-ci illər üzrə hesabatı və 2022-ci il üçün büdcəsi müzakirə edilib, Avrasiya Patent Konvensiyasının (APK) Maliyyə Təlimatının yeni redaksiyası qəbul olunub, APK-nın Patent Təlimatına dəyişikliklər edilib, rüsumlarla bağlı bir sıra məsələlərə baxılıb. İclasda həmçinin APT ilə ÜƏMT-nın Beynəlxalq Bürosu arasında Patent Əməkdaşlığı Müqaviləsinə uyğun olaraq, APT-nın Beynəlxalq Axtarış Orqanı və Beynəlxalq İlkin Ekspertiza Orqanı funksiyalarını yerinə yetirməsi qaydası haqqında Saziş təsdiq edilib.

2022-ci il 20-21 sentyabr tarixlərində Avrasiya Patent Təşkilatı İnzibati Şurasının 41-ci (növbəti 29-cu) iclası keçirilmişdir. İclasda APT-nın 2022-ci il büdcəsinə dəyişikliklər və Təşkilatın 2023-cü il büdcəsi, Avrasiya patentlərinin verilməsi üçün müraciətlər üzrə sənədlərin elektron mübadiləsi qaydası təsdiq olunub, Rüsumlar haqqında Təlimata, APK-nın Patent Təlimatına və İnzibati Təlimatına dəyişikliklər edilib.

Həmçinin faydalı modellərin, əmtəə nişanlarının və xidmət nişanlarının hüquqi qorunması üzrə vahid Avrasiya sisteminin yaradılması, patent mübahisələrinin baxılması sisteminin təkmilləşdirilməsi, APT-nın Sənaye nümunələrinin qeydiyyatı haqqında Haaqa sazişinin Cenevrə Aktına (1999-cu il 2 iyul tarixli) qoşulması, APT ilə bir sıra beynəlxalq təşkilatlar və dövlətlər arasında əməkdaşlıq haqqında memorandumların imzalanması, Avropa Patent İdarəsi və APK-nın iştirakçı-dövlətlərinin milli patent qurumları arasında informasiya texnologiyaları sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, APT-nın V.İ.Blinnikov adına qızıl medalı ilə təltif edilmə və digər məsələlər (ümumilikdə 15-dən çox məsələ) də müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilmişdir.

Kamran İmanov faydalı modellərin, əmtəə nişanlarının və xidmət nişanlarının hüquqi qorunması üzrə vahid Avrasiya sisteminin yaradılması, patent mübahisələrinin baxılması sisteminin təkmilləşdirilməsi məqsədilə Avrasiya məhkəməsinin təsis edilməsi barədə məsələlərin müzakirəsi zamanı, o cümlədən əmtəə nişanlarının və xidmət nişanlarının hüquqi qorunması üzrə vahid Avrasiya sisteminin yaradılması ilə bağlı Avrasiya İqtisadi İttifaqının əmtəə nişanlarının qeydiyyatı sisteminin hələ də fəaliyyətə başlamamasının səbəblərinə aydınlıq gətirməsini və APT-nın Avrasiya əmtəə nişanlarının hüquqi mühafizəsi sisteminin yaradılması layihəsi ilə bağlı verdiyi məlumatın nəzərə alınmasını, həmçinin iştirakçı-dövlətlərin milli patent idarələrində aparılan tədqiqatlar barədə Avrasiya əmtəə nişanlarının hüquqi mühafizəsi sisteminə təsir edəcək mövqelərin uyğunlaşdırılması üçün əlavə məlumatın verilməsini təklif etmişdir.

Kamran İmanov sənaye mülkiyyəti sahəsində regional məhkəmə yurisdiksiyasının yaradılması ilə bağlı APT-nın səlahiyyətinin olmadığını da bildirdi. O, Razılığa gələn dövlətlərin səlahiyyətli dövlət orqanlarına təqdim edilmək üçün məlumatların milli patent idarələrinə çatdırılmasını, əsaslandırılmasının iqtisadi və hüquqi vasitələri nəzərə alınmaqla, bu məsələnin işlənib hazırlanmasını təklif etdi.

İnzibati Şura patent mübahisələrinə baxılması üçün Avrasiya sisteminin təkmilləşdirilməsi layihəsi ilə bağlı məsələni geniş müzakirə edərək, qeyd edilən layihə üzrə işçi qrupun işinin nəticələri haqqında məlumatın nəzərə alınması və İnzibati Şura üzvlərinin təklifləri nəzərə alınmaqla, patent mübahisələrinin həlli üçün Avrasiya sisteminin təkmilləşdirilməsi məsələsi üzərində yenidən işlənilməsi barədə qərar qəbul etdi.

İclasın qərarı ilə K. İmanov "İxtiraçılığa və patent işinə verdiyi töhfəyə görə" V.İ.Blinnikov adına qızıl medala layiq görülmüşdür.

Hesabat ilində Agentliyin təmsilçiləri həmçinin APT İnzibati Şurasının Büdcə işçi qrupun, İnformasiya texnologiyaları üzrə Daimi işçi qrupun, Hüquqi məsələlər üzrə işçi qrupun iclaslarında, eləcə APT-nın təşkilatçılığı ilə keçirilən bir çox beynəlxalq konfrans və seminarlar və təlim kurslarında iştirak etmişlər.

APT-nın İnzibati Şurasının sentyabr ayında keçirilmiş 41-ci iclası çərçivəsində Avrasiya Patent İdarəsinin təşkilatçılığı ilə Moskva şəhərində hibrid formatda ilk beynəlxalq "Əqli mülkiyyət və texnologiyalar üzrə Avrasiya Konfransı" keçirilmişdir. Konfransda APT iştirakçı-dövlətlərinin milli patent ofislərinin rəhbərləri, ÜƏMT səlahiyyətli nümayəndəsi, əqli mülkiyyət üzrə mütəxəssislər və ekspertlər, patent müvəkkilləri və hüquqşünaslar iştirak etmişlər.

Müasir dövrdə əqli mülkiyyətin aktual problemlərinin müzakirə olunduğu konfransda Şuranın xahişi ilə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov "Avrasiya məkanında innovasiya və əqli mülkiyyətin qorunması" mövzusunda geniş məruzə etmişdir.

Məruzəsində dövrün çağırışlarına uyğun olaraq Azərbaycanda davamlı şəkildə uğurlu iqtisadi və institusional islahatların həyata keçirildiyini bildirən K. İmanov, Əqli Mülkiyyət Agentliyinin yaradılmasını bu islahatların bəhrəsi kimi qiymətləndirmişdir. O, Agentliyin əqli mülkiyyət sahəsinin idarəçiliyini təmin etdiyini və patent idarələrinin həyata keçirdiyi ənənəvi funksiyalardan kənara çıxan sosial, mədəni və iqtisadi vəzifələrin yerinə yetirilməsində fəal iştirak etdiyini bildirmişdir. Kamran İmanov qeyd etmişdir ki, Davos İqtisadi Forumunun son rəqabətqabiliyyətlilik indeksinə əsasən, Azərbaycan MDB dövlətləri arasında liderlik statusunu qoruyub saxlaya bilmiş və bir sıra inkişaf etmiş Avropa ölkələrini qabaqlamışdır.

Əqli mülkiyyətin iqtisadi artıma müsbət təsiri barədə fikirlərin geniş yayılmasına baxmayaraq, əqli mülkiyyət hüquqlarının qorunmasının və keçirilməsinin gücləndirilməsində iqtisadçıların yekdil fikirdə olmadıqlarını bildirən Kamran İmanov, əqli mülkiyyət hüquqlarının adekvat modelinin işlənilməsinin əqli mülkiyyət ekosistemi zəncirinin aparıcı halqası olan milli patent ofislərinin fəaliyyətində fundamental əhəmiyyət daşıdığını vurğulamışdır. O, əqli mülkiyyətin iqtisadi artıma təsirinin təhlilinin iki mərhələli prosedur əsasında qurulmasının zəruriliyini qeyd etmişdir. Bununla əlaqədar Kamran İmanov birinci mərhələdə - əqli mülkiyyət hüquqlarının innovasiyaya təsiri, ikinci mərhələdə isə - innovasiyaların iqtisadi artıma təsiri barədə əsaslandırılmış arqumentlər gətirmiş, həmçinin əqli mülkiyyətin innovasiya üçün vacib amil olmasına baxmayaraq, innovasiyaya təsir edən digər faktorların da nəzərə alınmasının vacibliyini diqqətə çatdırmışdır.

K.İmanov innovasiya fəaliyyətini ləngidən amillərə toxunaraq, onların aradan qaldırılması üçün innovasiyalara "yaşıl işıq" yandırılması məqsədilə bu sahədə düşünülmüş dövlət müdaxiləsinin, bazarın stimullaşdırılmasının, eləcə də elm və yenilikçiliyə münasibətdə tədbirlərin həyata keçirilməsinin zəruriliyini bildirmişdir.

Dövlətin innovasiya siyasəti üzərində dayanan K. İmanov, bu sahədə dövlət müdaxiləsinin formalarını şərti olaraq aşağıdakı kimi qruplaşdırılmasını tövsiyə etmişdir:

- universitetlərdə və dövlət elmi-tədqiqat müəssisələrində (DETM) tədqiqatların maliyyələşdirilməsi;
- özəl şirkətlər üçün dövlət sifarişləri, məqsədyönlü subsidiyalar, vergi güzəştləri, bonuslar, güzəştli kreditlər və digər mexanizmlər vasitəsilə elmi-tədqiqat və təcrübi-konstruktiv işlərin maliyyələşdirilməsi;
- dövlət müəssisələri öz təşəbbüsləri ilə apardıqları elmi-tədqiqat işlərinə özəl maliyyələşmə cəlb edə bilmələri üçün onlara əqli mülkiyyət hüquqlarının verilməsi.

Kamran İmanov dövlət tərəfindən innovasiya mühitinin tənzimlənməsi sahəsində vergi, dəyər, gömrük, kredit və amortizasiya siyasəti elementlərindən ibarət olan həvəsləndirmə və motivasiya üsullarının da həyata keçirilməsinin zəruriliyi barədə fikirlərini söyləmişdir. O bildirmişdir ki, infrastruktur obyektlərinin maliyyələşdirilməsinin müxtəlif prinsipləri üzrə, yəni sığorta fondlarının, texnologiyaların transferi və kommersiyalaşdırma mərkəzlərinin, vençur kapitalı agentliklərinin yaradılmasını və dəstəklənməsini də göstərilən üsulların sırasına aid etmək olar.

Məruzədə xüsusi olaraq vurğulandı ki, əqli mülkiyyət hüquqlarının qorunması və həyata keçirilməsinin səviyyəsi sivil davranışın ölçüsü hesab olunur. Bu, innovasiya prosesinin səmərəliliyinə müsbət təsir göstərir və ölkənin ÜDM-na töhfə verir. Eyni zamanda nəzərə alınmalıdır ki, "innovativ inkişafın qəbul edilmiş ssenariləri" əqli mülkiyyət hüquqlarının qorunması və həyata keçirilməsi səviyyəsinə bilavasitə təsir göstərir.

Konfransın moderatoru Avrasiya Patent İdarəsinin prezidenti Qriqoriy İvliyev məruzədə qaldırılan məsələlərin, o cümlədən müasir dövrdə əqli mülkiyyətin innovasiya prosesinə təsirinin daha dərindən öyrənilib təhlil edilməsi, bu sahədə Azərbaycan təcrübəsindən digər üzv-dövlətlərin patent ofislərinin də bəhrələnməsi və birgə uğurlu addımların atılması üçün əqli mülkiyyət sahəsində tanınmış mütəxəssis kimi Kamran İmanovun iştirakı ilə Avrasiya Patent İdarəsində konfransın keçirilməsini təklif etdi. Təklif konfrans iştirakçıları tərəfindən dəstəklənərək, belə bir tədbirin keçirilməsinin hamı üçün faydalı olacağı qeyd edilmişdir.

Bununla yanaşı, Agentliyin və onun tabeliyində olan qurumların nümayəndələri Avrasiya Patent İdarəsi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyası tərəfindən təşkil edilən APT-nın normativ aktlarına edilən son dəyişikliklərlə bağlı "İxtiraların və sənaye nümunələrinin patentləşdirilməsi məsələlərinə dair Avrasiya Patent Təşkilatının aktlarında faktiki dəyişikliklər" mövzusunda onlayn seminarda, "İP Avrasiya" adlı beynəlxalq konfransda, Qırğızıstanın Oş şəhərində "Avrasiya patent-informasiya məkanının formalaşdırılması: təcrübə və perspektivlər" mövzusunda regional seminarda, "Əqli mülkiyyətin müasir ekosistemində müəllif" mövzusunda beynəlxalq elmi-praktiki konfransda, APK-nın iştirakçı-dövlətlərinin milli patent idarələrinin mütəxəssis-ekspertləri üçün "Sənaye nümunələri üzrə Avrasiya iddia sənədlərinin ekspertizası" mövzusunda, APK iştirakçı-dövlətlərinin milli patent idarələrinin mütəxəssislərinin "İnformasiya təhlükəsizliyinin idarəetmə sistemi" mövzusunda ixtisasın artırılması üzrə iş təcrübəsi təlimlərində iştirak etmişlər.

Hesabat ilində Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sisteminin inkişafı çərçivəsində Agentlik Avropa İttifaqı (Aİ) ilə əlaqələrini davam etmişdir. Bu məqsədlə Agentlik Avropa İttifaqı Əqli Mülkiyyət İdarəsinə (EUPİO) müraciət edərək, iki təşkilat arasında Anlaşma Memorandumunun imzalanmasını, həmçinin EUPİO-nun alətləri və ümumi təcrübələrinin yerli istehlakçılara xidmətlərin yaxşılaşdırılması və Agentliyin idarəçiliyinin səmərəliliyinin artırılması üçün Agentlikdə tətbiq edilməsinin müzakirəsi məqsədilə görüşün keçirilməsini təklif etmişdir.

Agentliyin nümayəndəsi Avropa İttifaqı tərəfindən Ümumdünya Ticarət Təşkilatı (ÜTT) çərçivəsində əqli mülkiyyət sahəsi üzrə siyasətin həyata keçirilməsi ilə əlaqədar tədbirində iştirak edib, o cümlədən ölkəmiz üzrə əqli mükiyyət hüquqları obyektləri, ilk növbədə, əmtəə nişanlarına dair hüquqların pozulmasına qarşı Avropa İttifaqının bazarda monitorinq, paralel idxalın nizamlanmasında əqli mülkiyyət hüquqlarının qorunmasına və texnologiyaların transferinin iqtisadi artıma təsiri mexanizmlərinin formalaşmasına dair təcrübəsinin öyrənilməsi üçün təlimlərin keçirilməsi barədə təkliflərini ÜTT Katibliyinə təqdim etmişdir.

Agentliyin nümayəndələri Aİ-nın ölkəmizdəki nümayəndəliyinin maliyyə dəstəyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) iştirakı ilə “Ənənəvi qida məhsullarının təkmilləşdirilmiş təşviqi və marketingi layihəsi” çərçivəsində təşkil edilən konfransda, “Mərkəzi və Cənub-Şərqi Avropada innovasiya texnologiyalarının transferi” mövzusunda Slovakiyada keçirilmiş seminarda iştirak etmişlər. Sonuncu tədbirdə informasiya texnologiyalarının inkişafı və gücləndirməsi, rəqabət sahəsində siyasət və dövlət dəstəyi qaydalarının tətbiqi məsələləri müzakirə edilmişdir.

Hesabat ilində beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində Agentlik Nazirlər Kabinetinin tapşırıqları əsasında MDB-nin əqli mülkiyyət və əqli mülkiyyət hüquqlarının qorunmasını ehtiva edən digər sahələr üzrə layihələrin hazırlanması prosesində iştirakını davam etmişdir.

2022-ci ilin 24 dekabr tarixində Azərbaycan Respublikası “Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında” Sazişə müvafiq qeyd-şərtlə və 2017-ci il 26 may tarixində Kazan şəhərində imzalanmış “2010-cu il 19 noyabr tarixli “Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş”ə dəyişikliklər edilməsi haqqında Protokol”a qoşulmuş, həmin tarixdən bu sənədlər ölkəmiz üçün qüvvəyə minmişdir. Bununla əlaqədar Agentliyin MDB çərçivəsində əməkdaşlıq əlaqələrinin intensivləşdirilməsi və sahə üzrə dövlətimizin maraq və mənafelərinin qorunması üçün imkanları genişlənmiş, ölkəmizin nümayəndələri qeyd edilən Dövlətlərarası Şuranın 30 avqust tarixində keçirilən iclasında iştirak etmişlər.

MDB-nin aidiyyəti bölmələri ilə əməkdaşlıqda Agentlik “Müstəqil Dövlətlər Birliyinin 2030-cu il dövrünə qədərki iqtisadi inkişaf Strategiyası”nın birinci mərhələsinin (2021-2025-ci illər) həyata keçirilməsinə dair Tədbirlər Planı”nın “Əqli mülkiyyət obyektlərinə hüquqların qorunması və mühafizəsi” bölümünün icrası ilə əlaqədar işləri davam etmiş, “Milli məlumat bazalarının formalaşdırılması və əqli mülkiyyət sahəsində hüquq pozuntularının qabaqlanması və qarşısının alınması üzrə məlumatın dövlətlərarası mübadiləsinin təşkili Konsepsiyası”nın və layihəsinə dair rəy bildirmiş, MDB İcraiyyə Komitəsi tərəfindən təqdim edilən “İnnovasiya sahəsində qanunvericilik, həmçinin bu təşkilat çərçivəsində innovasiya fəaliyyətində iştirak edən dövlət orqanları və təşkilatları barədə Məlumat”ın dolğunluğunu təmin etmək məqsədilə bu sənədə müvafiq əlavələr edilməsini təklif etmişdir.

Hesabat ilində Agentlik həmçinin ölkələrarası ikitərəfli əlaqələrini inkişaf etdirmiş, o cümlədən, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya ilə ikitərəfli hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyaların iclaslarının qərarlarının icra edilməsi ilə əlaqədar müvafiq işləri davam etmişdir. O cümlədən:

- Qırğız Respublikasının Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində aprel ayının 20-də paytaxt Bakı şəhərində iki dövlət başçılarının görüşündən sonra onların iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi zamanı “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi ilə Qırğız Respublikasının Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi arasında əqli mülkiyyətin qorunması sahəsində anlaşma və əməkdaşlıq haqqında Memorandum” imzalanmışdır.

Sənədi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev imzalayıblar.

Memorandum Tərəflərin, o cümlədən əqli mülkiyyət obyektlərinə hüquqların qorunması və istifadəsi ilə bağlı məsələlərin müzakirəsi, sahə üzrə ölkələrin qanunvericiliyində olan dəyişikliklər barədə məlumat mübadiləsi, texnologiyaların transferi məsələlərinə dair təcrübə mübadiləsi, müəlliflik hüququ və əlaqəli hüquqlar sisteminin, o cümlədən müəlliflərin və hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv idarəetmə sisteminin inkişafı, mütəxəssis və ekspertlərin birgə təlimlərinin təşkili, birgə konfransların, seminarların və işçi görüşlərin təşkili istiqamətlərdə əməkdaşlıq etmək niyyətini ehtiva edir.

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Özbəkistan Respublikasına rəsmi səfəri çərçivəsində 20 iyun tarixində Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən Özbəkistan-Azərbaycan biznes forumu çərçivəsində “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində Əməkdaşlıq haqqında Memorandum” imzalanıb. Sənədi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov və Özbəkistan Respublikasının Ədliyyə naziri Ruslanbek Davletov imzalayıblar.

Memorandum iki ölkə arasında tarixi, mədəni, elmi-texniki, ticarət-iqtisadi əlaqələrin inkişafı prosesində müəlliflik hüququ və əlaqəli hüquqların qarşılıqlı şəkildə etibarlı qorunmasının təmin olunması zəruriliyindən irəli gəlir və bununla əlaqədar mütəmadi qaydada informasiya, təcrübə mübadiləsi, birgə təlimlərin və digər tədbirlərin keçirilməsi mexanizminin yaradılması ilə Azərbaycan və Özbəkistanın mövcud əqli mülkiyyət sistemlərinin gücləndirilməsini nəzərdə tutur.

Sənədin imzalanma mərasimi çərçivəsində Özbəkistan Respublikasının Ədliyyə nazirinin müavini Tulkin Abdusattarovun da iştirak etdiyi görüş zamanı ikitərəfli əlaqələrin inkişafına dair geniş müzakirələr aparılmış, Kamran İmanov tərəfindən Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsi üzrə əldə etdiyi nailiyyətlərlə əlaqədar Özbəkistan tərəfinin marağını doğuran məsələlərə dair təfsilatlı məlumatlar verilmişdir. İlk növbədə, Azərbaycanda müəllif hüquqlarının qorunması təcrübəsi və bu təcrübədən Özbəkistan tərəfinin yararlanması məsələsi diqqət mərkəzində olmuş, ölkəmizdə ənənəvi biliklərin və ənənəvi mədəni ifadələrin (folklorun) qorunmasının hüquqi aspektləri, müvafiq normativ-hüquqi tənzimləmə mexanizmi xüsusi maraqla qarşılanmışdır.

Sənaye mülkiyyəti sahəsində Azərbaycanın təcrübəsi, ilk növbədə, Agentlikdə fəaliyyət göstərən PƏNAH sisteminin yaradılması və müvafiq xidmətlər göstərməsi də diqqət mərkəzində olmuş, Özbəkistan tərəfinin rəqəmsallaşdırılmış bu xidmətlə əlaqədar sualları cavablandırılmışdır.

Tərəflər kadrların hazırlığı sahəsində əməkdaşlıq və təcrübə mübadiləsinin həyata keçirilməsi məsələlərini də müzakirə etmişlər. Bu çərçivədə Özbəkistan mütəxəssislərinin yaxın zamanlarda Azərbaycana ezam olunması, həmçinin qarşı tərəfin qanunvericilik təcrübəsi ilə tanış olmaq üçün Əqli Mülkiyyət Agentliyinin əməkdaşlarının Özbəkistana səfəri barədə razılıq əldə edilmişdir.

- Türkiyə Respublikası ilə əlaqələrin normativ-hüquqi bazasının genişləndirilməsi məqsədilə “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Türkiyə Patent və Əmtəə Nişanları Qurumu (Türkpatent) arasında sənaye mülkiyyətinin qorunması haqqında Anlaşma Memorandumu” üzərində iş başa çatmış, bu sənəd Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycana səfəri çərçivəsində iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclası çərçivəsində Azərbaycan Respublikasının Baş Nazirinin və Türkiyə Respublikasının Vitse-prezidentinin iştirakı ilə 2022-ci ilin 4 noyabr tarixində keçirilən Azərbaycan-Türkiyə biznes forumunda imzalanıb. Sənədi Əqli Mülkiyyət

Agentliyinin İdarə Heyətinin üzvü Sənan Tapdıqov və Türkpatentin sədri Cemil Başpınar imzalayıblar.

Anlaşma Memorandumunun məqsədi tərəflər arasında ikitərəfli əməkdaşlıq üçün ümumi çərçivənin yaradılması, bilik və yaxşı təcrübə nümunələrinin mübadiləsi ilə birlikdə ölkələrin əqli mülkiyyət sistemlərinin idarəçiliyinin inkişaf etdirilməsi və səmərəliliyinin artırılmasıdır. Tərəflər əqli mülkiyyət sahəsində milli qanunvericilik və təcrübələri haqqında məlumat mübadiləsini aparmaq və bu məqsədlə konkret əməkdaşlıq fəaliyyətlərini inkişaf etdirmək, bir-birinin əqli mülkiyyət hüquqları sahiblərinin hüquqlarının qeydiyyatı və effektiv şəkildə qorunmasını təmin etmək, regional və beynəlxalq səviyyədə sənaye mülkiyyətinin effektiv qorunmasını təmin etmək üçün üçüncü ölkələr və beynəlxalq təşkilatlarla müştərək əməkdaşlıq imkanlarını inkişaf etdirmək, iştirak etdikləri beynəlxalq layihələrdə birgə yanaşmanı formalaşdırmaq, məlumat və təcrübə mübadiləsi aparmaq, bu məqsədlərlə birgə fəaliyyətlər təşkil etmək sahələrində əməkdaşlıq etməyi nəzərdə tuturlar.

- Hesabat ilində "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Çin Xalq Respublikasının Dövlət Əqli Mülkiyyət Ofisi arasında Anlaşma Memorandumu" layihəsi hazırlanaraq tərəflər arasında razılaşdırılmış, layhənin hər iki ölkədə müvafiq dövlətdaxili razılaşdırılması proseduru həyata keçirilmişdir. Sənədin yaxın zamanlarda onlayn qaydada təşkil ediləcək tədbir zamanı imzalanması nəzərdə tutulur.

Memorandum Azərbaycan və Çində əqli mülkiyyət sisteminin inkişafının təşviqi, patentlər, sənaye nümunələri, ticarət nişanları və coğrafi göstəricilər də daxil olmaqla əqli mülkiyyət sahəsində ikitərəfli mübadilə və əməkdaşlığın artırılması və gücləndirilməsi, hər iki ölkənin elmi-texnoloji, ticarət və sosial-iqtisadi inkişafına dəstəyin verilməsini ehtiva edir.

- "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında əqli mülkiyyət sahəsində əməkdaşlığa dair Saziş" layihəsinin hazırlanması məqsədi ilə işçi qaydada Əqli Mülkiyyət üzrə Federal xidmət (Rospatent) ilə müzakirələr davam etmişdir. Yeni sazişin qəbul edilməsi zərurəti "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında 1994-cü il 18 iyul tarixli Saziş"in (bundan sonra – Saziş) imzalanmasından keçən müddət ərzində hər iki ölkənin əqli mülkiyyət sahəsinin idarəedilməsi, eləcə də sahənin tənzimlənməsində beynəlxalq və yerli təcrübə və qanunvericiliyin təkmilləşməsi ilə bağlı əhəmiyyətli dəyişikliklərin baş verməsi ilə əlaqədar yaranmışdır.

Hazırda Rospatent layihənin təkmilləşdirilmiş variantı üzərində təşkilatdaxili işlər aparır. Bundan sonra layihə baxılması üçün Agentliyə təqdim ediləcək.

Hesabat dövründə Agentlik Rusiya, Türkiyə, ABŞ, Belarus, Qazaxıstan, Gürcüstan, Latviya, Litva, Moldova, Rumıniya ilə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələlərinin inkişaf etdirilməsi ilə bağlı bu ölkələrin müvafiq qurumları ilə əlaqələr saxlamış, həmçinin ölkəmizin Böyük Britaniya, Almaniya, Çin, Mərakeş, Vyetnam, Pakistan, Yaponiya, Koreya Respublikası, İtaliya, İsrail, Finlandiyaniya, Esvatini Krallığı (Svazilend) və digər ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığına dair müqavilələrin layihələrinə əqli mülkiyyət baxımından rəy və təkliflərini bildirmişdir.

Agentliyin beynəlxalq əlaqələrin inkişafı ilə əlaqədar fəaliyyətinin daha bir istiqaməti müxtəlif dövlət və şirkətlərin nümayəndələri ilə əqli mülkiyyət sahəsinə aid gündəmdə olan praktiki və nəzəri məsələlərin müzakirə edilməsidir.

Bu sırada İkitərəfli əlaqələrin inkişafı çərçivəsində Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov hesabat ilinin may ayında "Texnofest-Azərbaycan" festivalının tədbirlərində iştirak edən Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyinin tabeliyində olan Patent və Əmtəə Nişanları Qurumunun (Türkpatent) sədri vəzifəsini icra edən Cemil Başpınarı qəbul etmişdir.

Görüşdə tərəflər təmsil etdikləri qurumların fəaliyyət dairəsi, strukturu və əlaqələri barədə təfsilatlı məlumatlar vermiş, əqli mülkiyyət sisteminin nəzəri və praktiki amillərinin əlaqələndirilməsinin əhəmiyyətini vurğulamış, gələcək əməkdaşlığın, o cümlədən kadrların hazırlanması sahəsində perspektivlərini müzakirə etmişlər.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dərin islahatlar siyasəti çərçivəsində yenidən formalaşan əqli mülkiyyət sahəsinin idarə edilməsindən söz açan Kamran İmanov qeyd etmişdir ki, hazırda Agentliyin tabeliyində 4 publik hüquqi şəxs – Respublika Elmi-Texniki Kitabxana, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və yeni yaradılan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi mövcuddur. Onun sözlərinə görə, vahid çətir altında fəaliyyət göstərən bu qurumların əsas vəzifəsi əqli mülkiyyətin müasir dövrdə dəyişən roluna uyğun olaraq, ölkəmizdə əqli mülkiyyət ekosisteminin formalaşması və effektivliyinin təmin edilməsidir. Bu, özündə tək hüquqi deyil, eləcə də iqtisadi və sosial aspektləri ehtiva edəcək yanaşma olaraq, dövlət siyasətinin həyata keçirilməsinə dəstək və xidmət üsulu kimi təzahür edir.

O həmçinin vurğulamışdır ki, Agentlik öz idarəetmə modelinə uyğun olaraq, əqli mülkiyyətin hər iki qolunun – müəlliflik hüququnun və sənaye mülkiyyətinin - inkişaf etdirilməsini özünün əsas vəzifələrindən bilir. Bu çərçivədə Agentlik tərəfindən aparılan nəzəri araşdırmalar sırasında Kamran İmanov patent hüququ ilə müəlliflik hüququnun qarşılaşdığı təzadlı məqamlara aydınlıq gətirilməsi, patent analitikası üzrə elmi tədqiqatların aparılması, süni intellekt və Biq-datalarla (böyük həcmli məlumatlar) əlaqəli çalışmaları qeyd etmişdir.

Kamran İmanov Agentlikdə fəaliyyət göstərən PƏNAH (Patent və Əmtəə Nişanlarına Açıq Hədəf) sistemi, eləcə də treninq mərkəzi, Bakı Dövlət Universitetinin Hüquq fakültəsində “Əqli mülkiyyət hüququ” kafedrasının yaradılması və magistrlər üçün təhsil proqramının tətbiqi barədə də məlumat vermişdir. Agentliyin çağrı mərkəzi ilə bağlı o qeyd etmişdir ki, buradan Agentliyin mütəxəssisləri əqli mülkiyyətin bütün spektri üzrə maraqlı şəxslərdən daxil olan sorğu və suallara dürüst cavablar verir, onları istiqamətləndirirlər.

Öz növbəsində, Cemil Başpınar Azərbaycan əqli mülkiyyət sisteminin idarə edilmə modelinin təfərrüatları ilə maraqlanıb, həmsöhbətindən aldığı cavablardan sonra, bu təcrübədən yararlanmaq istəyinin olduğunu bildirib.

2022-ci ilin 21 aprel tarixində Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Örl Litzenberqer ilə görüşü keçirilib.

Görüşdə dövlət başçısının rəhbərliyi altında ölkəmizdə aparılan institusional islahatlar nəticəsində əqli mülkiyyət sahəsində vahid dövlət qurumu olan Agentliyin yaradılması, onun fəaliyyəti və strukturu barədə ətraflı məlumat verilib. ABŞ-nın müvafiq strukturlarının əqli mülkiyyətə aid təqdimat və hesabatlarının, o cümlədən Beynəlxalq Əqli Mülkiyyət Alyansının (International Intellectual Property Aliance) hesabatının və ABŞ-nın əqli mülkiyyət hüquqlarını pozan ölkələrə dair illik “Xüsusi 301 Hesabatı”nın (Special 301 Report) daim diqqətdə saxlanıldığı, Agentliyin səfirliklə əməkdaşlığa xüsusi əhəmiyyət verməsi və hazırda Azərbaycanda ABŞ-nın hüquqi və fiziki şəxslərinə məxsus əqli mülkiyyət obyektlərinin qorunduğu, həmçinin “Microsoft”, “Oracle” və “Trimble” kimi şirkətlərin proqram təminatı məhsullarının ölkəmizdə hüquqi qorunmasına önəm verildiyi vurğulanıb.

Agentliyin ABŞ-nın Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramı (CLDP) ilə birlikdə ölkəmizdə əqli mülkiyyət sahəsinə dair keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib, bu sahədə ictimai məlumatlılığın artırılması üçün əməkdaşlığın davam etdirilməsinə maraq diqqətə çatdırılıb.

Azərbaycanda əqli mülkiyyətin qorunması sahəsində əldə edilən nailiyyətlərin xoş təəssüratlar yaratdığını qeyd edən səfir Litzenberqer buna görə Əqli Mülkiyyət Agentliyinə öz təşəkkürünü bildirib. O, əqli mülkiyyət hüquqları sahəsində qanunvericiliyin əlverişli investisiya mühiti üçün zəmin olduğunu vurğulayıb və ABŞ səfirliyinin ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunmasının təşviqi sahəsində Əqli Mülkiyyət Agentliyi və digər dövlət qurumları ilə işləməkdən məmnun olduğunu qeyd edib.

2022-ci ilin 17-18 may tarixlərində Agentliyin, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və CLDP-nin birgə təşkilatçılığı ilə hakimlər üçün "Əqli mülkiyyət barədə məhkəmə qərarı" mövzusunda təlim-seminar keçirilib. Tədbirdə Agentliyin nümayəndələri müəlliflik hüququ və sənaye mülkiyyəti obyektləri üzrə mübahisələrin həlli üzrə fəaliyyəti və bu sahədə məhkəmə təcrübəsi barəsində təqdimatlar ediblər, həmçinin ABŞ və Azərbaycandan olan hakimlər öz ölkələrinin təcrübələri haqqında ətraflı məlumat veriblər. Təlim prosesində vurulan zərərin hesablanması, əmtəə nişanları, müəlliflik hüququ, retranslyasiyaya görə müəllif qonorarının ödənilməsi, kommersiya sirri, proqram təminatı lisenziyaları, o cümlədən əqli mülkiyyət sahəsində məhkəmə işləri barədə geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin 2022-ci ildə Azərbaycanın investisiya mühiti haqqında yaydığı hesabatın ("2022 Investment Climate Statements: Azerbaijan") 5-ci bölməsinin "Əqli mülkiyyət hüquqları" adlı hissəsində ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunmasının yaxşılaşdırılması qeyd edilmiş, bu sahədə tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hüquq-mühafizə orqanları və məhkəmə orqanları ilə əməkdaşlığın gücləndirilməsi, habelə hüququn tətbiqi səviyyəsinin inkişaf etdirilməsinə Əqli Mülkiyyət Agentliyi tərəfindən xüsusi diqqət yetirildiyi bildirilmişdir.

Sənəddə Azərbaycan hökumətinin ABŞ Səfirliyinin dəstəyi ilə dövlət təşkilatlarında lisenziyalaşmış proqram təminatından istifadəsinin genişləndirilməsinə dair addımların atıldığı da bildirilir.

Qeyd edilməlidir ki, Azərbaycan ABŞ Ticarət Nümayəndəliyinin Ofisi tərəfindən hər il ticarət tərəfdaş dövlətlərində əqli mülkiyyət hüquqlarına riayət olunmasına və qorunmasına dair dərc edilən Xüsusi 301 Hesabatına ("Siyahı 301") 2022-ci ildə də salınmayıb. Bu hesabatın məqsədlərindən biri siyahıda göstərilən dövlətlərin hökumətlərini piratçılığa qarşı fəal mübarizə aparmaq və əqli mülkiyyət hüquqlarının qorunması sahəsində qanunvericiliyi təkmilləşdirmək üçün həvəsləndirməkdir. Bu hesabat ABŞ-nın dövlət qurumlarının və xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və digər maraqlı tərəflərin təqdim etdiyi məlumatlar əsasında hazırlanır.

Azərbaycan Respublikası hələ 2006-cı ildə əqli mülkiyyət hüquqlarının təminatı sahəsində irəliləyişlərə görə, o cümlədən o zamanki Müəllif Hüquqları Agentliyi tərəfindən həyata keçirilən xüsusi proqrama əsasən, bu siyahıdan çıxarılmışdır.

Bu, ölkədə əqli mülkiyyət hüquqlarının qorunması sahəsində aparılan sistemli və məqsədyönlü dövlət siyasətinin, saxtamalçılığa və piratçılığa qarşı mübarizənin qanunvericilik, iqtisadi tənzimləmə, sərhəd-gömrük, beynəlxalq əlaqələr, maarifçilik səviyyəsində təmin olunması, yaradıcılığı və ixtiraçılığı təşviq edən, bu cür fəaliyyətləri stimullaşdıran ardıcıl tədbirlərin həyata keçirilməsi sayəsində mümkün olmuşdur.

Agentliyin rəhbəri Kamran İmanov 16 iyun tarixində AZEL Systems MMC-in Baş Direktoru cənab İqor Yakovenkonu və Microsoft-un Azərbaycan üzrə Nümayəndəliyinin rəhbəri cənab Qaçay Mirzəyevi qəbul etmişdir. Görüşdə əqli mülkiyyət obyektlərindən istifadə ilə bağlı sağlam rəqabət prinsiplərinin təmin edilməsi, əqli mülkiyyətə əsaslanan sənayedə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin mənafelərinin qorunması məqsədilə əqli mülkiyyət hüquqları obyektlərindən qanunsuz istifadəyə və piratçılığa qarşı tədbirlərin görülməsi Agentliyin fəaliyyət istiqamətlərindən biri olduğu qeyd edilmiş, bu istiqamətdə, o cümlədən lisenziyasız proqram təminatı istifadəsinə qarşı mübarizə

sahəsində əlaqədar qurumlarla işlərin koordinasiya olunmuş şəkildə aparılmasının vacibliyi vurğulanmışdır

İ.Yakovenko rəhbərlik etdiyi qurumun fəaliyyəti və iş prinsipi barədə məlumat vermiş, Azərbaycanda proqram təminatı üzrə piratçılığa qarşı mübarizədə AZEL Systems MMC-nin mövqeyini görüş iştirakçılarına çatdırmışdır. Q.Mirzəyev isə təmsil etdiyi təşkilatın proqram təminatı üzrə piratçılığa qarşı mübarizə sahəsində qarşıda duran problemləri qabartmış və onların həlli yolları barədə təkliflərini bildirmişdir.

Rusiya ilə sahəvi əməkdaşlıq məsələləri ənənəvi olaraq hesabat ilində də davam etdirilib. O cümlədən, 29 iyun – 1 iyul tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən 10-cu Peterburq Beynəlxalq Hüquq Forumu çərçivəsində əqli mülkiyyət məkanına aid sessiyaya onlayn rejimdə qoşulan Agentliyin İdarə Heyətinin sədri cənab Kamran İmanov "Yaradıcılıq müəllifliyin əsası kimi" mövzusunda geniş məruzə ilə çıxış edib. Təqdimatda müəlliflik yaradıcının fərdiliyinin inikası kimi, müəlliflik əqli və yaradıcı fəaliyyətin prizmasında müəlliflik və müəlliflik hüququnun obyekti, "yaradıcı xarakter" ("yaradıcı iş") meyarı, müəlliflik hüququ və patent hüququnda oxşarlıq və fərqlilik, normativ-hüquqi tənzimləmə mexanizmi və dövlət siyasəti çərcivəsində müəllifin maraqlarının ödənilməsinin incəlikləri, müəlliflik hüququnun əqli mülkiyyət hüquqları ekosistemində yeri məsələləri təhlil edilib və onların müasir dövrün tələbləri səviyyəsində həllərinə dair təkliflər verilib.

Forum vətəndaşların, biznesin maraqlarına uyğun hüquq məsələləri, hüquq-mühafizə təcrübəsinin təkmilləşdirilməsi, müasir şəraitdə hüquqi mədəniyyətin inkişaf etdirilməsi və sosial-iqtisadi sahənin tənzimlənməsi məqsədi ilə qanunvericilik təşəbbüslərinin təşviqi üzrə hüquq, biznes, siyasi və hüquq-mühafizə sektorlarının nümayəndələrinin dialoq platformasıdır.

13 sentyabr tarixində Moskva şəhərində "Avropa və Asiyada hüquq və iqtisadiyyatın aktual problemləri" V Beynəlxalq Hüquq Forumu keçirilib. Fransanın Hüquqşünas və İqtisadçıların Beynəlxalq Alyansı və Rusiya Federasiyasının O.E.Kutafin adına Moskva Dövlət Hüquq Universitetinin təşkilatçılığı ilə "Qlobal iqlim dəyişikliyi və rəqəmsallaşma kontekstində hüquq, iqtisadiyyat və beynəlxalq humanitar əməkdaşlığın inkişafı" mövzusunda hibrid formatda keçirilən tədbirdə Azərbaycan, Almaniya, Böyük Britaniya, Çin, Hindistan, Fransa, İsveçrə, İtaliya, Polşa, Rusiya və Slovakiyanı təmsil edən 300 nəfərdən çox nümayəndələr iştirak etmişdir.

Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov Forumun "Qlobal iqtisadi və sosial dəyişikliklər dövründə Avrasiyada əqli mülkiyyətin hüquqi tənzimlənməsinin yeni istiqamətləri" adlı panel müzakirələrinə onlayn rejimdə qoşularaq, "Müasir şəraitdə əqli mülkiyyət hüququnun təkamülü və əqli mülkiyyət ofislərinin vəzifələri" mövzusunda geniş məruzə ilə çıxış edib.

Konseptual problemlərə toxunan Kamran Imanov əqli mülkiyyətin müasir anlayışının və bu institutun fəaliyyətinin onun ənənəvi qavrayışından əhəmiyyətli dərəcədə fərqli kontekstdə baş verdiyini, bunun cəmiyyətdəki mövcud əqli mülkiyyət landşaftına kardinal təsir edən və getdikcə bu təsiri artıran əhəmiyyətli texnoloji dəyişikliklərdən irəli gəldiyini bildirib. Qeyd edilib ki, müasir "əqli mülkiyyət" kateqoriyası öz tərifində yalnız fiziki və ya hüquqi şəxsin əqli fəaliyyət nəticələrinə (ƏFN) müstəsna hüquqlarını deyil, ilk növbədə, qorunma hüquqlarına malik ƏFN-nin özünü nəzərdə tutur. Bazarda tələb və təklif obyektləri kimi hüquqlar deyil, hüquqlara malik ƏFN-i çıxış edir. Bu obyektlər üzrə əməliyyatlarda bu hüquqların verilməsinin həcmi və şərtləri nəzərə alınır. Bu, əqli mülkiyyət institutunun emercentliyi, sinergetikasının sistemli anlayışıdır.

Patent hüququ ilə müəlliflik hüququnun qarşılıqlı əlaqəsinə toxunan Kamran İmanov çıxışında patent qanunvericiliyinin əsaslı modernləşdirilməsi və patentin alınması üçün iddia

sənədlərinin dərcində müəllif hüquqlarının pozulmasına səbəb olan pozuntuların aradan qaldırılması ilə bağlı məsələləri xüsusi olaraq vurğulayıb.

Kamran İmanov Azərbaycan Prezidenti ilə Dünya İqtisadi Forumunun Prezidenti arasında 2020-ci ilin yanvarında imzalanmış Niyyət Protokolu və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli, 1245 nömrəli Fərmanı əsasında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"nin yaradılmasını qeyd edərək, daxili texnologiyaların inkişafınının stimullaşdırılması, ixtira fəallığınının artırılması, o cümlədən texnologiyaların transferi mexanizmlərinin formalaşdırılmasına dəstək məqsədilə Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradıldığını bildirib.

Onu da qeyd edirik ki, hesabat ilinin iyul ayında "Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında Saziş"in müddəalarına uyğun olaraq, Rusiya Müəlliflər Cəmiyyəti ilə ikitərəfli əməkdaşlığın təkmilləşdirilməsi və davam etdirilməsi məsələləri də müzakirə edilmişdir.

Fransa Respublikası ilə əqli mülkiyyət sahəsində ikitərəfli əlaqələrin inkişafı çərçivəsində may ayında Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqov Fransanın Türkiyədəki səfirliyinin kənd təsərrüfatı üzrə müşaviri cənab Fransua Vieli qəbul edib. Görüşdə Azərbaycan və Fransa arasında əqli mülkiyyət hüquqları sahəsində əməkdaşlığın genişləndirilməsi, ikitərəfli və çoxtərəfli əsasda əlaqələrin intensivləşdirilməsi, bu çərçivədə birgə tədbirlərin keçirilməsinin mümkünlüyü müzakirə olunmuşdur.

Sənan Tapdıqov, o cümlədən ölkədə tarixən geniş istehsal bazası və iri həcmlərdə istehsalı olan Fransa coğrafi göstəriciləri alkoqollu içkilərin rebrendinqi mövzusuna toxunmuş, bununla əlaqədar region dövlətlərinə maliyyə dəstəyinin qeyri-mütənasib ayrılmasını bildirib, bunun hansı meyarlar üzərində köklənməsi ilə maraqlanıb. O bildirmişdir ki, rebrendinq məsələsi biznes maraqlarla sıx əlaqəlidir və bu sahədə çox həssas yanaşmalar üstün tutulmalı, radikal addımlar atmaqla biznəsə xələl vurulmamalıdır.

Sənan Tapdıqov həmçinin Fransa biznesini əmtəə nişanları və coğrafi göstəriciləri Azərbaycanda qeydiyyatdan keçirməyə dəvət etdi, onlar üçün "yol xəritəsi" yaratmaq imkanını bildirdi. Onun sözlərinə görə, Azərbaycan bazarında xarici brendlərin təşviqi, bu sahədə qarşılıqlı anlaşma, məhsulların rebrendinqi investisiyalar və ticarət üçün imkanlar açır. O, bunu da qeyd etmişdir ki, Azərbaycanda formalaşan əqli mülkiyyət mədəniyyəti yerli biznesin əqli mülkiyyət hüquqlarına hörmətinin artmasına, qanunvericiliyin tələblərinə riayət etməsinə əhəmiyyətli dərəcədə müsbət təsir etmişdir.

Fransanın marketinq aparmaq, texniki yardım dəstəyi vermək imkanlarından danışan Fransua Viel, bazarın öyrənilməsinin investisiyaların və ticarətin artmasına təsirini qeyd etdi, həmçinin coğrafi göstəricilərə dair ayrıca ikitərəfli proqramın tərtib edilməsinin mümkünlüyünü bildirdi. O, bütün ehtiyacları yenidən nəzərdən keçirib, birgə fəaliyyət proqramının tərtib edilməsini təklif etdi, bu fikir onun həmsöhbəti tərəfindən müsbət qarşılandı. Görüşdə coğrafi göstəricilərin qorunması sahəsində qanunvericiliyin uyğunlaşdırılması, təcrübə mübadiləsinin perspektivləri barədə də fikir mübadiləsi aparılmışdır.

Azərbaycan xalqına, onun torpağının bərəkətinə məxsus coğrafi göstəricilərin qorunması Agentliyin diqqət mərkəzində saxlanılır. Bu çərçivədə Əqli Mülkiyyət Agentliyi, Türkiyə Patent və Əmtəə Nişanları Qurumu (Türkpatent) və Gürcüstanın Milli Əqli Mülkiyyət Mərkəzinin (Sakpatentı) təşkilatçılığı, ÜƏMT-nın dəstəyi ilə 2022-ci ilin 24-25 noyabr ayında Türkiyə Respublikasının Antalya şəhərində coğrafi göstəricələr mövzusunda keçirilən regional simpozium və coğrafi göstəricilərə dair sərgidə Agentlik fəal iştirak etmişdir. Bu

tədbirlərin əsas məqsədi coğrafi göstəricilərin qorunması, kollektiv idarə olunması və kommersiyalaşdırılması sahəsində təcrübə mübadiləsi olmuşdur.

Coğrafi göstəricilərə aid sərgidə Azərbaycana məxsus coğrafi göstəricilər (Sirab, Badamlı, Meysəri, Ağdam şərabı, Şəki halvası), Zəngəzur və İrəvan xalçaları, İsmayıllı pip dolması və Azərbaycan kəlağayısı (Basqal kəlağayısı) təqdim edilmişdir.

Agentliyin İdarə Heyətinin sədri tədbir iştirakçılarına videomüraciət etmişdir. Videomüraciət əsasında "Azərbaycana məxsus coğrafi göstəricilər", "İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları" kitabları çap edilərək yayılmışdır.

Tədbir çərçivəsində Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqovun Gürcüstanın Milli Əqli Mülkiyyət Mərkəzinin (Sakpatenti) sədr müavini Nino Çikovani ilə reallaşan görüşü zamanı Gürcüstanla sahəvi əməkdaşlıq məsələləri müzakirə edilib. Görüşdə Azərbaycan və Gürcüstan arasında əqli mülkiyyət sahəsində qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən coğrafi göstəricilərin qarşılıqlı tanınması haqqında ikitərəfli sazişin qəbul edilməsi məsələsi müzakirə olunub. Hər iki tərəf əməkdaşlığın inkişafının davam etdirilməsində maraqlı olduqlarının ifadə edib, bunun milli, regional və beynəlxalq əqli mülkiyyət ekosistemin möhkəmlənməsinə xidmət edəcəyini qeyd ediblər.

Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinin və onun tabeliyində olan qurumların əməkdaşları Belarus Milli Əqli Mülkiyyət Mərkəzinin 30 illiyinə həsr edilən Forumda (27-28 aprel), Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında sahəvi əməkdaşlığın inkişafı məqsədilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Avrasiya Patent Təşkilatı çərçivəsində keçirilən tədbirlərdə müvafiq məsləhətləşmələr davam etdirilmiş, qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

Ümumiyyətlə, hesabat ilində Agentliyin nümayəndələlri 60-dan artıq təlim, seminar və konfranslarda iştirak etmişlər.

Hesabat ilində Azərbaycan Respublikasının beynəlxalq əlaqələri ilə bağlı beynəlxalq qurumlarla, hökumətlərarası, ölkənin nazirliklərinin və komitələrinin digər ölkələrin aidiyyəti qurumları arasında əlaqələrə dair 230-a yaxın sənəd icra edilmişdir.

## 9. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər

2022-ci il ərzində Əqli Mülkiyyət Agentliyinin Aparatının və tabeliyində olan qurumların fəaliyyəti ilə bağlı vahid kompüter şəbəkəsinin idarə olunması, internet səhifəsinin təkmilləşdirilməsi, informasiya resurslarının idarə olunması, proqram təminatlarının yenilənməsi, təhlükəsizliyin təmin olunması, elektron xidmətlərin işinin təşkili, Agentlik haqqında məlumatların mətbuatda və sosial şəbəkələrdə yerləşdirilməsi, Agentlikdə dərc olunan materialların toplanması, emalı, dərc üçün hazırlanması və dərc olunması ilə bağlı bir sıra işlər görülmüşdür.

Elektron Hökumət Portalı üzərindən vətəndaşlar üçün sənəd qəbulunu və müraciətlərlə bağlı məlumatlanmanı daha səmərəli təmin edilməsi, Agentliyin əməkdaşlarının sorğularına uyğun olaraq, "PƏNAH" sistemində təkmilləşdirmə işləri davam etdirilmiş mövcud Koreya sisteminə əvəz olaraq, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təqdim etdiyi və dünyanın aparıcı ölkələrində tətbiq olunan daha səmərəli IPAS sisteminə əmtəə nişanları üzrə miqrasiya prosesinin tətbiqinə və PƏNAH sistemi ilə inteqrasiyasına başlanılmışdır.

2022-ci il ərzində informasiya, maarfləndirici və təbliğat xarakterli 100-dən artıq məqalə və yazıların kütləvi informasiya vasitələrində dərc olunmasına dəstək verilmiş, TV və radio kanallarında əqli mülkiyyət sahəsinə dair 30-a yaxın veriliş və süjetlər göstərilmişdir. Agentliyin sosial media (Facebook, Instagram, Youtube, Twitter, Linkedin) hesabları üzərindən 500-dən çox paylaşım edilmişdir.

Hesabat ilində Agentlik tərəfindən "2023-2024-cü illər üzrə Əqli Mülkiyyət Agentliyinin Kommunikasiya strategiyası" və "Əqli Mülkiyyət Agentliyinin böhran vəziyyətlərinin

kommunikasiya planı” hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdil edilmişdir.

Cari ilin 25-27 aprel tarixlərində Medianın İnkişafı Agentliyi və "ADA” Universitetinin birgə təşkilatçılığı ilə dövlət qurumlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün “Media və kommunikasiya siyasəti medianın gözü ilə” mövzusunda keçirilən seminarda Agentliyin nümayəndəsi iştirak etmişdir.

2022-ci il 17-20 may tarixlərində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan “İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi” (“İKT LAB”) tərəfindən təşkil olunan "Dövlət qurumları üçün sosial medianın istifadəsi" üzrə təlimdə Agentliyin nümayəndəsi iştirak etmişdir.

Agentliyin veb-saytının ingilis dilindəki versiyasının mütəmadi monitorinqinin aparılması, sayta yerləşdirilən informasiyanın, xəbərlərin mütəmadi qaydada ingilis dilinə tərcümə edilərək sayta yerləşdirilməsi təmin edilmişdir.

**İnteqrasiya həlləri.** Avrasiya Patent Təşkilatı tərəfindən Agentlikdə rəqəmsal üçölçülü modellərin istifadəsini təmin etmək üçün pilot layihənin həyata keçirilməsinə qərar verilmişdir. 3D obyektlər üzrə iddia sənədlərinin qəbulu üzrə proqram təminatının mövcud informasiya resurslarımıza inteqrasiyası nəzərdə tutulmuşdur.

Respublika Elmi-Texniki Kitabxanasında istifadə olunan İRBİS-64 elektron kitabxana yaratmaq və saxlamaq üçün nəzərdə tutulmuş avtomatlaşdırma sistemi fərdi kompüterdən virtual serverə köçürülmüşdür.

**“ESET NOD32” mərkəzləşdirilmiş antivirusun qurulması.** Dövlət qurumlarının, habelə tabeçiliyində olan alt qurumların, habelə ictimai əhəmiyyətli infrastruktur obyektlərinin fəaliyyətində istifadə olunan proqram təminatının (o cümlədən antivirus proqramlarının) təhlükəsizliyinə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) cavabdeh olduğu üçün XRİTDX tərəfindən Dövlət qurumlarına “ESET NOD32” antivirusu alınmış və nüsxələrin idarə edilməsi üçün idarəetmə mərkəzi qurulmuşdur. Qeyd edilənləri nəzərə alaraq XRİTDX-dən “ESET NOD32” antivirusu alınmış və daxili mərkəzləzləşdirilmiş server qurulmuşdur. Agentlikdə və tabeli qurumların komputerlərində antiviruslar quraşdırılaraq mərkəzi serverdən idarə olunma təmin olunmuşdur.

**İnformasiya təhlükəsizliyinin təmin olunması.** Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamı ilə yaradılmış İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının 2021-ci il 17 noyabr tarixli 7/672-KK nömrəli məktubuna əsasən Agentliyin əməkdaşlarının informasiya təhlükəsizliyi sahəsində biliklərinin artırılması və iş vaxtında xidməti istifadə üçün ayrılmış informasiya texnologiyalarından yalnız təyinatı üzrə istifadə edilməsi məqsədilə Komissiya tərəfindən təsdiq edilmiş “İnformasiya Təhlükəsizliyinin Təminatı haqqında” təlimat nümunəsi əsasında, “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində və onun tabeliyində olan qurumlarda informasiya təhlükəsizliyinin təminatı üzrə Təlimat” hazırlanmışdır. Təlimatda göstərilənlərin Agentliyin və tabeliyində olan qurumların iş prosesi zamanı nəzərə alınması daim diqqətdə saxlanılır.

İnformasiya təhlükəsizliyinin təmin olunması məqsədilə əməkdaşlar mütəmadi olaraq məlumatlandırılır, məlumat mübadiləsi üçün istifadəçilər üçün müəyyən olunmuş icazələrə uyğun olaraq sistem üzrə istifadəçi adlarında, ümumi paylaşılan qovluqlarda icazələrin verilmə mexanizminə nəzarət olunur, şəbəkəyə daxili və xarici müdaxilə halları daim nəzarətdə saxlanılır.

**Nəşrlər və çıxışlarla bağlı görülən işlər. Əqli mülkiyyət sahəsi ilə bağlı konfransların təşkil edilməsinə,** erməni saxtakarlıqlarının ifşasına həsr olunan **kitabların hazırlanması və nəşr edilməsinə** xüsusi diqqət yetirilmiş, həmçinin ötən illərdə buraxılmış kitabların bir çoxu yenidən çap edilərək yayılmışdır. Bununla yanaşı, İnternet səhifələrində

müəlliflik hüquqları və əqli mülkiyyətə dair informasiyaların axtarışı, çapı və rəhbərliyə təqdim edilməsi; qeyd olunan bayramların, təbriklərin, ilin təqviminin hazırlanaraq nəşr edilməsi; məqalələrini çıxışların, intervülərin və digər yazıların elektron variantda hazırlanması və rəhbərliyə təqdim edilməsi üzrə mütəmadi iş aparılmışdır.

## 10. Kadrların peşəkarlığının artırılması, vətəndaşların müraciətlərinə baxılması və kargüzarlığın təşkili.

**10.1. Kadrlarla iş və peşəkarlığın artırılması.** Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

2022-ci ildə Agentliyin Aparatına 4 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 5 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 7 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasına 8 nəfər, Agentliyin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinə 5 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 9 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 5 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən 6 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasından 17 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentliyin Aparatı və tabeliyində olan qurumlar üzrə işçilərin cəmi sayı 253 nəfər, o cümlədən Agentliyin Aparatında 63 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 34 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 64 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında 87 nəfər, Agentliyin tabeliyindəki Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzində isə 5 nəfər olmuşdur.

Hesabat dövründə 9 nəfərə müvafiq ixtisas dərəcələri verilmişdir. İnzibati dövlət qulluğu vəzifələrinə qəbul üçün keçirilən müsahibələrin onlayn qaydada təşkili təmin edilmişdir. Cari ildə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Əqli Mülkiyyət Agentliyinin 3 dövlət qulluqçusu “Dövlət qulluğunda fərqlənməyə görə” medalıilə təltif edilmişdir.

Hesabat dövründə Agentliyin Aparatı üzrə 2 nəfər, Agentliyin tabeliyində olan olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi üzrə 1 nəfər barəsində intizam tənbehi tədbiri görülmüşdür. Belə ki, Aparatın iki əməkdaşı işdə yol verdikləri nöqsanlara görə aşağı vəzifəyə keçirilmiş, Ekspertiza Mərkəzinin bir əməkdaşına isə şiddətli töhmət verilmişdir.

Əqli Mülkiyyət Agentliyinin Aparatının və tabeliyində olan qurumların əməkdaşları əqli mülkiyyət sahəsində beynəlxalq qurumların xətti ilə ixtisasartırma tədbirlərində, o cümlədən ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin əqli mülkiyyət sahəsi ilə bağlı 60-dan artıq milli və beynəlxalq kurs, seminar və konfransda iştirak edərək ixtisaslarını artırmış və 28 sertifikat almışlar, o cümlədən Agentliyin Aparatının əməkdaşları 6, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin işçiləri 14, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçiləri 8 sertifikat almışlar.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmiş, həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə, “Əmək və məşğulluq” altsisteminə (ƏMAS) və Müəssisə resurslarının planlaşdırılması sisteminə daxil edilməsi təmin edilmişdir.

Hesabat ili ərzində Agentliyin Aparatının və tabeliyində olan qurumların əməkdaşlarının peşəkarlıqlarının artırılması məqsədilə onların müxtəlif milli, regional və beynəlxalq konfrans, təlim və görüşlərdə iştirakı təmin edilmiş, o cümlədən hesabat ilində Dövlət qulluğu və kadrlarla iş şöbəsinin əməkdaşları aşağıdakı təlimlərdə iştirak etmişlər:

"Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim (23 sentyabr);

Gender məsələləri üzrə məsul şəxslər üçün "Gender bərabərliyi və idarəetmə" mövzusunda təlim (26 oktyabr);

"Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məslələləri" mövzusunda təlim (30 dekabr).

**10.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə 1946 sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin 1476-si icra olunmuş, 88-i icradadır, 9-u əsassız sayılmış, 373-ü isə məlumat xarakterlidir.

Bundan əlavə, Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 243 müraciət, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 631 ərizə, nəzarət markasının vurulması ilə bağlı 127 ərizə, əmtəə nişanının qeydiyyatı ilə bağlı 4486 iddia sənədi, faydalı modelin qeydiyyatı ilə bağlı 7 iddia sənədi, sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 11 iddia sənədi, ixtiranın qeydiyyatı ilə bağlı 193 iddia sənədi və coğrafi göstəricilərin qeydiyyatı ilə bağlı 8 iddia sənədi daxil olmuşdur.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır.

Bununla yanaşı, məhkəmə işləri ilə bağlı hesabat ilində Agentliyə 181 sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin 178 icra olunmuş, 3 icradadır, 20 isə məlumat xarakterlidir.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır.

**10.3. Vətəndaşların qəbulu.** Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür. Eyni zamanda, Agentliyin elektron poçt ünvanına daxil olan müraciətlərin qəbulu və Elektron Hökumət Portalı vasitəsilə vətəndaşlara xidmətlərin elektron şəkildə göstərilməsi davam etdirilmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 749 müraciət (onlardan 336 elektron qaydada), 14 müraciət isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 763). Daxil olan müraciətlər əsasən müəllif hüquqları, sənaye mülkiyyəti məsələləri, əsərlərin qeydiyyatı, maliyyə məsələləri, dövlət qulluğu və kadr məsələləri, texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri, qonorarla bağlı və s. məsələləri əhatə edir. Müraciətlərdən 664-ü həll olunmuş, 2-si qismən həll olunmuş, 44-nə

müvafiq izahat verilmiş, 11-ü baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib, 23-ü əsassız sayılıb, 6-sı baxılmamış saxlanılıb, 13-ü icradadır.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formaları hər il nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir.

2022-ci ildə Əqli Mülkiyyət Agentliyinə daxil olan vətəndaş müraciətlərinə baxılması bərədə ümumiləşdirilmiş məlumat aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl

| Sıra №si | Əsas göstəricilər | Ümumi sayı | Ərizə | Şikayət | Təklif | Nəzarət | Təkrar | Kollektiv |
|---|---|---|---|---|---|---|---|---|
| I | **Daxil olan müraciətlər,** o cümlədən: | **763** | **762** | **1** | | | | |
| | - təşkilatın aparatına | **705** | **74** | **1** | | | | |
| | - tabe qurumlara | **58** | **58** | | | | | |
| II | **Müraciətlərin forması:** | | | | | | | |
| | - məktub | **427** | **426** | **1** | | | | |
| | - elektron məktub | **336** | **336** | | | | | |
| | - teleqram | | | | | | | |
| | - faks | | | | | | | |
| III | **Daxil olan müraciətlərin mövzuları:** | | | | | | | |
| | 1. Müəllif hüquqları ilə bağlı | **23** | **23** | | | | | |
| | 2. Sənaye mülkiyyəti ilə bağlı | **69** | **68** | **1** | | | | **1** |
| | 3. Əsərlərin qeydiyyatı və əsərə hüquq sahibliyinin müəyyənləşdirilməsi ilə bağlı | **530** | **530** | | | | | |
| | 4. Texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri ilə bağlı | **1** | **1** | | | | | **1** |
| | 5. Maliyyə məsələləri ilə bağlı | **35** | **35** | | | | | |
| | 6. Qonorarla bağlı | **7** | **7** | | | | | |
| | 7. dövlət qulluğu və kadr məsələləri ilə bağlı | **21** | **21** | | | | | |
| | 8. Digər mövzular | **5** | **5** | | | | | |
| IV | **Müraciətlərə baxılmasının vəziyyəti:** | | | | | | | |
| | - həll olunub | **664** | **663** | **1** | | | | |
| | - qismən təmin edilib | **2** | **2** | | | | | |
| | - rədd edilib (əsassız sayılıb) | **23** | **23** | | | | | |
| | - müvafiq izahat verilib | **44** | **44** | | | | | |
| | - dövlət proqramlarında icrası nəzərdə tutulub | | | | | | | |
| | - icradadır | **13** | **13** | | | | | |
| | - baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib | **11** | **11** | | | | | |
| | - baxılmamış saxlanılıb | **6** | **6** | | | | | |

| | | |
|---|---|---|
| V | **İcra müddəti pozulmaqla baxılan müraciətlərin sayı** | **-** |
| VI | **Təşkilatda baxılmış müraciətlərə verilən cavabların sayı** | **118** |
| VII | **Qəbul edilmiş vətəndaşların sayı,** o cümlədən: | **295** |
| | - rəhbərin qəbulu (fərdi) | **4** |
| | - rəhbərin səyyar qəbulu | **-** |
| | - təşkilatın vəzifəli şəxslərinin qəbulu | **176** |
| | - tabe qurumlarda | **115** |

## 11. Kollektiv idarəetmə sahəsində aparılan işlər.

**11.1.** 2022-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Agentliyin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır. Kollektiv idarəetmə sahəsində fəaliyyət göstərən təşkilatlarla səmərəli fəaliyyətin qurulması və onların fəaliyyətinə dəstək verilməsi bu sahədə yaradılmış ictimai birliklərin işinin səmərəliliyinin artmasına müsbət təsir göstərmişdir. Hesabat ilində "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi dövlət qeydiyyatına alınmış və Agentlikdə akkreditasiyadan keçirilmişdir. Yeni İctimai Birlik ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyini həyata keçirir. Öncə fəaliyyətə başlamış “Müəllif Hüquqları Uğrunda” İctimai Birliyi ilə əməkdaşlıq genişləndirilmişdir.

Hesabat ilində xarici, yerli təşkilatlar və müəlliflərin müraciətləri əsasında müəllif qonararlarının ödəniş faizinin miqdarının müəyyən edilməsi və ödənilməsi ilə bağlı işlər aparılmış, daxil olan müraciətlər əsasında müəlliflər və onların hüquqi varisləri ilə əlaqə yaradıllmış, onlara qanunvericiliyin tələblərinə uyğun izahatlar verilmiş, razılaşmalar əldə olunmuş və bəzi hallarda icrası ilə əlaqədar aidiyyatı üzrə yönləndirilmişdir.

Şəxsi məqsədlər üçün surətçıxarmaya görə qonorarların yığılması sahəsində Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Azərbaycan Professional Kinorejissorlar Gildiyası” İctimai Birliyi arasında əməkdaşlıq haqqında müqavilənin şərtlərinə uyğun olaraq audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasında iştirak edən maddi daşıyıcıların növlərinin müəyyən edilməsi, belə maddi daşıyıcıların ölkə ərazisinə idxal edən və ölkə ərazisində istehsal edən subyektlərin müəyyən olunması istiqamətində uçotun formalaşdırılması, həmin subyektlərin qanunvericiliyin tələbləri üzrə maarifləndirici tədbirlərin həyata keçirilməsi, audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovisual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonogram istehsalçılarının qonorar almaq hüququnun təmin edilməsi istiqamətində işlər görülmüşdür.

Bununla yanaşı, bədii gimnastika üzrə 2022-ci ilin 15-19 iyun tarixlərində İsrailin Tel-Əviv şəhərində bədii gimnastika üzrə 38-ci Avrova Çempionatında, 27 iyun - 3 iyul tarixlərində Çin Xalq Respublikasının Çendu şəhərində 31-ci Ümumdünya Yay

Universiadasında, 7-17 iyul tarixlərində Amerika Birləşmiş Ştatlarının Birmingem şəhərində 11-ci Ümumdünya Oyunları və 9-18 avqust tarixlərində Türkiyənin Konya şəhərində 5-ci İslam Həmrəyliyi Oyunlarında təşkil olunan yarışlarda milli komanda üzvlərimizin çıxışı zamanı, onları müşayiət edəcək musiqilərin istifadə olunması üçün müəllif hüquqları sahiblərindən müvafiq lisenziya alınması üçün musiqi kompozisiyalarının müəllif hüquqları sahibləri ilə əlaqə yaradılmış və onların razılığı alınmışdır.

Agentliyin dəstəyi və tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin təşkilatçılığı ilə "2022-ci il 22 iyul tarixində Müasir mərhələdə müəlliflərin və əlaqəli hüquq sahiblərinin hüquqlarının qorunması üzrə Kollektiv İdarəetmə Təşkilatlarının fəaliyyətləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda "Müəllif Hüquqları Uğrunda" İctimai Birliyi (MHU), "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi (RAYS), o cümlədən Türkiyənin "Musiki Eseri Sahipleri Meslek Birliği" (MESAM), "Musiki Eseri Sahipleri Grubu Meslek Birliği" (MSG), Rusiya Federasiyasının "Rusiya Müəllif Cəmiyyəti" (Российское Авторское Общество - РАО), Qırığız Respublikasının Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi (KIGIZPATENT), Qazaxıstan Respublikasının "Amanat" Müəlliflik hüququ və əlaqəli hüquqların qorunması üzrə qeyri-kommersiya təşkilatı, Özbəkistan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqların qorunması cəmiyyəti"nin (UzAvtor) nümayəndələri, ölkəmizin sənət adamları, bəstəkarlar, yazarlar, fonoqram istehsalçılar iştirak ediblər. Konfrans iştirakçıları kollektiv idarəetmə təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi barədə birgə bəyanat imzalamışlar.

Tədbirin əsas məqsədi müəlliflik hüququ və əlaqəli hüquqların qorunmasının təşviqi, bu sahədə əmlak hüquqlarının kollektiv əsasda idarə edən təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsi, müəlliflərin (hüquq sahiblərinin) və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyinin, o cümlədən onların qonorar almaq hüquqlarının təmin edilməsi üçün təşkilatlar arasında təcrübə mübadiləsi və qarşılıqlı dəstəyin göstərilməsi olmuşdur.

Müəllif hüquqlarının kollektiv əsasda idarə edilməsi sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində iyul ayında Agentlikdə ölkəmizdə fəaliyyət göstərən "Müəlliflik hüququ uğrunda" İctimai Birliyi, "Rəqəmsal və audiovizual yayım sənayesi" İctimai Birliyi və Türkiyənin Musiqi Əsəri Sahibləri Qrupu Peşəkar Birliyinin (MSG) nümayəndələri ilə görüş keçirilib. Görüşdə Azərbaycan və Türkiyədə fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatları arasında əməkdaşlıq məsələləri müzakirə edilib. Tədbirdə çıxış edən Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu islahatları nəticəsində formalaşan əqli mülkiyyət mədəniyyətinin kreativ sənayenin inkişafına, əqli mülkiyyət hüquqlarına hörmətinin`artmasına təsir etdiyini qeyd edərək, müəllif hüquqları sahəsində ölkəmizdə görülən müvafiq işlər barədə məlumat verib, müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlara dövlət tərəfindən daim dəstək göstərildiyini bildirib. O, Azərbaycan və Türkiyənin kollektiv idarəetmə təşkilatları arasındakı işgüzar əlaqələrin daha da inkişaf etməsinin iki qardaş xalq arasında dostluq münasibətlərinə töhfə verəcəyini vurğulayıb.

Görüşün nəticəsi olaraq qurumlar arasında niyyət protokolu imzalanmışdır. Azərbaycan və Türkiyədə müəlliflərin və ifaçıların əqli mülkiyyət hüquqlarının qarşılıqlı qorunmasını, qurumlar arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsini özündə əks etdirən bu sənədi Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin direktoru Nəcəf Quliyev, "Müəlliflik hüququ uğrunda" İctimai Birliyinin sədri bəstəkar Gövhər Həsənzadə,"Rəqəmsal və audiovizual yayım sənayesi" İctimai Birliyinin icraçı direktoru Əli Əliyev və Türkiyənin Musiqi Əsəri Sahibləri Qrupu Peşəkar Birliyinin İdarə Heyətinin sədri Ferhat Göçer imzalamışlar.

Bununla yanaşı, 2022-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmişdir. Eyni zamanda kollektiv idarəetmə sahəsində mövcud çatışmazlıqlar və onların aradan qaldırılması yolları Agentlikdə mütəmadi olaraq müzakirə olunmuş, bu sahədə fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına məsləhət və hüquqi yardım göstərilmişdir.

Kollektiv idarəetmə sahəsində fəaliyyət göstərən təşkilatlardan xüsusən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən "Azərbaycan Müəllifləri" İctimai Birliyinin fəaliyyətində yol verilən nöqsanlar, İctimai Birliyin fəaliyyətinin şəffaf və səmərəli olmaması, fəaliyyətinin yekunları, o cümlədən müəllif qonorarının yığılması və hüquq sahiblərinə çatdırılması barədə hesabatı təqdim etməməsi, infrastrukturunun köhnə və rəqəmsal dövrün tələblərinə cavab verməməsi barədə dəfələrlə həmin Birliyə xəbərdarlıq məktubları göndərilmiş, həmçinin İctimai Birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilmişdir. Buna baxmayaraq, sözügedən İB lazımi nəticə çıxarmamış, qanunvericiliklə akkreditasiya üçün tələb olunan sənədləri və fəaliyyətinin yekunları barədə hesabatı bu günə qədər təqdim etməmişdir.

Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatları fəaliyyətinin yekunları barədə illik hesabatlarını hər ilin 1-ci rübünün sonunda təqdim etdiklərinə görə ("Azərbaycan Müəllifləri" İctimai Birliyi isə son bir neçə ildə ümumiyyətlə hesabat təqdim etməmişdir), həmin təşkilatlar tərəfindən 2022-ci ilə görə yığılmış və hüquq sahiblərinə çatdırılmış müəllif qonorarının həcmi barədə müvafiq informasiyalar bu Hesabatda öz əksini tapmamışdır və bu barədə əlavə məlumat veriləcəkdir.

Kollektiv idarəetmə təşkilatlarının yaradılmadığı sahələrdə, o cümlədən teatr-tamaşa təşkilatlarında müəlliflərin əmlak hüquqlarının idarəçiliyi əlavə funksiya kimi Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil edilmiş və Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi tərəfindən həyata keçirilmişdir.

**11.2. Müəllif qonorarı.** Kollektiv idarəetmə təşkilatları tərəfindən 2022-ci ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların hesabat dövrü ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır. Kollektiv idarəetmə təşkilatlarının fəaliyyət göstərmədiyi sahələrdə Agentlik bu işi təşkil etmiş, müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmişdir.

Hesabat ilində müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) 155848.78 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Bunlardan Azərbaycan müəlliflərinə 117808.49 manat, xarici müəlliflərə 11615.61 manat, Dövlət varidatı olan əsərlərə görə 6270.57 manat, gəlir vergisi 19135.53 manat, bank xidməti 1018.58 manat təşkil edir. Eyni zamanda qonorar hesablanan yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır. Agentliyin hesabına daxil olmuş 148611.36 manat müəllif qonorarından köçürmə yolu ilə 101637.16 manat Azərbaycan müəlliflərinə, 31633.5 manat xarici müəlliflərə ödənilmiş, qonorardan tutulmuş gəlir vergisi 18176.54 manat vəsait dövlət büdcəsinə, 442.01 manat bank xidməti üçün və 416,00 manat kart sifarişi üzrə ödəniş köçürülmüşdür. Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə

olunmuşdur. Məsələn, 2018-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3380, 2019-cu ildə 3430, 2020-ci ildə 3470, 2021- ci ildə 3518 nəfər, 2022-ci ildə isə 3549 nəfər olmuşdur.

2022-ci ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-tamaşa müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir. 2022-ci ilin statistik göstəriciləri qonorar məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 630 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 420 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin Visa elektron kartları vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

**12. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2022-ci ildə Əqli Mülkiyyət Agentliyinin Aparatı üzrə tədbirlərinin həyata keçirilməsi ilə bağlı insan resurslarının idarə edilməsi və saxlanılması və tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saxlanması, fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan 3896371,0 manat vəsait daxilində aparılmışdır.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 1867448,58 manatı əmək ödənişlərinə (o cümlədən, 1827502.78 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə və 195078.57 manatı əməyin ödənişi ilə bağlı digər pul ödənişləri,, 25240 manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 38815,44 manatı müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 491961.55 manatı DSMF-na , işsizlikdən sığorta ayırmalarına və icbari sığorta ayırmalarına, 5724.99 manatı bank xərclərinə, 80327.44 manatı isə Agentliyin Aparatının saxlanması üçün digər işlərin görülməsi üçün xərclənmişdir. Agentliyin Aparatı üzrə cəmi faktiki büdcə xərcləri 2 664 650.78 manat olmuşdur.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası 100 ştat vahidinə malikdir və Kitabxana "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncamları rəhbər tutaraq fəaliyyət göstərir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Kitabxananın illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitin 630131,69 manatı əmək haqqı ödənişlərinə (o cümlədən, 531470,32 manatı ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 80949,90 manatı sair pul ödənişlərinə, 17711,47 manat müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 134732,45 manatı DSMF-na ayırmalara, 12248,42 manatı icbari tibbi sığortaya, 3062,10 manatı işsizlikdən sığorta haqqına, 4250,00 manatı bank xərclərinə, 61277,37 manatı kitabxananın saxlanması üçün digər işlərin görülməsinə xərclənmişdir. Cəmi faktiki büdcə xərcləri 845702,03 manat olmuşdur.

Əldə olunan vəsait hesabına Əqli Mülkiyyət Agentliyinə 2022-ci ildə cəmi daxilolma 4194583 manat olmuşdur. O cümlədən: Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nin Maliyyə Xidmətindən Agentliyin hesabına 2022-ci il üzrə 1260298,84 manat (687560,74 chf), Haaqa Sazişinə uyğun olaraq isə 19428 manat (10599 chf) vəsait daxil olmuşdur, Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanlması üçün Avrasiya Patent Təşkilatının Avrasiya Patent Bürosundan Agentliyin hesabına daxil olan vəsaitin məbləği 1516033,00 manat (59117182 rubl) təşkil etmişdir, "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə

görə" 1386072 manat, Audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə yapışdırılan nəzarət markasının alınmasına görə ödənilən haqq üzrə 12752.25 manat.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2022-ci ildə 2529935.9 manat olmuşdur. O cümlədən, Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) 480554.45 manat, ezamiyyə xərclərinə 17699,79 manat xərclənmişdir. Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər 152693.08 manat olmuşdur (o cümlədən: mühafizə xərci - 102805.56 manat, enerji xərci - 24958,02 manat, təbii qaz haqqı- 11379,50 manat, su haqqı – 6032,00 manat, dezinfeksiya xərcləri 4500,00 manat, lift xidməti 2478,00 manat, kommunal xidmət – 540.00 manat). İl ərzində inventar alınması və xidmət göstərilməsi – 6205.62 manat, digər maşın və avadanlığın alınmasına 5322.82 manat, qəzet və jurnallara abunə yazılmasına 12488.01 manat, dəftərxana xərclərinə 5451.06 manat və təsərrüfat xərclərinə 4910.38 manat vəsait sərf olunmuşdur. Nəqliyyat vasitələri ilə bağlı xərclər 48638.84 manat (avtomobil sığortası, təmiri, dayanacaq xərci, yanacaq haqqı, gömrük rüsumu), xidməti minik avtomobilinin alınması 37900 manat,kommunal xidmətləri üzrə xərclər (Hökumət evi) 52345.83 manat, avadanlıq alınmasına 7642.48 manat , cari təmir və digər təmir xidmət xərcləri 2360 manat, rabitə ilə bağlı xərclər 6616.29, internet abunəsi 31261.82 manat, poçt və yük daşıma xidməti üzrə xərclər 5813.60 manat, digər xərclər (suvenirlər, kitab alışı və s. xərclər (işçilərin həyat sığortası, tədbirlərin keçirilməsi, dövlət qulluğu üzrə müsabiqə və müsahibə mərhələsi ilə bağlı xərclər, texniki pasport ucun rüsum ödənişi və s.) 17193.35 manat, bank xərcləri 3446.54 manat və s. təşkil etmişdir. Düzgün tutulmamış və ya artıq ödənilmiş xidmət haqları üzrə ödəyicilərin yazılı müraciətləri əsasında 9234,00 manat məbləğin onların hesablarına qaytarılması təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2022-ci il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına ödənilmişdir. O cümlədən: Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri 451280.38 manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri 1107809.83 manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üçün saxlanma xərcinə əlavə - 17173.67, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnoloqiyaların Kommersialaşdırılması və Transferi Mərkəzinin saxlanılma xərcləri 45 894.06 manat təşkil etmişdir.

Hesabat ilində Agentliyin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri göstərdiyinə və hüquqi hərəkətləri həyata keçirdiyinə görə dövlət büdcəsinə **202 340** manat dövlət rüsumu köçürülmüşdür.

Agentlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş xidmətlərin göstərilməsinə görə 2022-ci ildə daxil olan xidmət haqlarının məbləği **4 194 583** manat, xərclər isə **2 529 935** manat olmuşdur. Beləliklə, gəlir **1 664 648** manat təşkil etmişdir. Bu da 2021-ci illə müqayisədə **468 975** manat çoxdur.